Xalqın qəzeti!

# Xalq qəzeti

№ 155 (30849) 29 iyul 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Azərbaycanın Avropa İttifaqı bazarında mövqeyi möhkəmlənir

### *Yarımillik dövriyyə 22,6 faiz artıb*



***Azərbaycan Prezidenti İlham Əliyev:***

*Azərbaycan artıq Avropanın 10 ölkəsini, o cümlədən Avropa İttifaqının 8 üzvünü qazla təchiz edir.*

**Azərbaycan beynəlxalq aləmdə nüfuzunu genişləndirərək investisiya cəlbediciliyini artırmaqla yanaşı, Avropa İttifaqı (Aİ) ölkələri ilə beynəlxalq ticarət əlaqələrini qarşılıqlı əməkdaşlıq çərçivəsində inkişaf etdirməyi də daim diqqət mərkəzində saxlayıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli, uğurlu siyasət nəticəsində hazırda respublikamız dünyada baş verən iqtisadi təlatümlər fonunda dünyanın sürətli inkişaf tempinə çatan ölkələrindən birinə çevrilib.**

Bu, özünü daha çox çevik və səmərəli iqtisadi idarəetmə hesabına, köklü struktur – institusional islahatların reallaşdırılması nəticəsində qeyri-neft sektorunun payının yüksəlməsində büruzə verib. Qeyri – neft sənayesinin inkişafı ölkəmizin karbohidrogen daşıyıcılarının hasilat və ixracından əldə edilən gəlirlər hesabına sürətlənib, eyni zamanda, bunun nəticəsində daxili istehsalın və istehlak bazarının idxaldan asılılığı azalıb, ixracın şaxələnməsi reallaşıb.

***(ardı 7-ci səhifədə)***

## Brüssel üçün “dönüş anı”



### *Bu dəyişikliyi Azərbaycanın düzgün diplomatiyası və liderin nüfuzu şərtləndirir*

**Uzun illər ərzində Avropa İttifaqının Cənubi Qafqaz siyasəti, xüsusilə də Azərbaycanla münasibətləri ikili standartlara əsaslanır, daha çox ideoloji yanaşmalara və abstrakt “dəyərlər siyasəti”nə söykənirdi. Brüsselin Cənubi Qafqazda formalaşdırmağa çalışdığı siyasi diskursun mərkəzində mücərrəd liberal dəyərlərə əsaslanan yanaşmalar dayanırdı. Azərbaycanın suverenlik hüquqları, ərazi bütövlüyü və təhlükəsizlik narahatlıqları fonunda bu mövqelər qeyri-obyektiv və hətta destruktiv xarakter daşıyırdı.**

***(ardı 4-cü səhifədə)***

## Zəngəzur dəhlizi və ...İranın “qırmızı xətti”

### *Cənab Əli Əkbər Vilayəti yenə nə isə “çəkir”*

**İran və ölkənin “qırmızı xətti”. Deyəsən, Cənub qonşumuzda bu barədə söz açan cəmi iki nəfər qalıb. Hərçənd, onlardan biri ölkədə deyil. Söhbət İranın Ermənistandakı səfiri Mehdi Sobhanidən gedir. Diplomat bütün hərəkət və davranışları ilə Fransanın İrəvandakı elçisi Olivye Dekotinini xatırladır. Birincinin dedikləri ikincinin sərsəmləmələrindən heç nə ilə fərqlənmir. Bu iki şəxsin ritorikasına ermənipərəstlik hakim kəsilib. Ancaq söhbətimiz bu barədə deyil.**




İranın “qırmızı xət”lərindın ən çox söhbət açan ikinci şəxs ölkənin Ali Dini liderinin beynəlxalq məsələlər üzrə müşaviri, sabiq xarici işlər naziri Əli Əkbər Vilayətidir. Əvvəllər o və digər İran rəsmiləri “çəkdikləri” “qırmızı xətt” anlayışına Ermənistanın ərazi bütövlüyü və suverenliyi, daha dəqiq desək, ölkənin sərhədlərinin toxunulmazlığı, böyük anlamda isə regionda sərhəd dəyişikliyinin yolverilməzliyi kontekstində izah verirdilər. Hazırda eyni ritorikanın başlıca mövzusu Zəngəzur dəhlizidir. Doğrudur, cənab Vilayəti ermənipərəst deyil. O, əsl İranpərəstdir və bu barədə söz açacağıq. Hərçənd, “İranpərəst” ifadəsi yerinə düşmür. Çünki, hər bir şəxs, o cümlədən dövlət rəsmisi öz ölkəsinin təəssübünü çəkməlidir...

Əlbəttə, Zəngəzur dəhlizi ilə bağlı artan beynəxalq diskussiyalar fonunda İranın dəhliz məsələsinə fokuslanmış reaksiyası proqnozlaşdırılan idi. Amma hesab edirik ki, cənab Vilayəti “barıtı çox edib”. Qocaman diplomatın, belə demək mümkünsə, barıt qoxulu fikirlərini “Sepah Pasdaran” telegram kanalı yayıb, erməni mediası isə boş durmayaraq, məsələ ətrafında şou düzəldib. Şounun motivi budur: İran Azərbaycana barmaq silkələyir. İddia çox gülüncdür.

***(ardı 3-cü səhifədə)***

## Məqbərə kölgəsində siyasi oyunlar



səhifə ⇨ 4

## Fransanın qətnaməsi – Makronun sarsıntısı



səhifə ⇨ 5

## Gürcüstan–Aİ münasibətləri: xarici təzyiqlər və daxili mübarizə



səhifə ⇨ 5

## Sumqayıtın karbamid gübrəsi dünya bazarında

səhifə ⇨ 7

## Bakının etibarlı etimad körpüsü



səhifə ⇨ 6

## ABŞ–Aİ tarif kompromisi



**ABŞ Prezidenti Donald Tramp iyulun 27-də Şotlandiyada Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayenlə apardığı danışıqlardan sonra tərəflər arasında tarif sazişinin əldə olunduğunu bəyan edib. Sazişə əsasən, Avropa ölkələrindən ABŞ-a idxal olunan mallar 15 faiz gömrük rüsumu ilə vergiyə cəlb ediləcək. Bu rəqəm əvvəlcədən planlaşdırılan 30 faizlik tariflə müqayisədə aşağı olsa da, Tramp administrasiyasının ciddi güzəştə getdiyini söyləmək çətindir.**

Əvəzində Avropa İttifaqı bir sıra güzəştlərə razılaşıb. Belə ki, ABŞ mallarının Avropa bazarına rüsumsiz çıxışı təmin olunacaq və Avropa şirkətləri ABŞ-a əlavə 600 milyard dollarlıq investisiya yatıracaq. Həmçinin ABŞ-dan hərbi texnika və enerji daşıyıcılarının iri həcmdə alınmasına dair razılaşma əldə olunub.

***(ardı 11-ci səhifədə)***

## Uşaqların kövrək dünyası



səhifə ⇨ 11

## Peru Respublikasının Prezidenti Zati-aliləri xanım Dina Ersilia Boluarte Zeqarraya

**Hörmətli xanım Prezident!**

Peru Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Peru arasında münasibətlər xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Peru xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyul 2025-ci il**

## Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622 (Cild I); 2024, № 3, maddə 262, № 4, maddə 397, № 5 (I kitab), maddə 526, № 6 (I kitab), maddə 657, № 8, maddə 948, № 11, maddə 1197; 2025, № 3, maddələr 224, 232; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 may tarixli 382 nömrəli Fərmanı) ilə təsdiq edilmiş Əlavə 2 – "Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

**1** 18-ci hissə ləğv edilsin.

**2** 19-1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"19-1. Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi üzrə:

19-1.1. müstəqil şöbələrin müdirləri;

19-1.2. Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin tabeliyində "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru və onun müavinləri;

19-1.3. Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin strukturuna daxil olan "Cihaz İstehsalat Birliyi" Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 iyul 2025-ci il**

## Daxili işlər naziri xidmətə qəbulla bağlı növbəti sıra baxışı keçirib



**İyulun 28-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər və rayon polis orqanlarında sıravi və kiçik rəis şəxsi heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, Bakı şəhərində keçirilən sıra baxışında DİN-ə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 214 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb, onlardan 28-i Vətən müharibəsi iştirakçılarıdır.

Gənclər qarşısında çıxış edən nazir seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

***XQ***

## Azərbaycan–Özbəkistan diplomatik məsləhətləşməsi




**İyulun 28-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Özbəkistanın xarici işlər naziri Baxtiyor Saidov arasında telefon danışığı olub.**

Telefon danışığı zamanı Azərbaycan-Özbəkistan strateji müttəfiqlik əlaqələrindən irəli gələn məsələlər, Özbəkistan Prezidentinin iyulun 2-də ölkəmizə dövlət səfərinin nəticəsində ikitərəfli, o cümlədən çoxtərəfli əməkdaşlıq istiqamətində əldə olunmuş razılıqların icrası planları, habelə regional vəziyyət müzakirə olunub.

Həmçinin iki ölkənin iştirakı ilə təşkil olunan beynəlxalq tədbirlərə hazırlıq məsələləri nəzərdən keçirilib.

***XQ***

# Sahibə Qafarova Qadın Parlament Sədrlərinin 15-ci Sammitində

**İyulun 28-də İsveçrə Konfederasiyasının Cenevrə şəhərində Qadın Parlament Sədrlərinin 15-ci Sammiti keçirilib.**




Sammitdə 29 ölkənin qadın spikerləri, bir sıra beynəlxalq təşkilatların qadın rəhbərləri daxil olmaqla, ümumilikdə 350-yə yaxın nümayəndə iştirak edib.

Tədbirdə çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova sammitin əhəmiyyətindən danışaraq, bildirb ki, hazırda bir çox yerlərdə qadınlar zorakılıqdan, köçkünlükdən, sosial təminat vasitələrini, təhsil, səhiyyə və müdafiə imkanlarını itirməkdən əziyyət çəkirlər. Ötən əsrin 90-cı illərinin əvvəllərində ərazilərimizin 20 faizinin qonşu Ermənistan tərəfindən işğalı nəticəsində təxminən 1 milyon soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Bu əhalinin 52 faizini təşkil edən qızlar və qadınlar evlərini, ailələrini və təhlükəsizliklərini itiriblər.

Azərbaycanın 1918-ci ildə əksər Avropa ölkələrini qabaqlayaraq, qadınlara səsvermə hüququ verən ölkə olduğunu deyən Sahibə Qafarova ölkəmizin qadınların hüquqlarının və onların ictimai həyatın bütün sahələrində fəal iştirakının təmin edilməsinə sadiq olduğunu söyləyib.

Diqqətə çatdırılıb ki, Azərbaycan 2020-ci ildə ərazi bütövlüyünü bərpa etdikdən sonra işğaldan azad olunmuş ərazilərin bərpası, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması ilə bağlı tədbirləri uğurla həyata keçirir. Bu gün bu ərazilərdə 50 mindən çox insan yaşayır, işləyir və təhsil alır. Qadınlar isə sosial-iqtisadi infrastrukturun yaradılmasında, təhsil və tibb müəssisələrinin fəaliyyətində, davamlı inkişaf, işğaldan azad olunmuş ərazilərdə mədəni irsin bərpası təşəbbüslərinin həyata keçirilməsində fəal rol oynayırlar.

Sahibə Qafarova vurğulayıb ki, Ermənistan tərəfindən basdırılan 1,5 milyon mina hələ də görülən işlərə əsas maneə olaraq qalır. Ərazilərin minalardan təmizlənməsində, böyük insan və maliyyə resurslarının cəlb olunması lazım olan tədbirlərdə də Azərbaycan qadınları iştirak edirlər.

***XQ***

## Milli Məclisin sədri Parlamentlərarası İttifaqın Baş katibi ilə görüşüb

**İsveçrənin Cenevrə şəhərində işgüzar səfərdə olan Milli Məclisin sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq ilə görüşüb.**



Sahibə Qafarova Milli Məclislə Parlamentlərarası İttifaq arasında əməkdaşlığın mövcud vəziyyətindən məmnunluğunu ifadə edib və bildirib ki, Parlamentlərarası İttifaq beynəlxalq əməkdaşlıq baxımından səmərəli platformadır.

Görüşdə ötən il Azərbaycanın ev sahibliyi ilə keçirilən COP29 çərçivəsində Parlamentlərarası İttifaq və Milli Məclisin birgə təşkilatçılığı ilə baş tutan parlament konfransının yüksək səviyyədə təşkil olunduğu da qeyd edilib.

**Xuntaçıların məhkəməsi**

## Ermənistan hərbçiləri verdikləri işgəncələrə, vurduqları zərərə görə ittiham edilirlər

**Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə, müharibə və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyulun 28-də davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında zərərçəkmiş şəxs Tahir Mahmudov 2021-ci il iyulun 21-də Xocalı rayonunda mina partlaması nəticəsində ağır xəsarət aldığını bildirib. Cümşüd Qəhrəmanov deyib ki, yaşadığı Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin 2020-ci ildə Vətən müharibəsi zamanı artilleriya atəşinə tutulması nəticəsində evinə zərər dəyib, heyvanları tələf olub. Hilal Həziyev isə Cocuq Mərcanlı kəndində üz nahiyəsindən qəlpə xəsarəti aldığını söyləyib.

Güloğlan Mirzəliyev 2021-ci ilin fevral ayında Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində minaya düşərək xəsarət aldığını bildirib. Ramil Fərhadov Cocuq Mərcanlı kəndində yaşadığı evə mərmi düşdüyünü söyləyib. Zərərçəkmiş bildirib ki, Cocuq Mərcanlı kəndində Azərbaycan Ordusunun heç bir silahlı birləşməsi olmayıb, kənddən Ermənistan silahlı qüvvələrinə qarşı atəş açılmayıb.

Elnur Əmiraslanov 2018-ci ildə Tərtərdə hərbi xidmətdə olarkən Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində güllə yarası aldığını deyib. Mirhəsən Hüseynov Vətən müharibəsi zamanı oktyabrın 26-da Laçın istiqamətində artilleriya atəşi nəticəsində qəlpə yarası aldığını bildirib.

Aqşin Hüseynov 1992-ci il iyunun 8-də Qazax rayonunun Qızılhacılı kəndində döyüşlər zamanı qarşı tərəfdən atılmış minaatan mərmisinin partlaması nəticəsində yaralandığını bildirib. Kamil Hüseynov Vətən müharibəsi zamanı - 2020-ci il sentyabrın 28-də Tərtərin Çaylı kəndi istiqamətində güllə yarası aldığını bildirib. Pərviz Nəcəfov ifadəsində 2022-ci il oktyabrın 8-də Ağdamda yolda şirkət əməkdaşı qismində çalışan zaman piyadaəleyhinə minaya düşərək xəsarət aldığını bildirib.

Bəxtiyar Məmmədov 1993-cü ilin may ayında Ağdam rayonunun Qalayçılar kəndində əsir götürüldüyünü söyləyib. O, əsirlikdə üç il saxlanılıb. Əsirlik müddətində, həmçinin qəddar və qeyri-insani rəftara, müxtəlif işgəncələrə məruz qalıb.

Sabir Haqverdiyev, İdyal Allahverdiyev, Murad Bənnayev, Özal İsmayılov, Ramin Əfəndiyev, Orxan Salıfov, Ağasif Həmidov, Hüseyn Cavadov, Pərviz Həsənov ifadələrində 2020-ci ildə baş vermiş Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin açdığı atəşlər nəticəsində yaralandıqlarını bildiriblər.

Zərərçəkmiş şəxs Amin Musayev 2020-ci ildə Vətən müharibəsi zamanı güllə yarası aldığını, yaralı vəziyyətdə Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü, əsirlik müddətində hər gün işgəncələrə məruz qaldığını bildirib. Xəyal Məmmədov 2022-ci il sentyabrın 12-də Xocavənddə Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində yaralandığını bildirib.

Emin Quşçiyev ifadəsində 2023-cü il mayın 10-da Kəlbəcərdə Ermənistandan açılmış atəş nəticəsində yaralandığını söyləyib. Bəkir Kərimov 1992-ci il martın 24-də Ağstafa rayonunda alma bağında işlədiyi zaman girov götürüldüyünü söyləyib. Həmin vaxt onunla birlikdə daha beş nəfər azərbaycanlı girov götürülüb. Əvvəlcə Berd rayonuna, sonra isə İrəvan şəhərinə aparılıblar. Onlar döyülüb, söyülüb, işgəncələrə məruz qalıblar.

Həsən Həsənov ifadəsində B.Kərimovla birlikdə girov götürüldüyünü, bir həftə sonra girovluqdan azad olunduğunu söyləyib. Məhəmməd Bayramov B.Kərimov və H.Həsənovla birlikdə girov götürüldüyünü söyləyib. Bildirib ki, girovluqda olduğu vaxt Ermənistan hərbçisi qulağının bir hissəsini bıçaqla kəsərək qoparıb.

Sahib Bağırov ifadəsində 1995-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü bildirib. Əsirlikdə döyülüb, işgəncələrə məruz qalıb. Mülki şəxslər - Fuad Qurbanlı, Elnur Zülfüqarov, Qurban Qurbanov, İlham Əhmədov, Samir Qasımov, Fəqan Mustafayev, Nicat Baxışov ifadələrində Vətən müharibəsi zamanı oktyabrın 28-də Ermənistan silahlı qüvvələrinin Bərdə rayonuna raket atması nəticəsində yaralandıqlarını deyiblər.

Əlyar Ocaqverdiyev iki dəfə - 2020-ci il dekabrın 13-də və 2021-ci il yanvarın 13-də mina partlaması nəticəsində xəsarət aldığını bildirib. Ağa Səfərəliyev 1993-cü ildə, Faiq Namazov 1992-ci ildə Azərbaycanın suveren əraziləri uğrunda gedən döyüşlər zamanı düşmən tərəfdən atılan atəşlər nəticəsində xəsarət aldıqlarını söyləyiblər. Seymur Məmmədov Vətən müharibəsi zamanı sentyabrın 28-də Ermənistan silahlı qüvvələrinin açdığı artilleriya atəşi nəticəsində yaralandığını söyləyib. Hadisə zamanı yanında olan Xaliq və Elşən Abbasov qardaşları həlak olub, Faiq Mahmudov isə yaralanıb.

Əsəd Rüstəmov ifadəsində 2016-cı il martın 19-da Tərtər rayonunun Qapanlı kəndində mülki şəxs qismində avtomobillə gedərkən Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində güllə yarası aldığını söyləyib. Zərərçəkmiş şəxslər - Sabir Lətifov Xocavənd, Oruc Rüstəmov Cəbrayıl, Təzəgül Həmzəyeva Zəngilan, Sarı Baxışov Kəlbəcər rayonundan məcburi köçkün düşdüklərini, evlərinin, mülklərinin həmin vaxt Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərdə qaldığını bildiriblər.

Zərərçəkmişlər təqsirləndirilən şəxslərin, onların müdafiəçilərinin və özlərinin nümayəndələrinin suallarını da cavablandırıblar.

Məhkəmə prosesi iyulun 31-də davam etdiriləcək.

***XQ***

# Zəngəzur dəhlizi və ...İranın “qırmızı xətti”

(əvvəli 1-ci səhifədə)

Beləliklə, Əli Əkbər Vilayəti bildirib ki, Zəngəzur dəhlizi layihəsi, guya, regional inteqrasiyaya, iqtisadi sabitliyə, xalqların rifahına yönəlməyib. Əksinə, bu ideya, guya İranı və Rusiyanın qurudan mühasirəyə almaq məqsədi daşıyan tələdir. Sanki tələyə düşməmək üçün müqavimət göstərilməlidir. Diplomatın fikrincə, Tehranla Moskva Qərbə müştərək müqavimət cəbhəsinin üzvləridir. Belə çıxır ki, İran



və Rusiya həm də Çinə qarşı mübarizə aparmalıdır. Üstəlik, sual yaranır: Pekinlə Vaşinqton eyni cəbhədəmi təmsil olunur?

Ehtimal edək ki, cənab Vilayətinin anlamadığı reallıqlar var. Hərçənd, o, xeyli təcrübəlidir və inanmırıq ki, Zəngəzur dəhlizinin böyük Orta Dəhlizin tərkib hissəsi olmasından xəbərdar deyil. O dəhliz ki, mövcudluğunda və işlək fazaya keçməsində adını çəkdiyimiz Çin maraqlıdır. O Çin ki, embarqo qoyulmuş İran neftinin əsas idxalçısıdır. Hər iki tərəf bir-birindən real müstəvidə faydalanır. Hərçənd, Pekinin “a” və “b” planları var, Tehranın yox.

Həm Orta Dəhliz qlobal əhəmiyyətli siyasi layihə olsa da, iqtisadi amillər üzərindədir. İqtisadi amil qarşılıqlı fayda prinsipini rəhbər tutur və başqa cür




mümkün deyil. Deməli, durumu siyasiləşdirməyə ehtiyac yoxdur. İdeoloji konspriologiyaya da həmçinin. Amma cənab Vilayəti Zəngəzur dəhlizi məsələsini nəinki bilavasitə siyasiləşdirir, eyni zamanda, ona qarşı  müqavimət də orataya qoyur. O, dolayısı ilə xəbərdarlıq edir ki, Tehran dəhlizlə gələcək təhlükəyə təkcə sözlə deyil, həm də əməllə cavab verəcək. “Sepah Pasdaran” onun mövqeyini “İran öz “qırmızı xəttini” nümayiş etdirərək, sərhədə hərbi qüvvələr yerləşdirib və təlimlər keçirib” şəklində təqdim edib. Kanal, həmçinin, bildirib ki, passiv və müşahidəçi siyasət erası bitib, “İran indi qabaqlayıcı və aktiv strategiya yürüdür”. Çünki “bu dəhlizin arxasında ABŞ, NATO, sionist rejim və pantürkist dairələr dayanır”.

Aktiv strategiya hara, pas tutmuş tezislər hara? Bu yerdə Əli Əkbər Vilayətinin İranpərəstliyi üzərində dayanaq. Əvvəlcə isə onu deyək ki, İran Prezidenti Məsud Pezeşkian iyul ayının ilk yarısında özünün sosial şəbəkə hesabında paylaşım etmiş və gələcəyə doğru irəliləmək üçün bir çox baxışların dəyişməsinin vacibliyinə dair mesaj vermişdi. Görəsən, dəyişməli olan nədir? Ağla ilk gələn Vilayəti kimi düşünən başlardır. Çünki bu başların İranpərəstliyinə, yəni təəssübünə köhnə klişelər hakimdir. Onlar hər şeyi ideologiyaya bağlamaqda “mahirdirlər” və eybəcər durum formalaşdırırlar. Müşavirin Zəngəzur dəhlizi xüsusundakı “ABŞ, NATO, sionist rejim və pantürkist dairələr” məntiqi bundan qaynaqlanır.

Sual olunur: Hazırda İslam respublikası dünyaya çoxmu açıqdır? Bəlkə, Tehranın beynəlxalq aləmlə ciddi əlaqələri var? Görəsən, müşavirin ölkəsinin təcridi baxımdan daha pis vəziyyət barədə təsəvvürə nədən ibarətdir? Vilayətinin düşüncə tərzi acınacaqlı aqibət yaşayan birinin “pis günümüz belə olsun” deyərək şərab badəsi qaldırmasına bənzəyir.

Daha bir sual: Məgər Zəngəzur dəhlizinin İran üçün böyük fayda gətirəcəyini anlamaq bu qədərmi çətindir? Yəqin keçmişin qalıqları üçün durumdan baş çıxarmaq müşküldür. Çünki tapındıqları ideologiya var. O ideologiya ki, saxtalıqdan və çürüklükdən başqa bir şey deyil. Elə İranın İsrailə münasibətini götürək. Məsələn, ölkələr arasında rəsmi ticarət dövriyyəsi yoxdur. Amma bununla bağlı qeyri-rəsmi rəqəmlərin, kifayət qədər, yüksək olduğu bildirilir. İndi necə başa düşək? İsrail düşməndirsə, bəs bu nədir? Başqa siyasi ssenariləri kənara qoyuruq, hər halda, lap başlanğıcda İsraili “sionist rejim” adlandırıb ölkəni qaralayan, onunla əlaqələri kəsən İran olmuşdu.

Deməli, Vilayəti köhnənin klişelərini Zəngəzur dəhlizinə qarşı istifadə edir. Haşiyəyə çıxaq ki, diplomatın bir müddət əvvəl Tehranda səfərdə olan Pakistanın daxili işlər naziri Səid Mohsin Nakviyə dedikləri də həmin klişelərdən qaynaqlanmışdı. Müşavir qonağa Pakistanın Azərbaycanla yaxşı münasibətlərinin mövcudluğunu xatırladaraq, ölkəmizin İsraillə əməkdaşlığına diqqət çəkmiş, hətta bir qədər də “irəli” getmişdi. “Ancaq eyni zamanda Azərbaycan dövləti İslam aləminin baxışlarına zidd addımlar atır”, – deyən Vilayəti fikrini əsaslandırmaq üçün rəsmi Bakını Dəməşqlə Tel-Əviv arasında vasitəçilikdə və İsrailə neft ixracında günahlandırmışdı.

Maraqlı məqam yaranır. İranın işğalçı Ermənistanla bütün sahələri əhatə edən işbirliyi İslam aləminin baxışlarına zidd sayılmır, Azərbaycanın İsraillə əməkdaşlığı isə sayılır?! Hazırda Ermənistan var gücü ilə Zəngəzur dəhlizinə qarşı çıxır. Ölkədəki revanşist və şovinist kəsim layihəni pantürkist təşəbbüs kimi qələmə verir. Vilayəti də eyni yolu tutur. Qəribədir, müsəlman dövlətində məsul vəzifəli şəxs də pantürkizmdən danışır, erməni siyasət tör-töküntüləri də. Görəsən, türklər müsəlman deyillər? Hanı Vilayətinin haqqında söz açdığı İslam aləminin baxışları? Məgər dinimiz müsəlmanların birliyini və vəhdətini təbliğ etmirmi? Bəs İran indiyədək həmin birlik və vəhdət naminə hansı iş görüb? Ümumiyyətlə, hansısa iş görübmü? Xeyr! Digər tərəfdən, beynəlxalq aləmdə İslamafobiya adlandırılan qorxunc təmayül mövcuddur. Nəzərə alaq ki, bu təmayülün formalaşmasında vilayətilərin baxışlarında qondarılmış İslamın rolu az deyil. Habelə, İran İslam dünyasının böyük hissəsi ilə düşmən münasibətdədir. Vilayəti isə ölkəsini din təəssübkeşi qiyafəsində göstərir. Bu yerdə atalarımız yaxşı deyib: Utanmasan, oynamağa nə var ki?

***

Bəli, bütün bunlara görə Vilayətinin iranpərəstliyində xüsusi boz çalarlar duyulur və bunun İrana heç bir faydası yoxdur, əksinə, ziyanı var. Tam əminliklə deyə bilərik ki, hazırda diplomatın Zəngəzur dəhlizi ilə bağlı dedikləri də İrana və İslam dünyasına zərərlidir. Əlbəttə, diplomat bunun fərqində deyil. Fərqində deyil və öz aləmində zərərə qarşı immunitet formalaşdırır. Daha doğrusu, Rusiyanı da duruma ortaq etmək istəyir.

Əlbəttə, Vilayətinin Zəngəzur dəhlizinin reallaşması ilə İranla Rusiyanın mühasirəyə düşəcəyinə dair fikirlərində başqa məqamlar da var. Belə düşünmək mümkündür ki, müşavir ölkəsinin regionda imtiyazlı mövqeyini Moskva ilə bərabər qorumaq planları qurur. Əlbəttə, söhbətin hansı imtiyazdan getdiyi məlum deyil. İranın, faktiki olaraq, dünyadan təcrid duruma düşdüyünü vurğuladıq. Bu baxımdan Rusiyanın vəziyyəti daha ağırdır.

Deməli, faydadan danışırıqsa, Zəngəzur dəhlizinin İranla yanaşı, Rusiyaya da böyük xeyri var. Ancaq istər Vilayətinin, istərsə də Rusiyadakı şovinistlərin sayəsində fayda ikinci plana atılır, ortaya ənənəvi imperiya maraqları atılır. O maraqlar ki, əsasında ağır psixoloji xəstəlik dayanır. Bu xəstəlik Qərbdən və ABŞ-dan düşmən obrazı düzəltmək simptomunu daşıyır, sırf İranın timsalında “sionist rejim” klişesini tirajlayır. Yekun nəticədə Cənubi Qafqazdakı erməni xəstəliyi də immunitet qazanır, barış mühitinin formalaşması naminə həmin xəstəliyin aradan qaldırılması səyləri ləngiyir.

Halbuki, rasional düşünmək lazımdır. Azərbaycanın Zəngəzur dəhlizi təşəbbüsü də fayda naminə rasionallığı və proqmatikliyi rəhbər tutur. Bu təşəbbüs, həmçinin, keçmişdə ilişib qalmamağı, gələcək naminə yeni səhifənin açılmasını hədəfləyir. Elə bir səhifə ki, orada bütün maraqlı tərəflərin mənafeləri təmin olunsun, dayanıqlı sülh formalaşsın. Məgər cənab Vilayəti bunu düşünmürmü?

Bəli, Zəngəzur dəhlizi, eyni zamanda, Azərbaycan və Ermənistan arasında sülh gündəmi baxımından müstəsna müzakirə prioritetidir. Yəni, İrəvanın dəhliz məsələsinə yanaşması barış mühitinin təminatı baxımından vacibdir. Rəsmi Bakı isə prinsiplərində ədalətlidir. Ölkəmiz üçün Zəngəzur dəhlizi müqəddəsliyi Naxçıvana maneəsiz yoldur. O yol ki, məhz imperialist maraqlar səbəbindən bağlanıb. Deməli, Azərbaycan haqq-ədalətin bərpasını istəyir. Ermənistan bununla barışmalıdır. Beynəlxalq müstəvidəki yanaşmalarda məsələnin vacibliyi əsaslandırılır. Amma...

“Əmması” budur ki, Ermənistan, hələlik, Azərbaycanın təşəbbüsünə adekvat reaksiya vermir, qeyri-konstruktiv mövqe tutur. Mövcud durumda Vilayətinin yanaşması, istər-istəməz, İranı Rusiya ilə birlikdə Bakı–İrəvan sülhünü əngəlləməyi hədəf seçən tərəfə çevirir. Dayanıqlı sülhün başlıca komponenti Zəngəzur dəhlizidirsə və İran rəsmisi ona qarşı çıxırsa, başqa cür düşünməyə əsas qalmır.

44 günlük müharibədən sonra meydana çıxmış Zəngəzur dəhlizi ideyası beynəlxalq zərurətdən qaynaqlanmış reallıqdır və heç şübhəsiz, yeni münasibətlər sistemi yaradacaq. O sistem ki, onun mühüm regional halqasını Azərbaycan–Türkiyə strateji ittifaqının təşkil etdiyi birmənalıdır. Əvvəl isə Çinin adını əbəs yerə çəkmədik. Bu super güc öz mallarının Qərbə daşımasında etibarlı və daha səmərəli marşruta can atır. Bu marşrutun Orta Dəhliz olduğunu da diqqətə çatdırdıq.

Zəngəzur dəhlizi Orta Dəhlizin tərkib hissəsidirsə və indiki durumda Qərb dünyası, o cümlədən ABŞ onun açılmasına maraq göstərirsə, deməli, təşəbbüs Pekinlə Qərbin maraqlarını uzlaşdırır. Yəni, artıq yola çıxmış qatar var. Hazırkı durumda Vilayətinin açıqlaması həmin qatarın çarxlarına, loru dildə desək, çomaq soxmaq cəhdidir. Sual yaranır: İranın çomağı nə dərəcədə möhkəmdir? Ölkənin İsraillə qarşıdurması göstərdi ki, möhkəmlik yoxdur. O zaman, meydana daha bir sual çıxır: Vilayəti kimilər Zəngəzur dəhlizinə qarşı çıxmaqla nəyə ümid bəsləyirlər? Məgər, onlar Rusiyanın da “çomağının zəifliyinin” fərqində deyillər? Yoxsa, Vilayəti, həqiqətən, Tehranın Moskva ilə birləşib siyasi kamikadzelik etməsinə inanır?

***

Sonda onu da deyək ki, biz öz növbəmizdə regionumuzakı hansısa dövlətin və ya dövlətlərin siyasi kamikadzeliyə baş vuracağına inanmaq istəmirik. Buna görə cənab Vilayətinin Zəngəzur dəhlizinə qarşı müqavimət yaratmaqla bağlı dilə gətirdiyi fikirlərə bir qədər fərqli prizmadan yanaşırıq. Məsələn, düşünə bilərik ki, İran hazırkı reallıqdan daha böyük fayda götürmək niyyətindədir. Axı ölkənin ABŞ-la paralel, Böyük Britaniya, Fransa və Almaniya ilə E3 formatındakı danışıqları var. Cənubi Qafqaz müstəvisində “nadincliyin” həmin danışıqlardan fayda götürməyə hesablanması mümkündür. Belə bir fayda naminə Rusiya ilə üzdə müttəfiq kimi görünmək də həmçinin. Pərdə arxasında isə nəyin baş verəcəyini bilmək çətindir. Yəni İran Qərblə anlaşa bilər. Hər halda, Rusiyada da mahiyyəti görənlər az deyil. Ümumən, Moskvanın Tehrana bel bağladığını söyləmək də çətindir. Uzun sözün qısası, cənab Vilayəti nə qədər istəyirsə, danışa, hələ özü üçün “qırmızı xət”lər də çəkə bilər...

***Ə.CAHANGİROĞLU***
***XQ***

*Replika*

# Abramyandan doğru xəbər

**Rusiya Erməniləri İttifaqının prezidenti Ara Abramyanın reallıqdan və həqiqətdən uzaq, şər-böhtanla dolu açıqlamalarını əvvəllər də eşitmişik. Onun müəyyən dairələrin göstərişi ilə ictimai rəyə üfürdüyü gülünc versiya və sərsəmləmələri, diletant mülahizələri Ermənistan cəmiyyətində belə ciddi qəbul olunmur.**




Bu dəfə “erməni xalqının dərdini” TASS-a danışan, Paşinyan iqtidarının məqsədinin “Ermənistanı, dövləti və dövlətçiliyi məhv etmək” olduğunu bəyan edən Abramyanın dediklərinə ilk reaksiya erməni saytları və bloqerlərindən gəldi. Onlar özünün ana və xarici dili eyni dərəcədə zəif bildiyi vurğulanan şərhlərin birində oxuyuruq: “O, Rusiyanın əyalət yollarının kənarında səssizcə fırlanan beşinci təkərə çevrilərək ləyaqətini, vicdanını və bütün digər insani keyfiyyətlərini itirib. Televiziyada Abramyanın fizionomiyasını və ya sadəcə, şəklini göstərmək kifayətdir ki, hamı onun mənasız söhbətinə qulaq asmaq həvəsini dərhal itirsin”.

Özünün dayaz “politoloji” mülahizələrini pafoslu ritorika ilə ictimai dövriyyəyə sırımağa çalışan A.Abramyanın TASS-a danışdıqları mənasız və məzmunsuz söz yığınından ibarət “qanadlı ifadələrdir”. Onun “savadını və dünya görüşünü” erməni blogerləri bizdən daha dəqiq və “yağlı” epitetlərlə xarakterizə ediblər: “Bu cür silinmiş materialın (oxu Abramyanın -red.) çoxdan heç kimə faydası olmayıb və tezliklə aid və layiq olduğu tarixin arxivinə, həm də təkrar istifadədən xeyli köhnəlmiş və tam yararsız hala düşmüş zibilxanaya göndəriləcək”.

İndi isə Rusiya vətəndaşı olan Ara Abramyanın “siyasi-fəlsəfi-ideoloji” taftologiyasından “nümunələrə” nəzər yetirək. O deyir: “Ermənistanın fəal şəkildə əlaqələr qurduğu Avropa çətin ki, onu yaxınına buraxsın. Ermənistan tarixən Rusiya dövlətinə ən yaxın ölkələrdən biri olmaqla, məhz onun yanında durmalıdır. Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiya prezidenti ilə çox yaxın münasibətləri olduğunu deməsinə baxmayaraq, reallıq tamamilə başqa cürdür”.

Rusiya Erməniləri İttifaqının prezidenti hesab edir ki, ermənilərin Rusiyadan başqa seçim imkanı yoxdur: “Çünki bizim alternativimiz yoxdur. Üstəlik, indi vəziyyət elə deyil ki, bizi hər yerdə gözləsinlər, harasa dəvət etsinlər. Avropa İttifaqı Ermənistana gəl-gəl deyir, bəs niyə evinə buraxmır? Onlar Rusiyaya ziyan vurmaqdan ötrü Ukraynaya dəstək verirlər. Paşinyana da eyni şeyi təklif edirlər, amma o, bunu başa düşmür. Qorxuram ki, sonda dövləti məhv edər”.

Belə dərin analitik qabiliyyətə malik, Paşinyanı savadsızlıqda suçlayan  “beynəlxalq münasibətlər üzrə ekspert” Abramyan, nəhayət, sifarişçilərinin əsl niyyətini açıq şəkildə ifadə edir: “Nikol Paşinyan Ermənistanın baş naziri vəzifəsindən getməli, ya da növbəti seçkilərdə iştirak etməməlidir”. Bununla Kremlin planını faş edən gerizəkalı hay məsələni “daha ciddi şəkildə” qoyur: “Bu adam baş nazir ola bilməz! Erməni xalqı haqqında azca da olsa fikirləşirsə, elə indi vəzifəsindən getməlidir. Onun atacağı ən düzgün addım, yeganə doğru hərəkət budur”.

Bu açıqlaması ilə Ara Abramyan lap “gül vurur”: “Bizim Rusiya ilə siyasi razılaşmalarımız, müqavilələrimiz var. Ona görə də, bu, təkcə Ermənistanın daxili işi deyil. Bu gün biz Rusiyada öz maraqlarımızı müdafiə etməliyik. Rusiya Federasiyasında ümumilikdə 3 milyondan çox erməni yaşayır. Bu, ən böyük diaspordur. Mənim kimi bir çoxlarının Ermənistan vətəndaşlığı olsa belə, ilk növbədə biz rusiyalıyıq”.

Bəli, Ermənistanda hakimiyyətdən kimin gedəcəyi və kimin gələcəyi təkcə “Ermənistanın daxili işi” deyilmiş. Rusiya Erməniləri İttifaqının prezidenti bunu baş nazirə başa salmağa çalışır. O, bununla da kifayətlənməyib, xəstə təxəyyülünün məhsulu olan fərziyə və statistikanı misal çəkir: “Əvvəllər Ermənistan əhalisinin 90-95 faizi rusiyapərəst idi. Amma indi təəssüf ki, xalq qorxur. Ermənistanın fəal şəkildə əlaqələr qurduğu Avropa çətin ki, onu yaxınına buraxsın”.

Hay zehniyyətinin məhsuluna nə qiymət verə bilərik? Qeyd etdiyimiz kimi, Aranın qiymətini ermənilər daha yaxşı veriblər. Bizə qalır Abramyandan qatı açılmamış növbəti doğru xəbərləri gözləmək...

***İ.HƏSƏNQALA***
***XQ***

# Brüssel üçün “dönüş anı”

(əvvəli 1-ci səhifədə)



Avropa strukturlarının Ermənistanın 30 ilə yaxın davam edən işğalçı siyasətinə qarşı prinsipial mövqe tutmaması, əksinə, Azərbaycanı təzyiq hədəfinə çevirməsi regionda sülh və sabitlik naminə deyil, birtərəfli siyasi loyallıq meyarları ilə davranmasının sübutudur. Azərbaycanın düzgün diplomatiyası və liderin nüfuzu şərtləndirir

Brüsselin bu mövqeyi, eyni zamanda, Azərbaycan cəmiyyətində Avropa institutlarına qarşı etimadın zəifləməsinə gətirib çıxarırdı. “Demokratiya dərsləri” adı altında müdaxilə xarakterli bəyanatlar, daxili siyasi proseslərə yönəlmiş açıq və qərəzli



tənqidlər Azərbaycan dövlətçiliyinə qarşı hörmətsizlik kimi qəbul olunurdu. Bununla yanaşı, Avropa Parlamentində qəbul edilən bəzi siyasi bəyanatlar, Ermənistanın işğalını görməzdən gələn və Azərbaycanı ittiham edən sənədlər Aİ-nin obyektiv vasitəçi olmaq imkanlarını ciddi şəkildə zədələdi.

Lakin beynəlxalq münasibətlərdə prioritetlərin dəyişməsi və qlobal güc balansında baş verən yeni dinamika fonunda bu siyasətin tükəndiyi aydın görünməyə başladı. Enerji təhlükəsizliyi, nəqliyyat marşrutlarının sabitliyi və Şərq–Qərb geosiyasi əlaqələrinin mühüm elementi kimi Azərbaycan Avropa üçün daha önəmli aktora çevrildi. Aİ artıq fərq etməyə başlayır ki, Azərbaycanla münasibətlərdə ideoloji yanaşmalar deyil, qarşılıqlı maraqlara əsaslanan praqmatik əməkdaşlıq zəruridir. Enerji böhranı, Rusiyaya qarşı sanksiyaların fonunda təbii qaz təminatının alternativləri və Orta Dəhliz kimi layihələrin strateji əhəmiyyəti Azərbaycanın rolunu daha da artırdı.

Yeni mərhələdə Azərbaycan həm də siyasi və strateji sabitlik mənbəyi kimi önə çıxır. Məhz bu reallığın formalaşmasında Prezident İlham Əliyevin uzunmüddətli strateji baxışa əsaslanan və prinsipial mövqe üzərində qurulmuş xarici siyasəti həlledici rol oynayıb. Azərbaycan heç vaxt öz mövqeyindən geri çəkilmədi, daxili işlərinə müdaxilə cəhdlərinə qarşı prinsipial dayandı, müstəqil və suveren dövlət olaraq öz inkişaf yolunu seçdiyini qətiyyətlə nümayiş etdirdi. Əslində, bu möhkəm duruş və ardıcıl diplomatik fəaliyyət nəticəsində Aİ üçün Azərbaycanla əməkdaşlıq artıq yeganə realist yol kimi görünməyə başladı. Beləliklə, geosiyasi reallıqlar dəyişdikcə, Aİ də dəyişməyə məcbur oldu. Azərbaycan isə dəyişiklikləri diktə edən deyil, yönləndirən ölkə kimi ön plana çıxdı.

2024–2025-ci illər Aİ–Azərbaycan münasibətlərində mühüm siyasi dönüş nöqtəsi oldu. Dəyişiklik münasibətlərin strukturunda və məzmununda özünü göstərdi. Uzun müddət ideoloji çərçivələrə və birtərəfli siyasi yanaşmalara əsaslanan Brüssel siyasəti artıq reallıqla üzləşmək məcburiyyətində qaldı. Aİ-nin Xarici Siyasət və Təhlükəsizlik məsələləri üzrə yeni rəhbəri Kaya Kallasın 2025-ci ilin yazında Bakıya rəsmi səfəri bu dəyişikliklərin institusional ifadəsinə çevrildi. Onun Azərbaycanın Cənubi Qafqazda “Aİ-nin əsas tərəfdaşı” olduğunu bəyan etməsi Avropa siyasətində Azərbaycanın yeni mövqeyinin rəsmən tanınması idi. Bu, bir zamanlar Azərbaycana qarşı müəllim-tələbə münasibəti ilə çıxış edən və “demokratiya dərsləri” adı altında qərəzli tənqidlər səsləndirən Aİ rəsmilərinin əvvəlki siyasətindən açıq şəkildə uzaqlaşması deməkdir.

Kaya Kallasın səfəri və verdiyi bəyanatlar bir neçə aspektdən strateji əhəmiyyət daşıyır. Birincisi, bu səfər Brüsselin Cənubi Qafqaz siyasətində yeni balans yaratmaq niyyətini göstərir. Ermənistanın müharibədən sonra revanşist mövqedə qalmasına və Fransa başda olmaqla, bəzi Aİ üzvlərinin bu siyasətə dəstək verməsinə baxmayaraq, Avropa Komissiyasının və Avropa Xidmətlərinin Azərbaycanın konstruktiv mövqeyini və regional sabitlik üçün əhəmiyyətini qəbul etməsi reallığın diktəsidir. İkincisi, bu dəyişiklik Aİ-nin Azərbaycanın enerji və nəqliyyat potensialına dair baxışının da yeniləndiyini göstərir. Azərbaycanla enerji dialoqunun institusional formata keçməsi, strateji tərəfdaşlıq gündəliyinin formalaşması və Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolunun tanınması artıq siyasi bəyanatlardan konkret razılaşmalara keçid mərhələsidir. Üçüncüsü isə, bu dönüş təkcə Brüsselin təşəbbüsü ilə baş verməyib. Əksinə, bu dəyişiklik Azərbaycan tərəfinin prinsipial siyasətinin və davamlı diplomatik səylərinin nəticəsidir. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, Azərbaycan heç bir təzyiqə boyun əymədən, öz maraqlarını və mövqeyini qoruyaraq Avropa ilə əməkdaşlığa açıqdır. Lakin bu əməkdaşlıq bərabərhüquqlu tərəfdaşlıq əsasında qurulmalıdır. Prezidentin “Brüssel bu gün əvvəlki stereotipləri kənara qoyaraq Azərbaycanı əsas tərəfdaş kimi qəbul etməyə başlayır” fikri həm reallığın siyasi dəyərləndirilməsi, həm də diplomatik uğurun ifadəsidir.

Əvvəllər qəbul edilən birtərəfli qətnamələrin, siyasi ittihamların və öyrədici tonun yerini indi qarşılıqlı maraqlara əsaslanan konstruktiv gündəlik tutur. Enerji, nəqliyyat, yaşıl texnologiyalar və təhlükəsizlik sahəsində əməkdaşlıq təklifləri artıq gündəlik siyasi dialoqun ana xəttinə çevrilib. Əlbəttə, Aİ daxilində hələ də Ermənistan yönümlü mövqe nümayiş etdirən dairələr qalır. Fransa Prezidenti Emmanuel Makronun və bir zamanlar Aİ-də təsirə malik olmuş bəzi Şərqi Avropa liderlərinin Bakı əleyhinə açıqlamaları, onların uzun illər Ermənistanın revanşist siyasətinə himayədarlıq göstərməsi bunu sübut edir. Lakin bu dairələrin təsir imkanları getdikcə zəifləyir. Avropa siyasətinin əsas istiqamətverici qüvvələri – Aİ Şurası, Avropa Komissiyası və nüfuzlu üzv dövlətlər – artıq geosiyasi reallıqla hesablaşmağın vacibliyini anlayırlar. Onlar dərk edirlər ki, regionda sabitlik, enerji təhlükəsizliyi və geoiqtisadi inteqrasiya Azərbaycanla əməkdaşlıq olmadan mümkün deyil.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan heç bir xarici təzyiq qarşısında geri çəkilmədi, postmünaqişə dövründə milli maraqlara əsaslanan strateji xəttini davam etdirdi. Ardıcıl siyasət, xüsusilə də Vətən müharibəsindən sonra formalaşan yeni regional balansda Azərbaycanın diplomatik və hərbi qələbələrinin məntiqi davamı kimi dəyərləndirilməlidir. Azərbaycan Avropa strukturlarına tərəfdaşlıq təklif etdi – lakin bərabərhüquqlu və qarşılıqlı hörmət əsasında.

Aİ–Azərbaycan münasibətlərinin yeni mərhələsində əsas dayaq sütunu energetika sahəsində əməkdaşlıqdır. 2025-ci ildə keçirilən üçüncü yüksək səviyyəli enerji dialoqu bunu bir daha təsdiqlədi. Prezident İlham Əliyevin irəli sürdüyü enerji strategiyası Azərbaycanın Avropanın enerji təhlükəsizliyini təmin edən sabit təchizatçıya çevrilməsini nəzərdə tutur. Yeni qaz yataqlarının istismara verilməsi, bərpaolunan enerji mənbələrinin daxili bazarda istifadəsi və ixrac üçün əlavə resursların sərbəstləşdirilməsi Azərbaycanın bu sahədəki imkanlarını daha da artırır.

Bundan əlavə, Azərbaycanın regional rolu enerji ilə məhdudlaşmır. Bakı artıq Cənubi Qafqaz və Mərkəzi Asiyanı Avropa ilə birləşdirən nəqliyyat dəhlizlərinin əsas qovşağına çevrilib. Şərq–Qərb və Şimal–Cənub marşrutlarının kəsişdiyi bu coğrafi mövqe, xüsusilə Avropa–Çin münasibətlərinin gərginləşdiyi bir şəraitdə daha da əhəmiyyət qazanır.

Beləliklə, Azərbaycanın əldə etdiyi nailiyyətlər nə təsadüf nəticəsidir, nə də başqalarının xoş məramından irəli gəlir. Bunlar prinsipial, müstəqil və milli maraqlara əsaslanan diplomatiyanın, Prezident İlham Əliyevin qətiyyətli xarici siyasətinin və xalqın dövlət ətrafında sıx birliyinin uğurudur. Nəticə etibarilə, Brüssel üçün “dönüş anı” dediyimiz mərhələ, əslində, Azərbaycanın düzgün xarici diplomatiyasının, liderlik nüfuzunun və strateji əhəmiyyətinin qəbul edilməsidir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Məqbərə kölgəsində siyasi oyunlar

## Erməni cəmiyyətində dərin ideoloji parçalanma

**Erməni Apostol Kilsəsinin (EAK) iqamətgahının həyətində inşa edilmiş katolikos məqbərəsinin və şam ibadət zalının açılış mərasimi olub. Məqbərə və şam ibadət zalı xeyriyyəçi Qarnik Yakubyanın və onun həyat yoldaşı Anait Çatalpaşyan–Yakubyanın himayəsi ilə inşa edilib.**



Mərasimdə Ermənistan və diaspor yeparxiyalarının iyerarxları, Ana Taxt–Tacda xidmət edən yepiskoplar və rahiblər, Yakubyanın ailə üzvləri və yaxınları, bu münasibətlə Hayastanın müxtəlif yerlərindən və diaspordan gəlmiş zəvvarlar iştirak ediblər. Çıxış edən bütün ermənilərin katolikosu II Qaregin bildirib ki, patriarxların dəfni üçün panteonun tikintisi ilə bağlı belə bir təşəbbüs hələ 1955-ci ildə, bütün ermənilərin katolikosu I Vazgenin zamanında planlaşdırılıb: “Bizim üçün çox sevindiricidir ki, bu təşəbbüsdən əvvəlcədən xəbərsiz idik. Bizim də katolikos məqbərəsinin yaradılması ideyamız var idi. Həmin ideya bu gün artıq həyata keçirilib. Bura həm də inanclı xalqımıza şam ibadətxanası kimi xidmət edəcək”.

Daha sonra katolikos üstüörtülü şəkildə hazırkı hakimiyyətin yürütdüyü siyasətdən narazılığını çatdırıb. O dinləyicilərə xitab edərək vurğulayıb ki, müxtəlif saxta ideologiyalar Ermənistanda dəyərlər sistemini məhv edir, mənəvi qavrayış təhrif olunur. Belə bir vaxtda bu cür kilsə binaları, ziyarətgahlar və ibadət yerləri öz dini və ayin əhəmiyyətinə görə imanın möhkəmlənməsi, ruhun xilası və inanclı həyat sürülməsi üçün mübarək mərkəzlərə çevrilir. II Qaregin bu böyük tikilini onlara bəxş etmiş Q. Yakubyana və A.Çatalpaşyan–Yakubyana yüksək mükafat – “Müqəddəs Eçmiədzin” ordenini, onların oğlu Aram Yakubyana isə “Surb Qriqor Lusavoriç” ordenini təqdim edib.

Əlbəttə, EAK-ın iqamətgahında katolikos məqbərəsinin və şam ibadət zalının açılışına təkcə dini hadisə kimi yanaşmaq doğru olmazdı. Bu məsələ həm də siyasi əhəmiyyət daşıyır. Yazıda sözügedən məkanın Q.Yakubyan və onun həyat yoldaşı kimi diaspor xeyriyyəçilərinin vəsaiti hesabına tikildiyini xüsusi vurğulamağımız təsadüfi deyil. Məsələ ondadır ki, bu amil EAK-ın xaricdəki erməni icmaları ilə əlaqələrinin güclü olduğunun daha bir göstəricisidir. Eyni zamanda bu fakt, EAK-ın təkcə dini deyil, həm də ideoloji və siyasi dayaqlarını əsasən xaricdə yaşayan ermənilər vasitəsilə gücləndirdiyini göstərir. Xüsusilə ABŞ, Fransa və Kanadadakı erməni icmaları kilsəyə həm maliyyə, həm də informasiya dəstəyi verir. Bu da kilsənin daxili legitimlik böhranını kompensasiya etmək üçün xarici resurslara söykəndiyini nümayiş etdirir. Belə layihələr vasitəsilə EAK diaspor üzərində mənəvi nüfuzunu daha da möhkəmləndirməyə çalışır.

Bu açılış həm də kilsənin öz nüfuzunu bərpa etmək, daxildəki ictimai-siyasi, sosial-iqtisadi qeyri-müəyyənlik fonunda mövqelərini gücləndirmək cəhdidir. Son zamanlar EAK-la hökumət arasında yaşanan gərginlik fonunda belə mərasimlərin keçirilməsi, kilsənin təsir dairəsini genişləndirmək istədiyinə işarədir. Məqbərə həm də “tarixi liderlər”in mirasını ön plana çıxararaq, xalqın yaddaşında dini kimliyi möhkəmləndirmək məqsədi güdür. Mərasimdə iştirakçıların geniş tərkibi tədbirin təkcə dini deyil, həm də ictimai-siyasi çalar daşıdığını göstərir. Xüsusən də diaspor nümayəndələrinin fəal iştirakı EAK-ın dünyadakı erməni icmalarına ünvanladığı rəmzi mesaj kimi qiymətləndirilə bilər. Bu mərasim vasitəsilə kilsə özünün hələ də birləşdirici mərkəz olduğunu nümayiş etdirməyə çalışır. Halbuki son illər Ermənistan daxilində kilsəyə qarşı ictimai etimad xeyli zəifləyib, xüsusilə də gənc nəsil arasında onun nüfuzu getdikcə azalır. Dövlətlə münasibətlərdəki gərginlik, şəffaflıqla bağlı suallar və bəzi yüksək rütbəli din xadimlərinin siyasətə açıq müdaxiləsi bu inamsızlığı daha da dərinləşdirib. Belə bir şəraitdə təşkil edilən təntənəli açılışlar daha çox görüntü və simvolizmlə vəziyyəti ört-basdır etməyə xidmət edir.

Bütövlükdə, II Qareginin açılış mərasimindəki çıxışı məqbərənin inşasını təkcə bir xeyriyyə təşəbbüsü kimi deyil, həm də tarixi və ideoloji davamlılığın təcəssümü kimi təqdim etməyə yönəlib. Katolikos açıq şəkildə vurğulayır ki, bu ideya kilsə daxilində çoxdan formalaşıb və reallaşması, sadəcə, zaman məsələsi olub. Beləliklə, kilsə həm öz “strateji uzaqgörənliyini” nümayiş etdirir, həm də bu təşəbbüsün təsadüfi və ya yalnız diaspor təşəbbüsü olmadığını göstərməyə çalışır. Eyni zamanda, vurğulanan əsas məqamlardan biri də məkanın sadəcə, elitalar üçün deyil, bütün inanclı ermənilər üçün açıq olmasıdır. Bu, EAK-ın sıravi vətəndaşla təmasda olduğunu göstərmək cəhdidir. Məqbərə və ibadətxana həm simvolik məna daşıyır, həm də konkret dini ehtiyacları qarşılamaq məqsədi güdür. II Qareginin çıxışında kilsənin tarixi yaddaşa sahib çıxmaq və onu yaşatmaq niyyəti açıq şəkildə hiss olunur. Məqbərənin tikintisi eyni zamanda, kilsənin uzunmüddətli institusional sabitlik iddiasının ifadəsi kimi də oxuna bilər. Bu tip abidə və ibadət yerləri vasitəsilə EAK özünün legitimliyini göstərməyə və dindarlar arasında nüfuzunu möhkəmləndirməyə çalışır. Lakin ictimai reallıq və artan tənqidlər fonunda bu cür addımların nə dərəcədə uğurlu olacağı sual altındadır.

II Qareginin mərasimdə səsləndirdiyi fikirlər açıq şəkildə həm mövcud hakimiyyətə, həm də cəmiyyətin dəyişən mənəvi dəyərlərinə yönəlmiş narazılığın ifadəsidir. O, “saxta ideologiyalar”, “mənəvi qavrayışın təhrif olunması” kimi ifadələrlə müasirlik, dünyəvilik və liberal yanaşmaların artmasını, eləcə də kilsənin ictimai nüfuzunun sarsılmasını tənqid edir. Əslində isə kilsənin mövqeyinin zəifləməsinin əsas səbəbləri məhz onun cəmiyyətin sosial və siyasi tələblərinə adekvat cavab verə bilməməsi, keçmiş hakimiyyət təmsilçiləri ilə daim ittifaqda olması və ictimai-siyasi proseslərə birmənalı şəkildə tərəfli müdaxiləsidir. Son illərdə EAK-ın fəaliyyəti yalnız dini sahədə deyil, həm də siyasi və maliyyə müstəvisində ciddi suallar doğurur. Cəmiyyətdə belə bir qənaət formalaşıb ki, kilsə daha çox siyasi alətə çevrilib və xüsusilə də keçmiş hakimiyyətlə yaxın münasibətlərinə görə ictimai etimadı itirib. Hökumətin mövqeyinə, apardığı islahatlara dolayı etiraz edən II Qaregin, əslində, kilsənin mövcud təsir gücünü qorumağa çalışır. Lakin bu çağırışlar artıq gənc nəsil üçün yetərli deyil. Ermənistan cəmiyyətində dini ritualların ardıcıllığı azaldığı, kilsə institutuna etimad zəiflədiyi halda, bu cür böyük həcmli tikililər və şişirdilmiş mərasimlər real dini ehtiyacdan daha çox simvolik nümayiş xarakteri daşıyır.

Katolikosun Yakubyan ailəsinə verdiyi yüksək ordenlər də bu tendensiyanın bir parçasıdır. Vəsait ayıran hər bir xeyriyyəçi bu gün Eçmiədzin tərəfindən xüsusi imtiyazlarla təltif edilir, bu isə cəmiyyət tərəfindən mənəvi nümunə kimi deyil, daha çox kilsənin maddi asılılığı və prinsipialsızlığı kimi dəyərləndirilir. Belə mükafatlandırma siyasəti kilsənin öz dəyərlərinə deyil, sponsorlarına xidmət etdiyini göstərir. Mərasim boyunca səsləndirilən ritorika, məsələn, dini mərkəzin “imanın möhkəmlənməsi və ruhların xilası” üçün inşa edildiyi mesajı, əslində, ictimai fikri yayındırmaq və kilsənin zəifləyən nüfuzunu kompensasiya etmək cəhdidir. Reallıqda isə EAK bu gün nə erməni cəmiyyətinin ahəngini təmin edə, nə də sosial problemlərə cavabdeh dini instansiya kimi çıxış edə bilir. Dini qurumların cəmiyyətlə təmasda, şəffaf və hesabatlı olması vacib şərtdir. EAK isə qapalı struktura, simvolik məkanlara, köhnə münasibətlərə və şəxsi loyallıqlara söykənərək yalnız öz daxilində mövcudluğunu qorumağa çalışır. Bu isə müasir Ermənistan üçün nə dini, nə də ictimai baxımdan qəbuledilən yol deyil. Kilsə əgər yenidən cəmiyyətə təsir göstərmək istəyirsə, ilk növbədə özünü və ideoloji yanaşmalarını islah etməlidir. Əks halda, bu cür mərasimlər yalnız keçmişin nostaljisini yaşadan, lakin gələcəyin ruhunu daşımayan tədbirlər kimi yadda qalacaq.

Bu arada ölkənin baş naziri Nikol Paşinyanın etdiyi paylaşım da diqqəti cəlb edir. O, sosial şəbəkə hesabında yazıb ki, bəzi müxalifət dairələrinin əsas tezisi Ermənistanda gərginlik, apatiya və nifrətin hökm sürməsindən ibarətdir. Nikol daha sonra yazıb: “İndi Vardavardan kütləvi şənliklərin kadrlarına baxıram və özümə sual verirəm: gərginlik, apatiya, nifrət haradadır? Kiçik bir psevdoelit qrupun laqeydliyini, gərginliyini, nifrətini, ümidsizliyini xalqa aid etməməliyik. 2021-ci ildə xalq gələcəyin olduğuna inanırdı və bu gün anlayır ki, gələcək artıq gəlib – gələcək bu gündür.

Bu istiqamətdə demək lazımdır ki, Paşinyanın paylaşımı cəmiyyətdəki ümumi ruh halını pozitiv göstərməyə yönəlsə də, katolikosun mərasimdəki ritorikası bununla ziddiyyət təşkil edir. II Qaregin Ermənistanda mənəvi çöküş və saxta ideologiyaların yayılmasından narahat olduğunu bildirir, halbuki baş nazir tam əksinə, xalqın gələcəyə inandığını və pozitiv enerjiyə sahib olduğunu iddia edir. Bu, kilsə ilə dövlət arasında baxış fərqlərinin və sosial vəziyyətə fərqli yanaşmaların bariz nümunəsidir. Paşinyan gələcəyin artıq gəldiyini desə də, kilsə hələ də keçmiş simvollar və nostalji üzərindən mövqeyini qorumağa çalışır. Bu qarşıdurma EAK-ın siyasi ritorika ilə ayaqlaşa bilmədiyini və ictimai reallıqdan uzaq düşdüyünü göstərir.

*Səxavət HƏMİD*
*XQ*

# Gürcüstan–Aİ münasibətləri: xarici təzyiqlər və daxili mübarizə

**Son aylarda Gürcüstan ilə Avropa İttifaqı (Aİ) arasında münasibətlər gərginləşib. Bu, tərəflər arasında uzun müddət davam edən strateji tərəfdaşlıq kursunun ciddi sınaq qarşısında qaldığını göstərir. Aİ-nin Gürcüstanı SWIFT maliyyə sistemindən ayırmaq və vizasız rejimi dayandırmaqla hədələməsi Brüsselin Tbilisiyə qarşı sərt xəbərdarlıqlara keçdiyini göstərir. Bu dəyişiklik Gürcüstanın siyasi kursu, xüsusən də "xarici agentlər haqqında" qanunun qəbulu ilə bağlıdır.**



Avropa Parlamentinin 2025-ci il iyulun 19-da yaydığı bəyanatda isə Gürcüstan hökumətindən "avtoritar meyllərdən əl çəkməsi", müstəqil məhkəmə sistemi və ədalətli seçkilərin təmin olunması tələb olunub. Bu, sadəcə tövsiyə deyil, həm də Gürcüstanın Aİ-yə inteqrasiya yolunda irəliləməsinin əsas şərti kimi təqdim olunub. Brüssel açıq şəkildə bildirib ki, əgər bu tələblər yerinə yetirilməzsə, ölkə Aİ-yə üzv ola bilməz.

Yada salaq ki, Gürcüstanla Qərb arasında münasibətlərin pisləşməsində bu ölkənin daxili siyasi vəziyyətinin təsiri olub. Xüsusilə 2024-cü ilin oktyabrında keçirilən parlament seçkilərində Qərbyönlü müxalifət gözlədiyi nəticəni əldə edə bilmədi. Müxalifətin seçkilərdə uğursuzluğu Aİ-nin bəzi dairələrində narazılıqla qarşılandı. Müxalif qüvvələr əsas siyasi fəaliyyətlərini seçki kampaniyasından küçə etirazlarına yönəltdilər. Etirazlar təkcə daxili narazılığın ifadəsi deyil, həm də xarici dəstəkçilərin təsiri ilə formalaşan koordinasiyalı siyasi təzyiq vasitəsinə çevrildi. Bu mərhələdə bir sıra qeyri-hökumət təşkilatları və xaricdən maliyyələşən qurumlar etirazların təşkilində və genişlənməsində mühüm rol oynadılar.

Etiraz aksiyaları 2024-cü il noyabrın 28-də daha geniş vüsət aldı. Bu dəfə narazılığın əsas səbəbi hökumətin Aİ ilə üzvlük danışıqlarını 2028-ci ilə qədər təxirə salması qərarı oldu. Hökumət isə kütləvi etiraz aksiyalarına qarşı sərt, lakin qanunvericilik çərçivəsində tədbirlər həyata keçirdi. İqtidarın bu məsələdə mövqeyi qanuna əsaslanırdı. Yəni zorakılığa əl atan və ictimai asayişi pozan şəxslər qanun qarşısında cavab verməlidirlər.

Brüssel isə hadisələrə fərqli prizmadan yanaşdı. Belə ki, Aİ etirazların sərt şəkildə yatırılmasına cavab olaraq Gürcüstan hökumətinə yeni tələblər irəli sürdü. Onların arasında təxribatlarda ittiham olunan şəxslərin azadlığa buraxılması və beynəlxalq müşahidə altında yeni parlament seçkilərinin keçirilməsi də vardı. Bu isə Gürcüstanda və bəzi beynəlxalq dairələrdə Aİ-nin ölkənin daxili siyasi həyatına müdaxiləsi kimi qiymətləndirildi. Mövcud situasiya bir tərəfdən Gürcüstan hakimiyyətinin hüquqi suverenliyini qoruma cəhdlərini, digər tərəfdən isə Aİ-nin demokratik dəyərlər və siyasi proseslər üzərində təsir imkanlarını açıq şəkildə üz-üzə qoydu. Bu ziddiyyət, Gürcüstanın Aİ-yə inteqrasiya perspektivlərini daha da mürəkkəbləşdirdi.

Daxili siyasi böhranın digər mühüm elementi isə 2024-cü ilin dekabrında səlahiyyət müddəti başa çatmış keçmiş prezident Salome Zurabişvili ilə bağlıdır. Zurabişvili hələ də özünü "qanuni prezident" kimi təqdim edir və xaricdən, xüsusilə Paris və Brüsseldən aldığı siyasi dəstəyə arxalanaraq hazırkı prezident Mixail Kavelaşviliyə qarşı təzyiq yaratmağa çalışır. Onun ritorikası və siyasi aktivliyi Gürcüstanda legitimlik və səlahiyyət məsələləri ilə bağlı əlavə narahatlıq yaradır.





Onu da qeyd etmək lazımdır ki, 2025-ci ilin oktyabrında keçiriləcək yerli bələdiyyə seçkiləri Gürcüstanın gələcək siyasi trayektoriyası üçün həlledici məqam olacaq. Hazırkı vəziyyətdə Qərbyönlü müxalifətin ictimai dəstəyi zəifdir. Buna baxmayaraq, seçkilər ətrafında süni gərginlik yaradılması ehtimalı yüksəkdir. Hazırkı prezident Mixail Kavelaşvili isə belə bir şəraitdə sabitliyin və siyasi dialoqun qorunmasının vacibliyini vurğulayıb. O, Gürcüstan Konstitusiyasına uyğun olaraq oktyabrda keçiriləcək yerli seçkilərdə vətəndaşların seçki hüququnun tam şəkildə təmin ediləcəyini bildirib və prezident institutunun bu prosesdə müşahidəçi statusunda qalacağını qeyd edib. Onun fikrincə, ölkənin gələcəyi xarici təsirlərdən deyil, daxili siyasi konsensusa əsaslanmalıdır.

Kavelaşvili müxalifəti də xəbərdarlıq edib. O, müxalifətin xarici havadarlara deyil, öz xalqına siyasi proqram və fəaliyyət layihələri ilə müraciət etməsinin zəruriliyini vurğulayıb. Prezident Gürcüstan vətəndaşlarını ölkədəki proseslərə obyektiv yanaşmağa çağırıb: "Gürcüstan vətəndaşı baş verən hər şeyə obyektiv baxmalıdır. Biz heç kimə ölkədə sabitliyi pozmağa imkan verməyəcəyik".

Tbilisi şəhərinin meri Kaxa Kaladze isə daha kəskin çıxış edib. O, Aİ-nin Gürcüstandakı səfiri Pavel Qerçinskini ölkənin suverenliyinə hörmətsizlikdə və daxili işlərinə müdaxilə etməkdə ittiham edərək, onun ölkədən qovulmasını tələb edib. Kaladze bildirib: "Məndən asılı olsaydı, təbii ki, onu qovardım... nə Aİ səfirinin, nə də heç bir ölkənin səfirinin ölkənin daxili siyasi proseslərinə qarışmağa, cəmiyyətdə qarşıdurmaya və qütbləşməyə rəvac verməyə haqqı yoxdur". O, bu fikrin şəxsi mövqeyi olduğunu xüsusi olaraq vurğulasa da, səsləndirdiyi ittihamlar Gürcüstan hakimiyyətində səfir Qerçinskiyə qarşı dərin narazılığın olduğunu göstərir. Səfir Pavel Qerçinskinin belə sərt reaksiyaya səbəb olan açıqlamaları isə "İnterpressNews" agentliyinə verdiyi qərəzli müsahibədə yer alıb. Bu bəyanat Tbilisidə ölkənin daxili işlərinə birbaşa müdaxilə kimi qiymətləndirildi. Hazırkı vəziyyət Gürcüstan–Aİ münasibətlərinin daha da gərginləşdiyini və tərəflər arasında etimad böhranının dərinləşdiyini göstərir. Diplomatik ritorikadakı sərtlik, artıq sadəcə prinsipial fikir ayrılığından deyil, tərəflərarası strateji qarşıdurmadan xəbər verir. Avqustun sonuna qədər Avropa Komissiyasının irəli sürdüyü tövsiyələrin yerinə yetirilməsi isə Gürcüstan üçün sadəcə texniki məsələ deyil, həm də siyasi iradənin sınağıdır.

Onu da qeyd edək ki, hazırkı vəziyyət yalnız Gürcüstanın daxili siyasi gərginliyi deyil, həm də daha geniş geosiyasi qarşıdurmanın bir hissəsidir. Brüsselin Tbilisiyə qarşı münasibətləri Cənubi Qafqazda sabitliyi pozmaq riski yaradır ki, bu da təkcə Gürcüstan üçün deyil, bütövlükdə region üçün təhlükədir. Bu kontekstdə Azərbaycan Cənubi Qafqazda sülh və əməkdaşlığın möhkəmləndirilməsinə strateji önəm verir. Qonşu Gürcüstanda daxili sabitlik və siyasi dayanıqlılığın qorunması Azərbaycanın milli və regional maraqları ilə üst-üstə düşür. Azərbaycan Gürcüstanla tarixi, mədəni və iqtisadi bağları dərin olan strateji tərəfdaş və etibarlı qonşu kimi münasibətləri var. İki ölkə arasında güclü siyasi dialoq, qarşılıqlı etimada əsaslanan münasibətlər və uğurlu enerji-tranzit layihələri onların bir-birinin sabitliyi və rifahına verdiyi önəmi əks etdirir. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və Bakı–Tbilisi–Qars kimi layihələr yalnız iqtisadi əhəmiyyət daşımır, həm də regionda təhlükəsizliyin və dayanıqlı inkişafın simvoludur.

Azərbaycan qonşu ölkənin daxili işlərinə qarışmamaq prinsipinə sadiq qalır və Gürcüstanın suverenliyinə və siyasi seçiminə hörmətlə yanaşır. Lakin Gürcüstanda sabitliyin pozulması və geosiyasi gərginliklərin artması regional əməkdaşlıq təşəbbüslərinə, o cümlədən Orta Dəhliz kimi beynəlxalq əhəmiyyətli layihələrə mənfi təsir göstərə bilər. Bu səbəbdən Bakı sabitliyin qorunmasına dair mövqeyini siyasi və diplomatik səviyyədə açıq şəkildə ifadə edir.

Azərbaycan üçün Gürcüstanda sabitlik təkcə ikitərəfli münasibətlərin davamlılığı deyil, eyni zamanda regionda dinc birgəyaşayış və inteqrasiya proseslərinin əsas təminatçısı kimi dəyərləndirilir. Bu baxımdan, Bakı beynəlxalq hüquqa əsaslanan əməkdaşlığın və Gürcüstanda sabitliyin tərəfdarıdır. İnanırıq ki, oktyabrda keçiriləcək yerli seçkilər də qanun çərçivəsində baş tutacaq, layiq olanlar seçiləcək. Ölkədə yenə də sabitlik hakim olacaq.

Beləliklə, Gürcüstan öz dövlətçilik tarixində həlledici bir mərhələdən keçir. Avropa İttifaqı ilə inteqrasiya uzun illərdir ölkənin xarici siyasətində əsas prioritetlərdən biri kimi müəyyən olunub. Bu inteqrasiya təkcə iqtisadi və institusional faydalar deyil, həm də Gürcüstan cəmiyyətində demokratik dəyərlərin möhkəmlənməsi üçün bir çərçivə rolunu oynayıb. Lakin son illərdə bu prosesin siyasi şərtlərlə və daxili məsələlərə müdaxilə cəhdləri ilə müşayiət olunması ciddi suallar doğurur. Aİ ilə tərəfdaşlığın, bir növ, təzyiq və şantaj vasitəsinə çevrilməsi riski yaranıb.

Bu şəraitdə Gürcüstan rəhbərliyi bir tərəfdən Avropa kursunu davam etdirməyə sadiq olduğunu bəyan edir, digər tərəfdən isə milli maraqları və daxili sabitliyi qorumağa çalışır. Müstəqil siyasi kursun saxlanılması, müxtəlif xarici aktorların təsirinə qarşı balanslı mövqe tutulması, ölkənin strateji gələcəyi baxımından həyati əhəmiyyət daşıyır.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Fransanın qətnaməsi – Makronun sarsıntısı

## *Azərbaycan əleyhinə "səlib yürüşü" davam edir*

**İyulun 22-də Fransa Milli Assambleyasında "Sağ Respublikaçılar" qrupunun rəhbəri, Fransa-Ermənistan dostluq qrupunun sədri Loran Vokyenin təşəbbüsü ilə irəli sürülən anti-Azərbaycan qətnamə bir daha göstərdi ki, Parisin Cənubi Qafqaz siyasəti tarixi obyektivlik və beynəlxalq hüquq prinsiplərindən deyil, siyasi təəssübkeşlik və imperiya nostalgiyasından qaynaqlanır. "Ermənistanla strateji tərəfdaşlıq" adı altında təqdim edilən sənəd, əslində, Fransa rəhbərliyinin Ermənistanı özünün "müstəmləkə peyki" kimi görmək istəyi və Azərbaycana qarşı uzunmüddətli qərəzli münasibətinin bariz ifadəsidir.**

Qətnamə layihəsində qondarma "Artsax" ifadəsinin açıq şəkildə işlədilməsi, Azərbaycanın suveren ərazisində məhkəmə məsuliyyətinə cəlb olunan şəxslərə "siyasi məhbus" statusunun verilməsi və Bakıya qarşı əsassız ittihamlar bir daha sübut edir ki, söhbət hüquq və ədalətdən deyil, siyasi intriqadan və Makron administrasiyasının iflasa uğramış region siyasətini gizlətmək cəhdindən gedir.

### Fransa "Erməni kartı"nı oynayır

Fransanın son illərdə Azərbaycana qarşı apardığı qarayaxma kampaniyasının sistemli və mərkəzləşdirilmiş olduğu artıq heç kimə sirr deyil. Bu fəaliyyətin arxasında Yelisey Sarayının birbaşa təlimatlarının dayandığı açıq-aşkar görünür. Loran Vokyenin 2023-cü ildə qondarma rejimin "nümayəndələri" ilə görüşməsi, COP29-a qarşı imza toplaması və nəhayət, erməni icması tərəfindən "Cəsarət" medalı ilə təltif olunması onun bu planın icraçılarından biri olduğunu sübut edir. Ona Valeri Pekress (İl-de-Frans regionunun prezidenti) və An İdalqo (Paris meri) kimi siyasətçilər dəstək verir. Onların səsləndirdiyi bəyanatlar və keçirdikləri aksiya və kampaniyalar eyni mərkəzdən idarə olunan anti-Azərbaycan ritorikasının tərkib hissəsidir.

Qəribədir ki, qətnamədə Azərbaycana qarşı uydurma iddialar yer alır, lakin Qərbi Azərbaycandan qovulan yüz minlərlə soydaşımızın geri qayıtmaq hüququndan bir kəlmə belə bəhs edilmir. Ermənistan "sülhsevər tərəfdaş" kimi təqdim olunur, halbuki, ərazi bütövlüyünün tanınmasına əsaslanan sülh sazişi təklifini ilk edən Azərbaycan olub.

### Ermənistan yox, Makron "məğlub olub"

Makronun bu davranışlarının arxasında təkcə siyasi deyil, şəxsi ambisiyalar da dayanır. O, Azərbaycanın Vətən müharibəsində qazandığı qələbəni həzm edə bilmir. Çünki bu zəfər, dolayısı ilə Fransanın Ermənistanı dəstəkləməklə bağlı bütün planlarını alt-üst edib. Bu səbəbdən də Makron Azərbaycanın qalib lideri Prezident İlham Əliyevə qarşı şəxsi qərəz və qısqanclıq hissini gizlədə bilmir. Onun Ermənistanın deyil, özünün uduzduğunu düşünməsi, əslində, siyasi səmərəsizliyinin etirafıdır.

Azərbaycanın yürüdüyü müstəqil xarici siyasət nəticəsində Fransa regional danışıqlardan kənarda qalıb. Əbu-Dabidə keçirilən Azərbaycan-Ermənistan görüşü Fransanın iştirakı olmadan reallaşıb və bu fakt Makronu, demək olar, siyasi isteriyaya sürükləyib.

### Fransanın neokolonial reallığı və Azərbaycana nifrəti

Dekolonizasiya məsələsində dünya səviyyəsində aparıcı səsə çevrilən Azərbaycan Fransanın rəsmi dairələrində narahatlıq doğurur. Prezident İlham Əliyev beynəlxalq platformalarda bu məsələni ardıcıl şəkildə qaldırmaqla dünya ictimaiyyətinə Fransa müstəmləkəçiliyinin müasir simasını göstərir. Elə bu səbəbdəndir ki, Yeni Kaledoniyada Azərbaycan bayraqları dalğalanır və Fransa tərəfindən müstəmləkə altında saxlanan xalqlar ölkəmizə azadlıq modeli kimi baxırlar.

Bu məsələ artıq Fransanın 2025-ci ilin iyulunda qəbul etdiyi Milli Strateji İcmalda və Sakit Okean üzrə Strategiyasında da etiraf olunur. Azərbaycanın beynəlxalq imicinin güclənməsi, Qoşulmama Hərəkatı çərçivəsində dekolonizasiya prosesində liderliyinin artması Makronun "erməni kartı"na söykənən təcrid olunmuş siyasətini tamamilə iflasa uğradıb.

### Makronun vahiməsi – "Respublikaçılar"ın seçki gedişi

Bu qətnamənin təşəbbüskarları yalnız qərəzli siyasi aktorlar deyil, həm də 2027-ci ildə keçiriləcək prezident seçkiləri öncəsi erməni diasporunun səslərini qazanmaq üçün plan quran populistlərdir. Yelisey Sarayının bu təlimatlarının fonunda "Respublikaçılar Partiyası" özünü Makronun erməni strategiyasının siyasi "tender qalibi" kimi təqdim etməyə çalışır. Onların "qələbəsi" yalnız Ermənistanın deyil, Fransa demokratiyasının da məğlubiyyətidir.



### Qətnamənin cəfəng iddiaları

Qətnamədə "qeyri-qanuni həbslər" kimi təqdim edilən hallar, əslində, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan məhkəmə sistemində həyata keçirilən tam qanuni və şəffaf proseslərdir. Azərbaycan ərazisində hərbi təcavüz, işgəncə, zorla yoxa çıxarma və digər cinayətlər törətmiş erməni hərbi və siyasi şəxslərin istintaqa cəlb olunması beynəlxalq hüququn tələbidir. Onların hüquqları qorunur, məhkəmə prosesi tam şəffaf şəkildə aparılır. Fransa parlamentinin bu məsələyə müdaxilə cəhdləri isə birbaşa olaraq suveren işlərə qarışmaqdır.

### Sonda isə...

Azərbaycan Fransanın bu cür qətnamələrinə cavab verməklə kifayətlənmir – o, dünya miqyasında ədaləti və hüququ müdafiə edən gücə çevrilib. Fransa Azərbaycanın beynəlxalq nüfuzunu azaltmaq əvəzinə, özü dünyada artan tənqidlərlə qarşı-qarşıyadır. Azərbaycanın yürütdüyü dekolonizasiya siyasəti, ədalət çağırışları və sülh təşəbbüsləri Makronun qətnamələrindən qat-qat güclüdür. Azərbaycan artıq təkcə regional deyil, qlobal aktordur. Fransa isə hələ də öz köhnə müstəmləkə xəritələrində itirdiklərini "Artsax" boyası ilə bərpa etmək istəyir.

Bu cəhdlər isə, sadəcə, tarix qarşısında çırpınanların son zəif jestidir.

*XQ*

# Lider–dövlət–xalq



III MƏQALƏ

## Milli ideya və siyasi təcrübə

Milli ideya müasir müstəqil dövlətçiliyin başlıca parametrlərindən biridir. O, təməldə milli özşüur təcrübəsinə əsaslanır. Milli ideya şüuri təcrübədən kənarda mövcud ola bilməz. Bu kateqoriyaya, əlbəttə, liderin siyasi təcrübəsi birbaşa aiddir. Lider cəmiyyətin aparıcısı və idarəedicisi kimi milyonları istiqamətləndirməlidir. Milli ideya dövrün tələblərinə uyğun olan milli maraqlardan və onların reallaşmasından qaynaqlanır. Deməli, liderin siyasi təcrübəsi faktiki olaraq gerçəkliklə milli ideya arasında bağlantı qurmağa imkan verən əsas faktordur.

Nümunə üçün Ulu öndər Heydər Əliyevin milli ideyanı müəyyən edəndə siyasi təcrübəsinin ciddi rol oynadığını göstərə bilərik. Məhz Heydər Əliyevin dərin biliyə sahib olması ilə yanaşı, zəngin siyasi təcrübəsi ərazi bütövlüyünün bərpası məsələsinin milli ideyanın əsas tezisi kimi müəyyən edilməsinə imkan verdi. Buradan birbaşa müasir mərhələdə Prezident İlham Əliyevin postmünaqişə mərhələsində siyasi təcrübəsi ilə milli ideyanın formalaşması arasındakı əlaqələrə suverenlik kontekstində keçid edə bilərik.

Burada əsas müəyyənedici faktor milli ideyanın yeni tarixi mərhələnin mahiyyətinə uyğunluğudur. Özlüyündə bu, ümumi bir yanaşmadır, ancaq tarixi mərhələnin strateji hədəfi müəyyən olunanda milli ideyanın məzmunu ilk olaraq siyasi liderin təcrübəsi işığında aydınlaşır. 2030-cu ilə qədər olan müddətdə strateji hədəf qüdrətli güclü dövlət və yüksək rifah cəmiyyətinin formalaşması kimi müəyyən edilmişdir.

Aydındır ki, bu səviyyədə strateji hədəfə çatmaq əsaslı ideya yanaşması, yəni dəqiq müəyyən edilmiş milli ideyanın formulə edilməsini tələb edir. Məhz bu məqamda liderin siyasi təcrübəsinin əsas komponentləri ilə milli ideya arasında məntiqi əlaqə məsələsi strateji fonda aktuallaşır. Bu prizmada İlham Əliyevin siyasi təcrübəsinin başlıca tərkib hissələrinə nəzər salaq.

## Etibarlılıq, etimad, hüquq və coğrafiya

Bu parametrlərin postmünaqişə mərhələsi üçün özəl anlamları vardır. Etibarlılıq və etimad liderin xalqa bağlılığını ifadə edirlər. Hüquq beynəlxalq miqyasda dövlət identikliyinin təmsilçisi kimi liderin inklüziv legitimlik dərəcəsinin göstəricisidir. Burada "inklüzivlik" liderin beynəlxalq hüquqa əməl etməsinin dünya tərəfindən qəbul edilməsi səviyyəsini ifadə edir. Liderin fəaliyyətinin hüquqa əsaslandığını, məsələn, BMT-nin bütün üzvləri qəbul edirsə, inklüzivlikdir. Və ya hansısa başqa beynəlxalq təşkilatın tam üzvləri qəbul edirsə (məsələn, Qoşulmama Hərəkatı), bu da inklüzivlikdir, lakin BMT-dən fərqlidir.

Məsələ onunla əlaqəlidir ki, indi demək olar ki, hər bir lider beynəlxalq hüquqdan danışır, ancaq prakiki fəaliyyətində ona əməl etmir. Hətta ən güclü sayılan dövlətlərin liderlərinin fəaliyyətində bu ziddiyyəti açıq görmək olur. İlham Əliyevin siyasi təcrübəsi onların hər birinin təcrübəsindən bu məqamda daha çox fərqlənir.

Azərbaycan Prezidenti fəaliyyəti müddətində beynəlxalq hüququn normalarından zərrə qədər də kənara çıxmamışdır. Bu da İlham Əliyevin siyasi təcrübəsini həm legitim edir, həm də milli ləyaqətlə tarixi ədalətin bərpası arasında bağlantını praktiki təmin etmək şansı yaradır. Burada xalqın etibarını qazanıb onu siyasi müstəvidə etimad səviyyəsinə yüksəltmək prinsipial rol oynayır. Yeri gəlmişkən, müasir politologiyada bir sıra lideroloji məktəblərdə "liderlik krediti" və "etibarlılıq krediti" anlayışlarından istifadə edilir. Bu anlayışlar hər şeydən öncə liderin tərəfdarlarının, steykholderlərin (ümumi halda, xalqın) etibarı və etimadı dərəcəsi ilə bağlıdır. Yüksək etibara və etimada malik lider beynəlxalq miqyasda sərbəst və hətta qeyri-standart addım ata bilir. O addımın səmərəsiz olması "etibarlılıq krediti"ni azaldır, müsbət nəticə isə etibarlılığı daha yüskək səviyyəyə qaldırır. Deməli, müasir mərhələdə liderin etibarlılıq və etimad göstəricisi birbaşa onun siyasi təcrübəsinin nüvəsini təşkil edir.

Buradan bir mühüm siyasi nəticə çıxara bilərik: xalqının etibarını qazanmış lider xalqın suverenliyindən çıxış edərək dövlətin suverenliyini təmin etmək şansına malikdir. Bu nəticə politoloji baxımdan İlham Əliyevin postmünaqişə mərhələsində liderliyinin uğurluluğunun vacib göstəricisi kimi qəbul edilməlidir. Səbəbini izah etmək olar.

Məsələ Azərbaycan dövlətçilik ənənəsinin baza şərtlərindən biri ilə bağlıdır. Biz öncəki məqalədə vurğulamışdıq ki, müasir Azərbaycan Respublikasının Konstitusiyasında xalqın suverenliyi dövlətçiliyin başlıca qaynağı kimi qeyd edilmişdir. Dövlət suverenliyi xalq suverenliyi üzərində bərqərar olur. Bu o deməkdir ki, Azərbaycanda uğurlu liderlik siyasi təcrübədə xalqın etibarı və etimadının üstünlük təşkil etməsi ilə bağlıdır.

Bu xoş niyyətli, milli maraqlara tam uyğun olan strateji fəaliyyət xəttini reallaşdırmaq isə başqa tələbi ortaya qoyur. Yəni lider praktiki və praqmatik fəaliyyət proqramına, onu motivə edə biləcək mənəvi faktora və dəqiq hədəfə malik olmalıdır.

Burada milli ideya ön sıraya çıxır. Çünki milli ideya lider-xalq birliyini məfkurəvi səviyyədə təmin edən başlıca faktordur. O, birbaşa milli özşüur, milli dünyaduyumu və özünüqiymətləndirmə ilə bağlı olduğundan, həyata keçməsi vurğulanan bütün özəllikləri qarşılıqlı əlaqədə görməyi tələb edir.

Bununla milli ideyanı xalq suverenliyini dövləti suverenliyin təmin edilməsi müstəvisinə çıxaran əsas mexanizm-ideya kimi təsəvvür etmək olar. Milli ideya həmin keyfiyyətdə liderin dövlətlə xalq birliyini təmin etməsinin başlıca vasitəsidir. Yeni tarixi mərhələdə lider-dövlət-xalq vəhdəti həm də bu prizmada yeni məzmun alır.

Nəhayət, burada coğrafiya faktorunun siyasi, geosiyasi və məfkurəvi funksiyasının suverenlikdə rolu məsələsi üzərində dayanmaq gərəkdir. Hər bir toplumun ölkənin ərazisi ilə bağlı təsəvvürü olur. Məsələn, Azərbaycanın bir bölgəsi vətəndaşın şüurunda ərazi kimi hansı obraza malikdir? "Bütöv Azərbaycan" ərazi olaraq necə təsəvvür edilir və s. Bu kimi fərdi təsəvvürlər yekunda ərazi haqqında ümumi obraz formalaşdırır ki, bu da insanın Vətənə, dövlətə, mənsub olduğu xalqa tarixi münasibətini yaradır.

Lider üçün bu məsələ daha məsuliyyətli və əhəmiyyətlidir. Lider başçısı olduğu dövlətin və ölkənin coğrafi ərazisi haqqında ümumi obraza malik olmaqla yanaşı, onun geosiyasi əhəmiyyətini düzgün müəyyən etməlidir.

## Öncə Azərbaycan

Azərbaycan coğrafi ərazi kimi müstəqil və suveren ölkədirsə, bunun siyasi, geosiyasi, hüquqi, mədəni, iqtisadi təmini ayrıca vəzifə kimi qarşıya çıxır. İlham Əliyev Avrasiya məkanında yeganə liderdir ki, coğrafi faktoru vurğuladığımız kontekstdə suverenlik, müstəqillik və ərazi bütövlüyü ilə vəhdətdə dəyərləndirə bilmişdir. Daha konkret ifadə etsək, ərazi bütövlüyünün bərpasını geosiyasi müstəviyə uğurlu proyeksiya edərək bütövlükdə regional miqyasda geosiyasi mənzərəni dəyişmişdir. Azərbaycanın coğrafi faktor kimi əhəmiyyəti bu məqamdan qaynaqlanır. Onun başlıca əlaməti Azərbaycanın coğrafi yerləşim kimi regional miqyasla regionlararası miqyas arasında substantiv və kommunikativ bağlantı qurmaqdan ibarətdir. Müxtəlif layihələr vasitəsi ilə Azərbaycan coğrafiyası geniş geosiyasi məkan üçün açar rolunu oynamaqdadır. Azərbacyan Respublikasının ərazisi sabitlik, təhlükəsizlik, barış və əməkdaşlıq məkanı olaraq qəbul edilir. Azərbaycan geosiyasi anlamda Qərblə Şərq arasında əsas körpü rolunu uğurla yerinə yetirir. İlham Əliyevin siyasi təcrübəsi bu ümumi tezisin konkret məzmununu artıq müəyyən etmişdir. Bu baxımdan Zəngəzur Dəhlizinin işə salınması növbəti tarixi-coğrafi və siyasi hadisə olacaqdır!

İndi siyasi təcrübənin bu anlamı işığında milli ideya və suverenliyin qarşılıqlı əlaqəsinin bir aspektinə nəzər salaq.

## Milli ideya, suverenlik və xalqın birliyi

Prezident İlham Əliyev 2022-ci ilin altı ayının yekunlarına həsr olunan müşavirədə çıxışı zamanı vurğulamışdı: "Son vaxtlar Ermənistan rəhbərliyi yenə də hansısa status haqqında danışmağa başlayıb. Halbuki müharibəyə son qoyulanda, Ermənistan kapitulyasiya aktına məcburən imza atanda bizim - Azərbaycan, Rusiya, Ermənistanın rəhbərləri arasında şifahi razılaşma olmuşdur ki, status məsələsinə toxunulmur. Ermənistan müəyyən müddət buna əməl edirdi. Ancaq son zamanlar artıq bu, adi hala çevrilib. Gah onların baş naziri, gah xarici işlər naziri Qarabağın statusundan danışırlar. Status hara gedib və statusa nə olub, mən müharibədən sonra demişəm, təkrarlamaq istəmirəm. Əgər Ermənistanda bunu kimsə unudubsa, təkrarlaya bilərəm. Amma hesab edirəm ki, hələlik buna ehtiyac yoxdur. Ona görə status haqqında danışmaq Ermənistan üçün hesab edirəm ki, çox təhlükəli məsələdir. Çünki biz də status haqqında danışa bilərik, Zəngəzur üçün status tələb edə bilərik. O Zəngəzur ki, 1920-ci ilin noyabrında bizdən qoparıldı. Biz ki, danışmırıq, amma danışa bilərik, baxaq görək nəticəsi nə olacaq".

Dövlət başçısının bu fikirlərində biz baxdığımız məsələnin bütün aspektləri yığcam ifadə olunmuşdur.

Birincisi, ərazi bütövlüyünün təmini dəyişilməyəcək reallıqdır. Yəni rəsmi İrəvan və onun havadarları praktiki olaraq unutmamalıdırlar ki, Azərbaycanın ərazi bütövlüyünün bərpasından geridönüş yoxdur və bununla bağlı heç bir şey müzakirə mövzusu deyildir.

İkincisi, ərazi bütövlüyünün bərpası milli ideyanın reallaşmasının birbaşa nəticəsidir və dövlət başçısı üçün bu, məfkurəvi mahiyyətli məsələdir. Milli ideyanın reallaşması növbəti mərhələyə keçmək üçün möhkəm təməl hazırlamışdır. Burada suverenliyin tam təmini aparıcı yer tutur. Doğurdan da 2023-cü ildə Azərbaycan ərazi bütövlüyünün bərpasına suverenliyin tam təminini əlavə etdi. Yəni bəzilərinin xülyalarının əksinə olaraq, Prezident İlham Əliyev milli ideyanın suverenlik aspektini də gerçəkliyə çevirdi.

Üçüncüsü, milli ideya və suverenliyin bu cür vəhdəti avtomatik olaraq xalqın birlik modelini müəyyən etdi. Azərbaycan xalqı müstəqilliyi, ərazi bütövlüyü və suverenliyinin tam təmini vəzifələrinin daim yerinə yetirilməsi üçün birdir, həmrəydir. Onun bu birliyi həmin səbəbdən əbədidir. Bu özəllik İlham Əliyevin postmünaqişə mərhələsində siyasi təcrübəsinin mahiyyətində əsas yer tutur.

Beləliklə, III Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyevin xarici siyasətin başlıca prinsipləri ilə bağlı ifadə etdiyi fikirlər yeni politoloji tədqiqatlara motivə edir. Azərbaycanda siyasi liderlik ənənəsi ilə müasir müstəqil dövlətçiliyin daxili bağlılığının siyasi-nəzəri tədqiqi burada mühüm yer tutmalıdır. Faktiki olaraq, Azərbaycanda yeni tarixi mərhələnin başlaması fonunda bu, özlüyündə milli ideya, suverenlik və güclü dövlət quruculuğu kimi məsələlərin fərqli kontekstdə nəzəri dərkini aktuallaşdırır. Bu məsuliyyəti dərk etmək vacib dövləti məsələdir.

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

**Azərbaycan Prezidenti İlham Əliyevin Xankəndi şəhərində keçirilən III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə səsləndirdiyi fikirlər beynəlxalq ictimaiyyətin diqqətində və dünyanın aparıcı KİV-lərinin gündəmində qalmaqdadır. Çünki Xankəndidən dünyaya verilən mesajlar miqyasına və aktuallığına görə böyük əhəmiyyətə malikdir. Dövlətimizin başçısı xüsusilə Ermənistan–Azərbaycan nizamlanması ilə bağlı suallara konkret və dolğun cavablar verdi, Azərbaycanın xarici siyasətinin prioritetlərini bir daha bölgədə öz maraqlarını güdən kənar aktorların diqqətinə çatdırdı. Bu zaman İlham Əliyev Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması üçün qarşılıqlı etimad mühitinin yaranmasını vacib amillərdən biri kimi önə çəkdi. Bu və digər aspektlərdə suallarımızı beynəlxalq hüquq üzrə ekspert Kəramət Qənbərov cavablandırır.**

# Bakının etibarlı etimad körpüsü

## *Azərbaycan Cənubi Qafqazı sülhə aparan yolda bütün maneələri aradan qaldırıb*



**– Kəramət müəllim, Prezident İlham Əliyev Şuşa Qlobal Forumundakı çıxışında Ermənistanla sülhə nail olmağın yollarından danışarkən bir neçə vacib məqamın üzərində dayandı. Sizcə, ən başlıca məqam hansı idi?**

– Azərbaycan 2020-ci il Vətən müharibəsindən sonra Cənubi Qafqazda postmünaqişə dövrünün əsas memarı kimi sülh quruculuğu təşəbbüsləri ilə çıxış edir. Xüsusilə sərhədin delimitasiyası istiqamətində 2024-cü ilin aprelində əldə olunan ikitərəfli razılaşma, Qazaxın anklavdakı 4 kəndinin geri qaytarılması və əsirlərin dəyişdirilməsi ilə bağlı sərgilədiyi konstruktiv mövqe Bakının sülh gündəliyinə sadiqliyini göstərir. Prezident İlham Əliyevin III Şuşa Qlobal Media Forumda qeyd etdiyi kimi, "Biz nə deyiriksə, onu da edirik. reallıq budur". Bunun fonunda rəsmi İrəvanın davranışı bir çox hallarda ziddiyyətli olur. Ermənistan rəhbərliyi sözlə sülhə dəstək verdiyini bildirsə də, əməldə bunu reallaşdırmağa tərəddüd edir. Çünki həm daxildəki, həm də kənardakı bəzi siyasi və ictimai dairələr sülhə aparan yolda müxtəlif maneələr yaratmağa çalışırlar. Hesab edirik ki, bunlar faydasız cəhdlər və müvəqqəti maneələrdir. Cənab Prezidentin çıxışında xüsusi qeyd etdiyi ən başlıca məqam sülh sazişinin imzalanması üçün Azərbaycanın Ermənistan qarşısında irəli sürdüyü, reallığa və beynəlxalq hüquqa söykənən tələblərinin yerinə yetirilməsinin vacibliyi ilə bağlı idi. Bəli, Bakı İrəvandan möhkəm sülhün gələcəyinə tam təminat almadan hərtərəfli sülh anlaşmasını imzalamayacaq. Bu, birmənalıdır.

**– Azərbaycan lideri Şuşa Forumundakı çıxışında Əbu-Dabidə baş tutan ikitərəfli görüş, sülh danışıqlarında əldə olunan müsbət irəliləyiş barədə nikbin fikirlər səsləndirdi...**

– Sülh prosesinin Əbu-Dabi mərhələsini, doğrudan da, iki ölkə arasında münasibətlərin normallaşması baxımından dönüş anı adlandırmaq olar. Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən görüş postmünaqişə dövründə Cənubi Qafqazın gələcəyini müəyyənləşdirən ən mühüm siyasi hadisələrdən biri kimi tarixə düşdü. Bu görüşü və ondan əvvəl sülh sazişinin mətninin tam razılaşdırılmasını şərtləndirən əsas amil Azərbaycanın həm hərbi, həm də diplomatik sahədə əldə etdiyi qəti üstünlüyüdür. Elə sülh sazişinin məzmunu açıq şəkildə onu göstərir ki, bu sənəd Azərbaycanın milli maraqlarına uyğun şəkildə tərtib edilib. Bu, əlbəttə ki, 2020-ci ildə Azərbaycanın qazandığı Zəfərin diplomatik təntənəsidir. Əsas prinsip olan ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanınması Ermənistanın tarixən irəli sürdüyü işğalçı iddiaların rəsmən sona çatması deməkdir. Buna bütün dünya şahidlik elədi. Üstəlik, sülh müqaviləsinin imzalanması üçün Ermənistan konstitusiyasına dəyişikliyin tələb olunması Azərbaycanın hüquqi və siyasi gücünü açıq şəkildə ortaya qoydu. Əbu-Dabi görüşü göstərdi ki, bölgədə artıq Azərbaycanın diktə etdiyi yeni reallıqlar mövcuddur və Ermənistan bu reallıqları qəbul etməyə məcburdur. Azərbaycanın irəli sürdüyü format və şərtlər sülh prosesinin əsasını təşkil edir.

**– Amma Ermənistanda heç də hamı ikitərəfli dialoqun nəticələri ilə razılaşmır. Fikrinizcə, hay cəmiyyətində revanşizm meyillərini azaltmaq və aradan qaldırmaq üçün bu gün Paşinyandan nə tələb olunur?**

– 2020-ci ilin noyabrından sonra erməni cəmiyyətində revanşist ritorika daha da güclənmişdi. "Qarabağ Ermənistandır" iddiası üzərindən qurulan ideoloji narrativ, həm müxalif, həm də diasporyönümlü mərkəzlərdə hələ də aktuallığını qoruyub saxlayır. 2023-cü ildə Ermənistan Mətbuat Klubu tərəfindən keçirilmiş ictimai rəy sorğusuna əsasən, əhalinin 39 faizi "qisas almaq" ideyasını dəstəkləyirdi. Bu tendensiyaya qarşı durmaq üçün Paşinyan hökumətindən gözlənilən addım, ilk növbədə, sülhyönümlü təbliğatın gücləndirilməsi, təhsil və media siyasətində militarizmdən uzaq, keçmişə deyil, gələcəyə baxan regional əməkdaşlıq diskursunu təşviq etməkdir. Hay cəmiyyətində revanşizm meyillərinin qarşısı yalnız ictimai şüurun transformasiyası ilə alına bilər. Bunun alternativi yoxdur. Prezident Əliyevin də qeyd etdiyi kimi, "Revanşizm təkcə sülhə deyil, Ermənistanın gələcəyinə təhdiddir."

**– Necə fikirləşirsiniz, rəsmi İrəvan sülh prosesini sona çatdırmaq üçün xarici təsirlərdən qurtula biləcəkmi?**

– Təəssüf ki, Ermənistanın müstəqil qərar vermə qabiliyyəti hələ də müxtəlif xarici güclərin təsiri altındadır. Avropa İttifaqının müşahidə missiyasının müddətinin uzadılması, eyni zamanda, Rusiya ilə KTMT xətti üzrə ziddiyyətli münasibətlərin hələ də davam etməsi Ermənistanın geosiyasi kursunu qeyri-müəyyən edir. ATƏT-in Minsk qrupunun faktiki olaraq fəaliyyətsizləşməsinə baxmayaraq, bəzi dairələrin onun bərpası ilə bağlı çağırışları da bu asılılıqdan doğur. İrəvanın regionda etibarlı tərəfdaş qismində tanınması üçün bu təsirlərdən uzaqlaşaraq balanslaşdırılmış, suveren xarici siyasət yürütməsi və qonşuları ilə normal əməkdaşlıq qurması zəruridir. Sülh prosesinin uğurlu sonluğa çatması üçün Ermənistan kənar güclərin maraqlarını deyil, regional reallıqları əsas götürməli, geosiyasi rəqabətin alətinə çevrilməməlidir. İndi Nikol Paşinyan hakimiyyəti çıxılmaz vəziyyətə düşüb. İrəvan artıq əmin oldu ki, reallığın inkarı, Bakının sülh təşəbbüslərinə qoşulmada ləngimə və siyasi manipulyasiya yolu ilə beynəlxalq ictimaiyyətdə yanlış rəy yaratmaq cəhdləri iflasa uğrayıb. Rəsmi İrəvan sülhün kənar qüvvələrin maraqlarından və iradəsindən asılı olmadan əldə ediləcəyinə inanmalıdır.

**– Yəni yalnız vasitəçisiz, ikitərəfli danışıqların fayda gətirəcəyinə tam əmin olmalı, bundan o tərəfə yolunun qalmadığını görməlidir...**

– Bəli, bunu reallıq tələb edir. Son aylar baş verən proseslər – Brüssel, Moskva və Vaşinqton formatlarından fərqli olaraq Abu Dabi görüşündə sülh müqaviləsinin de-fakto paraflanması bir daha göstərdi ki, vasitəçilərsiz, birbaşa danışıqlar daha nəticəyönlüdür. Bu formatın üstünlüyünü Prezident İlham Əliyev hələ 2022-ci ildə vurğulamışdı: "Ən yaxşı nəticələr tərəflərin birbaşa ünsiyyət qurduğu zaman əldə edilir". Azərbaycan və Ermənistan rəhbərliyi arasında keçirilən tet-a-tet görüş, birbaşa dialoq Cənubi Qafqazda yeni səhifənin başlanğıcı kimi dəyərləndirilir. İndi əsas diqqət Ermənistan konstitusiyasında ziddiyyətli müddəaların aradan qaldırılmasına və sülh sənədinin imzalanaraq ratifikasiya olunmasına yönəlməlidir. Bundan sonra isə ATƏT-in Minsk Qrupunun formal şəkildə ləğvi və tərəflər arasında münaqişə səhifəsinin birdəfəlik bağlanması baş verəcək. Və bu nəticəyə tez çatmağın yolu İrəvanın Bakının yaratdığı etimad mühitinə adekvat addımlar atmasından keçir. Amma təəssüf ki, Ermənistan konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə qarşı təhdid yaradan müddəaların aradan qaldırılmaması bu etimadı sarsıdır. Görünən odur ki, bu gün İrəvanla sülhə aparan yolun üzərində real təməlli etimad körpüsünü məhz Bakı inşa edir. Bunu da əminliklə deyə bilərik ki, Azərbaycan, bütövlükdə, Cənubi Qafqazı sülhə aparan yolda bütün maneələri aradan qaldırıb. Qalır Ermənistanın bu yola mümkün qədər tez düşməsi...

*Söhbəti yazıya aldı:*
*İmran BƏDİRXANLI*
*XQ*

# Azərbaycanın Avropa İttifaqı bazarında mövqeyi möhkəmlənir




**(əvvəli 1-ci səhifədə)**

Son 20 il ərzində respublikada yüzlərlə müasir sənaye müəssisəsinin, yeni istehsal sahələrinin, müxtəlif bölgələrdə sənaye parklarının yaradılması isə yerli məhsulların payının əhəmiyyətli dərəcədə artmasını şərtləndirməklə yanaşı, ixrac imkanlarının genişlənməsində önəmli rol oynayıb. Təbii ki, ixrac imkanlarının genişlənməsi üçün respublikada müxtəlif sahələri əhatə edən istehsalat sahələrinin, yeni investisiyalar cəlb edilməsi üçün gözəl biznes mühitinin və siyasi sabitliyin yaradılması diqqət mərkəzində saxlanılıb.

Yeri gəlmişkən, respublikada əlverişli biznes mühiti dedikdə şübhəsiz ki, sahibkarlar, iş adamları üçün stimullaşdırıcı biznes və investisiya mühitinin mövcudluğu, bu sahədə dövlət tərəfindən müxtəlif dəstək tədbirlərinin, həmçinin vergi və gömrük güzəştlərinin reallaşdırılması nəzərdə tutulur və bunlar hazırda iqtisadi inkişafın dinamikasını şərtləndirir. Qeyri – neft sənayesinin inkişafı ölkənin karbohidrogen daşıyıcılarının hasilat və ixracından əldə edilən gəlirlərdən, həmçinin daxili istehsalın və istehlak bazarının idxaldan asılılığını azaldır, ixracın şaxələnməsinə xidmət edir.

Həyata keçirilən bütün bu tədbirlərin nəticəsidir ki, Azərbaycanın Aİ ölkələri ilə ticarət dövriyyəsi son illər xeyli yaxşılaşıb. Bu ilin I yarısında isə respublikamızla sözügedən ittifaq ölkələri arasında ticarət dövriyyəsinin dəyəri 10 milyard 462 milyon ABŞ dolları (ötən ilin eyni dövrü ilə müqayisədə 22,6 faiz çox) təşkil edib.

Dövlət Gömrük Komitəsinin məlumatına görə, son 1 ildə Azərbaycanın Aİ ölkələrinə ixracının dəyəri 24,2 faiz artaraq 9 milyard 39 milyon dollar, ittifaq ölkələrindən idxalın dəyəri isə 13,5 faiz artaraq 1 milyard 423 milyon dollar olub. Yanvar – iyun aylarında Aİ ölkələrinin Azərbaycanın ümumi ixracında payı 70,2 faiz, ümumi idxalında payı isə 12,3 faiz təşkil edib. Hesabat dövründə Azərbaycanın ən çox ticarət dövriyyəsi ardıcıl olaraq İtaliya, Almaniya, Çexiya, Yunanıstan və İspaniya ilə formalaşıb.

Azərbaycanla İtaliya arasında ticarət dövriyyəsinin dəyəri 6 milyard 242 milyon dollar, o cümlədən bu ölkəyə ixracın dəyəri 5 milyard 993 milyon dollar, bu ölkədən idxalın dəyəri isə 248,8 milyon dollar təşkil edib. Son 1 ildə ticarət dövriyyəsi 26,9 faiz, ixrac 27,5 faiz, idxal isə 15,2 faiz artıb.

Respublikamızla Almaniya arasında ticarət dövriyyəsinin dəyəri 767,3 milyon dollar, o cümlədən bu ölkəyə ixracın dəyəri 320,3 milyon dollar, bu ölkədən idxalın dəyəri isə 447 milyon dollar təşkil edib. Son 1 ildə ticarət dövriyyəsi 9,1 faiz, ixrac 0,4 faiz, idxal isə 16,4 faiz artıb.

Azərbaycanla Çexiya arasında ticarət dövriyyəsinin dəyəri 485 milyon dollar, o cümlədən bu ölkəyə ixracın dəyəri 459 milyon dollar, bu ölkədən idxalın dəyəri isə 34,2 milyon dollar təşkil edib. Son 1 ildə ticarət dövriyyəsi 6,3 faiz, ixrac 8,4 faiz azalıb, idxal isə 36,7 faiz artıb.

Azərbaycanla Yunanıstan arasında ticarət dövriyyəsinin dəyəri 397 milyon dollar, o cümlədən bu ölkəyə ixracın dəyəri 372 milyon dollar, bu ölkədən idxalın dəyəri isə 24,8 milyon dollar təşkil edib. Son 1 ildə ticarət dövriyyəsi 8,3 faiz, ixrac 10,6 faiz artıb, idxal isə 17,6 faiz azalıb.

Azərbaycanla İspaniya arasında ticarət dövriyyəsinin dəyəri 118 milyon dollar, o cümlədən bu ölkəyə ixracın dəyəri 6 milyon dollar, bu ölkədən idxalın dəyəri isə 112 milyon dollar təşkil edib. Son 1 ildə ticarət dövriyyəsi 0,2 faiz, idxal 65,2 faiz artıb, ixrac 8,2 dəfə azalıb.

# Milli süni intellekt standartı qəbul edilib

**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyindəki Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) tərəfindən AZS ISO/IEC 42001:2025 "İnformasiya texnologiyası – Süni intellekt – İdarəetmə sistemi" dövlət standartı qəbul edilib.**



AZSTAND-dan XQ-yə bildirilib ki, yeni standart süni intellekt texnologiyalarının tətbiqində risklərin idarə olunması, etik prinsiplərə riayət edilməsi və şəffaflığın qorunması tələblərini müəyyənləşdirir. Eyni zamanda süni intellekt sistemlərinin qurulması, tətbiqi, saxlanılması və davamlı olaraq təkmilləşdirilməsinə dair ən müasir alqoritmləri və yanaşmaları əhatə edir.

Yeni dövlət standartı İnformasiya-kommunikasiya texnologiyalarının standartlaşdırılması üzrə Texniki Komitədə müzakirəyə çıxarılıb və adıçəkilən institut tərəfindən təsdiqlənərək Standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fonduna daxil edilib.

Qeyd edək ki, yeni dövlət standartı Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt strategiyası"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.1.5-ci yarımbəndinin icrası məqsədilə qəbul edilib.

# Sahibkarlığa verilən kreditlər artıb

**Azərbaycan Mərkəzi Bankının məlumatına görə, 2025-ci ilin iyun ayının sonuna ölkədə iri sahibkarlıq subyektlərinə verilən kreditlərin həcmi 8 milyard 508 milyon manat təşkil edib. Bu, may ayının sonu ilə müqayisədə 21,4 milyon manat və ya 0,25 faiz çoxdur.**

Xatırladaq ki, iyul ayının 1-nə olan məlumata əsasən, Azərbaycanda 966 iri sahibkarlıq subyekti fəaliyyət göstərir. Ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 0,5 faizini iri sahibkarlıq subyektləri təşkil edir. Onların əsas hissəsi "Ticarət, nəqliyyat vasitələrinin təmiri" (22,8 faiz), "Emal sənayesi" (13,3 faiz), "Tikinti" (11,6 faiz), eləcə də "Nəqliyyat və anbar təsərrüfatı" (6,3 faiz) sahələrində yaradılıb.



6 ayda ölkədə fəaliyyət göstərən kiçik sahibkarlıq subyektlərinə verilən kreditlərin həcmi isə 1 milyard 503 milyon manat olub. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 54,6 milyon manat və ya 3,8 faiz çoxdur. İyul ayının 1-nə olan məlumata görə, Azərbaycanda 12 min 200 kiçik sahibkarlıq subyekti fəaliyyət göstərir. Ümumilikdə, ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 6 faizini kiçik sahibkarlıq subyektləri təşkil edir. Onların əsas hissəsi "Ticarət, nəqliyyat vasitələrinin təmiri" (36 faiz), "Tikinti" (10,9 faiz), "Emal sənayesi" (9,8 faiz), eləcə də "Peşə, elmi və texniki fəaliyyət" (8 faiz) sahələrində yaradılıb.

Mərkəzi Bankın məlumatına əsasən, bu ilin iyun sonuna Azərbaycan banklarının biznes kredit portfelinin həcmi 15 milyard 144 milyon manat təşkil edib.

# "Odlar yurdu"nun qazı Ukraynada da alovlanacaq

**Ukraynanın "Naftoqaz Ukraini" milli səhmdar cəmiyyəti Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə qaz alqı-satqısına dair ilk müqavilə imzalayıb. Bu barədə "Naftoqaz Ukraini" milli səhmdar cəmiyyətinin mətbuat xidməti məlumat yayıb.**




Bildirilib ki, Bolqarıstan – Rumıniya – Ukrayna sərhədi marşrutu üzrə Trans-Balkan dəhlizi ilə ilk dəfə sınaq qaz təchizatı həyata keçirilir. "Bu, uzunmüddətli əməkdaşlığa yol açan kiçik, lakin strateji əhəmiyyətli addımdır. Həm də təchizat mənbələrinin şaxələndirilməsi və Ukraynanın enerji təhlükəsizliyinin gücləndirilməsinin daha bir nümunəsidir", – deyə "Naftoqaz"ın idarə heyətinin sədri Sergey Koretski bildirib.

"Naftoqaz" rəhbəri, həmçinin razılaşmanın əldə olunmasına dəstək verdiklərinə görə Ukrayna prezidentinə, hökumətə və Energetika Nazirliyinə, eləcə də Azərbaycandan olan tərəfdaşlara göstərdikləri etimada görə təşəkkürünü bildirib.

**Azərbaycan tarixi müstəqilliyinə qovuşduqdan yeraltı sərvətlərinin əsl sahibinə çevrildi. Ölkəmiz neft-qaz ehtiyatlarından sərbəst şəkildə istifadə etmək imkanı qazandı. Neft və qazın satışından əldə olunan gəlirlər iqtisadiyyatın şaxələndirilməsinə geniş meydan açdı. Ölkədə qeyri-neft sektorunun inkişafı sürətləndi, dünya standartlarına uyğun yeni-yeni istehsal və emal müəssisələri açıldı.**

"Şahdəniz" yatağının istismara verilməsi ilə dünyanın potensial qaz ixracatçısına çevrilmiş Azərbaycanda, həm də təbii qaz kənd təsərrüfatı üçün geniş xammal mənbəyinə çevrildi. Bununla da, ölkəmizdə aqrar sektor üçün son dərəcə vacib olan karbamid gübrəsinin istehsalına başlandı. Əvvəllər isə bu növ məhsul böyük maliyyə hesabına xaricdən alınırdı. Artıq Azərbaycan kənd təsərrüfatının karbamid gübrəsinə olan tələbatını tam ödəməklə, həm də istismara verilib. Ümumi ərazisi 40 hektara yaxın olan müəssisədə ammonyak, maye və dənəvər karbamid istehsalı sahələri fəaliyyət göstərir. Gübrə istehsalı üçün əsas xammal kimi təbii qazdan istifadə olunur. İstehsal prosesində il ərzində, təqribən, 435 milyon kubmetr (gündə 1,2 milyon kubmetr) təbii qazdan olunur. Zavodda gündəlik 1200 metrik ton ammonyak və 2 min metrik ton karbamid istehsal etmək mümkündür.

# Sumqayıtın karbamid gübrəsi dünya bazarında

## *Bu məhsulun Avrasiya və Amerika ölkələrində sabit alıcıları var*



onun əsas ixracatçısına çevrilib.

Bütün bu uğurlara isə Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Sumqayıtda inşa etdiyi Karbamid zavodunun işə salınmasından sonra nail olunub. Xatırladaq ki, zavodun layihəsi Prezident İlham Əliyevin 25 avqust 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və 26 dekabr 2014-cü il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na əsasən həyata keçirilib. 2011-ci ildə dövlət başçısının iştirakı ilə müəssisənin təməli qoyulub.

Beynəlxalq səviyyəli layihənin həyata keçirilməsində xarici tərəfdaşlar da yaxından iştirak ediblər. Layihənin baş podratçısı Koreyanın "Samsung" şirkəti olub. Danimarkanın "Haldor Topsoe" və Niderlandın "Stamicarbon B.V" şirkətləri isə müvafiq olaraq ammonyak və karbamid istehsalı sahələrini ən müasir avadanlıqlarla təchiz ediblər. Bundan əlavə, Finlandiyanın "Neste Engineering Solutions" şirkəti layihənin idarə edilməsi üzrə məsləhət və müstəqil təftiş xidmətləri göstərib.

Layihənin maliyyələşdirilməsinin ilkin mərhələsi dövlət büdcəsindən ayrılan maliyyə vəsaiti hesabına həyata keçirilib. Daha sonra Cənubi Koreyanın İxrac-idxal Bankından (KEXIM), habelə "Societe Generale" (Fransa), "Deutsche Bank" (Almaniya) və "UniCredit" (Avstriya) banklarından dövlət zəmanəti əsasında 500 milyon avro məbləğində vəsait cəlb edilib. Həmçinin, layihə ilə bağlı vergi və rüsumların, habelə digər xərclərin ödənilməsi məqsədilə SOCAR tərəfindən, təxminən, 100 milyon avro məbləğində vəsait ayrılıb. Layihənin maliyyələşdirilməsində xarici bankların yaxından iştirakı isə əsl beynəlxalq əməkdaşlıq nümunəsi kimi dəyərləndirilə bilər.

Zavodun inşasına 2014-cü ilin fevralında başlanıb. Tikintinin pik vaxtlarında inşaat işlərinə, ümumilikdə, 3600 nəfərdən artıq işçi cəlb olunub və 18 milyon adam-saatdan çox iş həcmi qəzasız şəraitdə yerinə yetirilib. İşçilərin isə böyük əksəriyyəti yerli vətəndaşlar olub. Karbamid zavodu 2019-cu il yanvarın 16-da ölkə Prezidenti İlham Əliyevin iştirakı ilə istismara verilib.

Qeyd edək ki, ən yüksək azot tərkibinə (46,3 faiz) və suda tez həllolma qabiliyyətinə görə seçilən bu gübrə növü ammonyak və karbon dioksidin sintezi nəticəsində əldə edilir. Karbamidin başqa bir üstünlüyü onun həm ayrı, həm də digər gübrələrlə birgə istifadə oluna bilməsidir. Bundan əlavə, karbamiddən mal-qara yemi və digər kimyəvi maddələrin istehsalında, eləcə də əczaçılıqda geniş istifadə olunur. Karbamidə olan yüksək tələbat onun aşağı maya dəyəri, qənaətcil və təhlükəsiz daşınması, rahat tətbiqi və kənd təsərrüfatında yüksək məhsuldarlıq verməsi ilə əlaqədardır. Bu növ gübrə yanğın və ya partlayış təhlükəsi yaratmadığına görə saxlanılma və daşınma baxımından etibarlı və qənaətcil məhsul hesab edilir.

Yeri gəlmişkən, SOCAR-ın Karbamid zavodu ölkədə qeyri-neft sektorunda həyata keçirilmiş ən böyük layihələrdən biridir. Müəssisə il ərzində 650-660 min ton karbamid məhsulu istehsal etmək gücünə malikdir. Qeyd etdiyimiz kimi, zavod istismara verilənədək azot gübrələri Azərbaycana idxal edildiyi halda, hazırda bu müəssisə həm daxili bazarın tələbatını tam ödəyə bilir, həm də istehsal etdiyi məhsulun çox hissəsini ixrac edir. Nəticədə, daha əvvəl idxal üçün sərf edilən milyonlarla valyuta vəsaiti ölkədə qalır, eyni zamanda, ölkənin qeyri-neft ixrac gəlirlərini artırır.

Zavodun istehsalat şöbəsinin rəisi Şöhrət Mirzəyevin bildirdiyinə görə, ötən il müəssisədə 652 min karbamid istehsal edilmişdirsə, cari ildə bu göstəricinin 660 min tondan çox olacağı gözlənilir. Şöbə müdiri onu da deyib ki, hazırda zavodda istehsal olunan karbamid Şimali və Cənubi Amerika ölkələrinə, Avropaya, Mərkəzi Asiya respublikalarına, eləcə də Gürcüstan və Türkiyəyə ixrac olunur. Ümumilikdə isə, müəssisədə istehsal olunan məhsulun 70 faizi dünya bazarında satılır. Bu da ölkəyə hər il 160 milyon dollara qədər əlavə gəlirin daxil olmasına imkan yaradır. Karbamid zavodu Azərbaycanda kənd təsərrüfatının inkişafında mühüm rol oynayır. Təkcə onu qeyd etmək kifayətdir ki, müəssisədə istehsal olunan məhsulun 30 faizi daxili bazara yönəldilir ki, bu da ölkənin kənd təsərrüfatının karbamidə olan tələbatını tam ödəyir.

# Bank aktivlərimiz 57 milyard manata çatır

**Azərbaycan Mərkəzi Bankının (AMB) məlumatına əsasən, bu il iyulun 1-nə ölkəmizin bank sektorunun aktivləri 12,7 faiz artaraq 56,73 milyard manata çatıb. Bankların aktivlərinin 26,78 milyard manatını müştərilərə verilmiş xalis kreditlər təşkil edib. Son 1 ildə sektorun kredit portfeli 11,7 faiz böyüyüb, kreditlərin aktivlərdəki çəkisi isə 47,6 faizdən 47,2 faizə enib.**




Hesabat dövründə bank sektorunun öhdəlikləri isə 49,79 milyard manata (12,9 faiz çox) yüksəlib. Həmçinin depozit portfeli 6,2 faiz artaraq 37,35 milyard manat olub. Əmanət portfelinin fiziki və hüquqi şəxslərə aid hesablarda 8,5 faiz və 4,6 faiz artım qeydə alınıb. Sektorun balans kapitalı isə 11,3 faiz artaraq 6,95 milyard manata yüksəlib.

***Səhifəni hazırladı:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

## Fizika İnstitutu – 80

# Milli fizika elminin qərargahı



**Fizika İnstitutunun AMEA-nın həqiqi və müxbir üzvü seçilmiş alimləri**



**İnstitut elmi şurasının iclası**

**(əvvəli ötən saylarımızda)**

Azərbaycan alimləri elementar zərrəciklər və nüvə fizikası sahəsində eksperimental araşdırmaları Birləşmiş Nüvə Tədqiqatları İnstitutu (Rusiya-Dubna) və CERN (İsveçrə) elmi mərkəzlərinin sürətləndiricilərində aparmışlar. BNTİ-nin əməkdaşları ilə birlikdə sürətləndiricilərdə adron-nüvə və nüvə-nüvə qarşılıqlı təsirlərində kumulyativ effekt, üçprotonlu rezonans, çoxsaylı zərrəciklərin yaranması, nüvənin tam parçalanması prosesləri aşkar edilmiş və bu proseslərdə yaranan zərrəciklərin xassələri öyrənilmişdir.

Relyativistik nüvə-nüvə qarşılıqlı təsirləri ilk dəfə sistemli tədqiq edilmişdir. Nüvə-nüvə qarşılıqlı təsirində yüksək enerjilərdə maddənin qarışıq halları (kvark-qlüon plazması) müşahidə edilmişdir. CERN-də ATLAS layihəsi çərçivəsində qurğunun yaradılmasında, test sınaqlarının keçirilməsində, nəticələrin alınmasında və təhlilində Azərbaycan alimləri yaxından iştirak etmişlər. ATLAS qurğusu üçün müxtəlif proseslər elektromaqnit və kvant xromodinamik düzəlişlər nəzərə alınmaqla Monte-Karlo modeli çərçivəsində hesablanmışdır. Kvarkların kompozitivliyi təhlil olunmuşdur.

AMEA-nın müxbir üzvü Vəli Hüseynov nüvə fizikasının ayrıca bölməsi olan elementar zərrəciklər fizikası, sahələrin kvant nəzəriyyəsi, astrofizika və kosmologiya sahələrində elmi tədqiqatlarla məşğul olaraq xarici maqnit sahəsində, o cümlədən ifratgüclü maqnitləşmiş ulduzlarda neytrino və antineytrinoların iştirakı ilə gedən lepton proseslərinin, bu proseslərdə ortaya çıxan polyarlaşma effektlərinin və spin asimmetriyalarının, adi neytron ulduzlarının, maqnitarların və ifratyenilərin qızma və soyuması ilə bağlı məsələlərinə, agır neytral bozonların və Hiqq bozonunun xassələrinin tədqiq sahəsində nəticələr etmişdir.

Onun son elmi-tədqiqat işləri aşağı enerjili neytrino və antineytrinoların, o cümlədən kosmik relikt neytrino və antineytrinoların detektə olunmasına, relikt neytrino və antineytrino teleskopunun qurulması layihəsinin hazırlanmasına, aşağı enerjili neytrino və antineytrinoların enerjisinin gücləndirilməsi və enerjinin neytrino və antineytrinolar vasitəsilə uzaq məsafələrə ötürülməsi və kristaldaxili güclü elektrik sahələrinin intensivliyinin təyin edilməsi kimi məsələlərin tədqiqinə həsr olunmuşdur.

Elektrofizika və energetikanın fiziki-texniki problemləri elmi istiqaməti akademik Çingiz Cuvarlının tədqiqatları əsasında yaranmış və üç əsas qoldan ibarət olmuşdur: yüksək gərginlikli şəbəkədə keçid prosesləri və onların yaratdıqları ifrat gərginliklər, yüksək elektrik sahələrinin təsiri altında olan elektrik izolyatorlarında gedən fiziki proseslər, texnoloji proseslərdə yüksək elektrik sahələrindən və boşalmalarından istifadə. Hazırda bu istiqamətlərdə aparılan işlərə akademik Arif Həşimov rəhbərlik edir. Dielektriklə məhdudlaşan aralıqda elektrik boşalmaları tədqiq olunmuş, adgeziya, adsorbsiya və elektrik xassələrini tənzimləmək üçün elektrik qazboşalmalarından istifadə edilməklə yeni texnoloji proseslərin fiziki əsasları verilmişdir.

Elektromənfi qazlarda tacvari elektrik qazboşalması örtüyünün yaranması öyrənilmiş və aktiv mənfi ionların əmələgəlmə və parçalanmasının qanunauyğunluqları müəyyən edilmişdir. Materialların səth təbəqələrində quruluş və enerji dəyişmələrinə səbəb olan fiziki-kimyəvi proseslərin mexanizmi aşkar olunmuşdur. Polimerdə elektrik yüklərinin formalaşmasının mexanizmi müəyyən edilmiş, bərk dielektriklərin elektrik möhkəmliyinin energetik analizinin müasir nəzəriyyəsi inkişaf etdirilmişdir.

"Yüksəkgərginlikli elektrik şəbəkələrində neytral rejim" kompleks işlərinə görə Çingiz Cuvarlı, Yevgeni Dmitriyev və Arif Həşimov, Xalid İsmayılov, Məmmədağa Əliyev, Tofiq Nurməmmədov 1978-ci ildə Azərbaycan Dövlət mükafatına, akademik Çingiz Cuvarlı və Yevgeniy Dmitriyev 1985-ci ildə SSRİ Dövlət mükafatına, 1996-cı ildə isə Ukrayna Dövlət mükafatına layiq görülmüşlər.

Fizika və texnika sahəsində tətbiq xarakterli işlərin inkişafında 1968-ci ildə Fizika İnstitutunun nəzdində təcrübə zavodu olan Xüsusi Konstruktor Bürosunun yaradılması mühüm rol oynamışdır. XKB-nun fəaliyyətinin əsas istiqaməti termoelektrik yarımkeçirici materialların alınması, onların əsasında xalq təsərrüfatının müxtəlif sahələrində tətbiqini tapan xüsusi təyinatlı yarımkeçirici soyuducu və qızdırıcı qurğuların hazırlanması idi. XKB-də Azərbaycanın və Sovet İttifaqının bir sıra müəssisələri üçün nadir xassələrə malik termoelektrik çeviricilər hazırlanmış və SSRİ EA Rəyasət Heyətinin qərarı ilə ölkədə tibb təyinatlı termoelektrik çeviricilərinin istehsalı üzrə baş müəssisə təsdiq olunmuşdur.

1981-ci ildən Fizika İnstitutunda fəaliyyət göstərən "Registr" XKB-da öz texnologiyası əsasında alınmış yüksək effektivli kompozit materiallardan bir sıra elektroakustik, akustoelektron, elektromexaniki, akustooptik və optoakustik çeviricilər hazırlanmışdır.

Hazırda Fizika İnstitutunun tədqiqatlarının əsas istiqamətləri bunlardır: kondensə olunmuş hal fizikası, bərk cisim fizikası və elektronikası, nüvə fizikası, elektrofizika və elektroenergetikanın problemləri. Kondensə olunmuş hal fizikası istiqaməti yarımkeçiriciləri, dielektrikləri, topoloji izolyatorları, nanomaterialları və quruluşları, maqnit materialları, yüksək temperaturlu ifrat keçiriciləri, seqnetoelektrikləri, kompozit materialları və onlar əsasında yaranmış strukturların tədqiqi məsələlərini əhatə edir.

İnstitutun nailiyyətlərinin mühüm hissəsi yarımkeçiricilər fizikası sahəsində aparılan tədqiqatlarla əlaqədardır.

İnstitutda alınan nəticələr təkcə respublikanın deyil, eləcə də keçmiş ittifaqın bir sıra respublikalarında və digər xarici ölkələrdə tətbiq edilmiş, respublikamızda bir neçə müasir sənaye (mikroelektronika, optoelektronika və s.) və elm (kosmik tədqiqatlar, biofizika, fotoelektronika, informatika, molekulyar biologiya, astrofizika və s.) sahələrinin yaranıb inkişaf etməsinə səbəb olmuşdur.

Son illərdə Respublika Prezidenti yanında Elmin İnkişafı Fondunun ayırdığı və digər qrantlar hesabına institutun maddi-texniki bazası xeyli güclənmiş, laboratoriyalar bir sıra yeni müasir unikal tədqiqat qurğu və cihazları ilə təmin olunmuşdur. Həmin qurğularda işləmək üçün gənc kadrlar seçilərək qabaqcıl xarici ölkələrin (Yaponiya, Almaniya, Fransa, ABŞ, Rusiya və s.) elm mərkəzlərində hazırlıqlar keçirlər. Bu, tədqiqat işlərinin səviyyəsinin daha da yüksəldilməsinə köməklik göstərir. Fizika İnstitutunun ABŞ və Yaponiya ilə birgə tədqiqat laboratoriyaları yaradılmış və bu gün də fəaliyyət göstərir. Laboratoriyaların bir neçəsi müntəzəm olaraq Avropa ölkələri, ABŞ, Yaponiya, Rusiya, Türkiyə və s. qabaqcıl tədqiqat mərkəzlərində müqavilə ilə birgə tədqiqatlar aparır.

Akademik Nazim Məmmədovun rəhbərliyi ilə yeni laylı kristal quruluşlu yarımkeçirici materiallar alınaraq, onların elektron, fonon spektri, bu spektrlə kristal quruluşu arasında əlaqə müəyyənləşdirilmiş, ikiölçülü elektron qazının mövcudluğunu sübut edən Holl müqavimətinin kvantlanması aşkar edilmiş və göstərilmişdir ki, Dirak nöqtəsi Fermi səviyyəsi yaxınlığında yerləşən dolu topoloji səth elektron səviyyələri ilə yanaşı, Dirak nöqtəsi keçirici zonada yerləşən boş topoloji səth elektron səviyyələri də mövcuddur.

Müəyyən edilmişdir ki, ikiölçülü eksiton üçün əlaqə enerjisi uzununa optik fononun enerjisindən böyük olduqda da ekranlaşma statik dielekrik nüfuzluğu ilə təsvir olunur. Göstərilmişdir ki, Mayorana fermionlarını xarici maqnit sahəsində birölçülü qəfəsdə güclü spin-orbital qarşılıqlı təsir şəraitində yüksıxlıq dalğası yaratmaqla almaq mümkündür.

Fonon şövqü şəraitində parabolik potensiallı yarımkeçirici kvant çuxurunda termomaqnit effektlərin eksperimental nəticələrlə yaxşı uyğunlaşan nəzəriyyəsi, Li supercəbrinə əsaslanan diskret ossilyator modeli, ikitezlikli lazer şüalanmasının üçsəviyyəli atom sistemi ilə qarşılıqlı təsirinin nəzəriyyəsi, müxtəlif formaya və məhdudlaşdırıcı potensiala malik nanoölçülü sistemlərdə elektron səpilməsinin, işığın udulmasının və maqnit sahəsinin ona təsirinin nəzəriyyəsi, mürəkkəb kristal quruluşlu üçqat birləşmələrin elektron və fonon spektrinin ilkin prinsiplərdən hesablanma üsulu, yarımkeçirici kvant çuxurunda qalvanomaqnit və termomaqnit effektlərin nəzəriyyəsi və s. verilmişdir.

Geniş tətbiq imkanlı bir sıra darzolaqlı yarımkeçiricilərdə aşqar və səth hallarının nəzəriyyəsi yaradılmış, termo və fotoelektrik materiallarda, onların əsasında çeviricilərdə elektron və fiziki-kimyəvi hadisələrin mexanizmi aydınlaşdırılmış, etil və izopropil molekullarının iyirmi mindən artıq udulma xətlərinin rezonans tezlikləri yüksək dəqiqliklə ölçülərək, onların enerji parametrləri hesablanmış, molekulların fotohəyəcanlanmasının ən yüksək effektivlik şərti, nisbətən ləng zərrəciklərin zaman keçdikcə dərinləşən elektromaqnit potensial çuxurlu tutulmasının və lokallaşdırılmasının yeni mexanizmi müəyyən edilmişdir.

Müxtəlif təbiətli lazer sistemləri arasında stabil sinxronlaşmanın şərtləri müəyyən olunmuş, sinxronlaşma rejimləri arasında keçidlər hesabına bəzi epidemioloji xəstəliklərin yayılmasının qarşısının alınmasının mümkünlüyü göstərilmişdir. Bir neçə multiferroiklərin faza diaqramı qurulmuş, strukturları müəyyənləşdirilmiş, onlarda yüksək təzyiqlərdə faza keçidləri aşkar edilərək bu keçidlərin təbiəti müəyyənləşdirilmişdir.

Nüvə fizikası istiqamətində aparılmış son tədqiqatlar yeni mühüm nəticələrin əldə edilməsi ilə yekunlaşmışdır. Elektrozəif qarşılıqlı təsirin standart və supersimmetrik nəzəriyyələrinin müxtəlif genişləndirilmiş modelləri təklif olunmuşdur. Bu modellər çərçivəsində lepton-lepton, lepton-adron, foton-lepton, foton-adron və foton-foton səpilmə prosesləri və skalyar Hiqqs bozonları ilə bağlı effektlər tədqiq edilmişdir. Elektron-nüklon dərin qeyri-elastik toqquşma hadisələrinə yüksəktərtibli kvant elektrodinamik düzəlişlər hesablanmışdır. Tək nüvələrdə polyarizasiya effektlərinin öyrənilməsi kollektiv nüvə hallarının xassələrini təsvir edən modellər qurmağa imkan vermişdir. İkinuklonlu potensiallar əsasında nüvələrin dayanıqlılığı problemi araşdırılmışdır. Nüvələrdə ikiqat beta parçalanma prosesləri ətraflı öyrənilmişdir.

Yüksək enerjilər fizikası sahəsində eksperimental araşdırmalar Cenevrədə yerləşən Avropa Nüvə Tədqiqatları Mərkəzi (CERN) və Dubnada yerləşən Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun əməkdaşları ilə birgə bu elmi mərkəzlərdə yerləşən sürətləndiricilərdə davam etdirilir. Fizika İnstitutunun əməkdaşları CERN də ATLAS detektorunun müxtəlif hissələrinin quraşdırılması, test sınaqlarının keçirilməsi, eksperimental nəticələrin alınması və təhlilində istirak edir, birgə araşdırmalar nəticəsində Standart Modelin müxtəlif parametrləri təyin edilir, modelə daxil olan zərrəciklərin yaranma və parçalanma kanalları ətraflı öyrənilir və müxtəlif xarakteristikaları ölçülür.

Böyük Adron Kollayderinin ATLAS detektorunda proton-proton toqquşmalarında elektro-zəif simmetriyanın spontan pozulmasına və fundamental zərrəciklərin kütləqazanma mexanizmlərinə cavabdeh olan Standart Model Hiqqs bozonu aşkar edilərək xassələri öyrənilir, təcrübi olaraq elementar zərrəciklərin Standart Modelindən müxtəlif kənaraçıxmaların mövcudluğu araşdırılır. (Bu işlər müxbir üzv Övsət Abdinovun rəhbərliyi ilə aparılmış və hazırda da davam etdirilir).

Son zamanlar Dubnadakı Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun əməkdaşları ilə birgə nüvə-nüvə qarşılıqlı təsirləri tədqiq edilmiş, ifrat yüksəkenerjili zərrəciklərin inklyuziv əmələgəlmə proseslərinin fiziki mənzərəsi yaradılmış, kosmik zərrəciklərin mənşəyi, yüngün nüvələrin əmələgəlmə mexanizmi tədqiq edilmişdir. Standart Model Hiqqs bozonunun müxtəlif zərrəciklərlə yaranma prosesləri araşdırılmış kollektiv effektlərin yüksək pT-li zərrəciklərin əmələgəlməsində mühüm rol oynamaları göstərilmişdir.

Nəzəri olaraq güclü və elektrozəif qarşılıqlı təsirinin bir sıra kalibrlənmə modelləri qurulmuş, ilk dəfə olaraq zərrəciklərin elektrik yüklərinin kvantlanması və qəti müəyyən olunmuş şərtləri tapılaraq göstərilmişdir ki, baxılan modeldə elektrik yükünün kvantlanması üçün Hiqqs sahələrinin mövcudluğu zəruri şərtdir. Elektromaqnit qarşılıqlı təsirin P-invarianlarını izah edə bilən mümkün mexanizm kimi Hiqqs sahələri təklif olunmuşdur. Dördüncü standart Model ailəsi neytrinosunun mövcudluğunun Böyük Adron Kollayderində Hiqqs bozonun müşahidə edilməsinə təsiri müəyyənləşdirilmişdir.

Azərbaycanda ilk dəfə olaraq Fizika İnstitutunda və AMEA-nın Gəncə Bölməsində 24 saat fəaliyyət göstərən Milli GRİD seqmentləri yaradılmışdır. GRİD texnologiyalarının bərk cisimlər fizikasında tətbiqi istiqamətində ABİNİT və Quantum ESPRESSO-proqram paketləri yeni bleyd-serverlərə yüklənmiş və istifadəyə verilmişdir.

Energetikanın fiziki-texniki problemləri üzrə alimlərin son nailiyyətləri mürəkkəb elektrik şəbəkələrində qeyri-xətti hadisələri nəzərə alan riyazi modelin qurulması, elektrik şəbəkələrində ferrorezonans proseslərinin nəzəriyyəsinin yaradılması, həmin prosesləri aşkar edərək aradan qaldırmaq üçün elektrik qurğuları kompleksinin işlənməsi, mənfi ionların güclü elektrik sahəsində parçalanma prosesinin öyrənilməsindən ibarətdir. Adsorbentlərdə elektrik yüklənməsi müşahidə olunub təsdiq edilmişdir.

İnstitutda dünya əhəmiyyətli fundamental nəticələrlə yanaşı, böyük xalq təsərrüfatı əhəmiyyətli işlərin görülməsi davam etdirilir. Son illərdə nazik qaz küveytlərində dopler daxili lazer spektroskopiyasının ayırdetmə qabiliyyətini yüksəltməyin effektiv metodları, naziktəbəqəli nanoobyektlər yaratmaq üçün texnologiya və bu texnologiya əsasında hazırlanan nanoölçülü difraksiya qəfəsi, kiçikamplitudalı işıq impulsları ilə idarə olunan və işıq enerjisini nanoölçülü məsafələrə qədər mexaniki xətti hərəkətə çevirən aktivator, spektral xarakteristikaları idarə olunan rekord yüksək fotohəssaslıq və cəldliyə malik fotoqəbuledicilər, optoelektronikada geniş tətbiq imkanlı elektron soyuducuları, çoxsaylı kvant çuxurlu ifrat qəfəs hetero strukturları, işçi parametrləri sürətlə (-50 ns) bərpa olunan və Böyük Adron Kollayderində tətbiq olunan selvari mikrokanallı fotodiod, yeni effektiv işıq mənbələri, heterodin tipli akustooptik ləngitmə xətti əsasında aktiv imitasiya maneəsinin formalaşdırılması üçün qurğu, fazamodullaşmış əksetmə ellipsometriya üsulu ilə aşağı simmetriyalı bərk cisimlərin optik parametrlərini ölçmək üçün təkmilləşdirilmiş metodologiya, nanostrukturlu CdSO optik pəncərə və alınan nazik təbəqələr əsasında aşağı mayadəyərli ultra-nazik günəş elementlərinin yaradılma texnologiyası, müxtəlif təyinatlı varistorlar, nanoməsaməli silisium əsasında yüksək effektivli günəş elementləri, hidrogen enerjisini elektrikə çevirən hidrogen elementləri, işçi temperaturunun, rütubətinin və günəş enerjisinin intensivliyinin fasiləsiz monitorinqini aparan və alınan nəticələri yaddaş kartına Data Loqqer, rəqəmsal kompüter ölçü cihazı, terahers lazer çeviricisi, ifrak yüksək tezlik modulyatoru, elektron texnikasının müxtəlif sahələri üçün yüksək effektivli yarımkeçirici funksional materiallar və strukturlar, yeni sinif pyezoelektriklər və s. işlənib hazırlanmış, sınaqdan keçirilmiş və tətbiq olunmuşdur.

Akademik N.Məmmədovun topoloji izolyatorların alınması və tədqiqi üzrə işləri yüksək qiymətləndirilərək ona institutun üç nəfər əməkdaşı ilə birgə 2020-ci ildə "Materiyanın yeni kvant halı – antiferromaqnit topoloji izolyator: dizayn, əsas elektron xassələri və tətbiq perspektivləri" mövzusunda məqalələr toplusuna görə Respublika Dövlət mükafatı verilmişdir. Eləcə də N.T.Məmmədovun birgə həmmüəllifliyi ilə məşhur "Nature" jurnalında dərc olunan "Antiferromaqnit topoloji izolyatorların qabaqcadan xəbər verilməsi və müşahidəsi" məqaləsi Pekin şəhərində keçirilən "Fundamental Elmlər Beynəlxalq Konqresdə kondensə olunmuş hal fizikası sahəsində son 5 ildə dərc olunan ən yaxşı beynəlxalq elmi məqalə dərəcəsinə layiq görülmüşdür.

Fizika İnstitutu respublikamızın müəssisə və təşkilatlarının, xüsusilə ali məktəblərinin elmlər doktoru və fəlsəfə doktoru kadrları ilə təminatında əvəzsiz rol oynayır. Ali məktəblərin əksərinin fizika sahəsində kafedraları başlıca olaraq Fizika İnstitutunun yetişdirmələri sayəsində formalaşıb. Bundan əlavə ali məktəblərin fizika istiqamətində fundamental tədqiqat işlərinin aparılmasının əsas təşkilatçıları və icraçıları yenə də Fizika İnstitutunun yetirmələridir. Elektron texnikası sənaye müəssisələrində çalışan rəhbər işçilərin, aparıcı mütəxəssislərin, energetika sahəsinin əsas mütəxəssislərinin də əksəriyyəti Fizika İnstitutunda hazırlanmış kadrlardır.

Hazırda Fizika institutunda 5 akademik, 3 müxbir üzv, 287 elmi işçi fəaliyyət göstərir. Onlardan 55-i elmlər doktoru, 130-u fəlsəfə doktorudur.

Son bir neçə ildə İnstitut əməkdaşları, təxminən, 9 milyon manat məbləğində xarici və respublika qrant layihələri yerinə yetirmişdir. Hər il əməkdaşların 200-dək elmi məqaləsi yüksək impakt-faktorlu xarici jurnallarda dərc olunmuşdur. İnstitutda 30-dan çox beynəlxalq konfrans keçirilmişdir.

Əməkdaşlarımız xarici ölkələrin qabaqcıl elmi mərkəzləri ilə sıx əlaqə saxlayır, beynəlxalq elmi konfranslarda dəvətli çıxışlar edirlər. Yarandığı ilk günlərdən institutda aparılan elmi-tədqiqat işlərinə xarici alimlər böyük maraq göstərir, fundamental monoqrafiyalarda və layihələrdə bu işlərdən geniş istifadə olunur, institut əməkdaşlarının elmi məqalələrinə minlərlə istinadlar verilir. Təsadüfi deyildir ki, dünyanın tanınmış akademik nəşriyyatlarından olan "Elsevier" Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu ilə birlikdə "SCOPUS Mükafatı Azərbaycan-2016"-nı Fizika İnstitutuna təqdim etmişdir.

Fizika İnstitutu "Thomson Reuters" şirkəti və Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmin inkişafına görə ən yüksək mükafatına – "Ən yaxşı tədqiqat institutu" ("Best Research") nominasiyasına layiq görülüb. İsveçrənin Cenevrə şəhərində yerləşən "ATLAS" kollaborasiyasında iştirak edən Fizika İnstitutunun tədqiqatçı qrupu ən çox istinad edilən məqalə - "Outstanding Scholarly Article" nominasiyası üzrə mükafatlandırılmışdır.

İnstitutda beynəlxalq aləmdə tanınan və qəbul edilən müxtəlif elmi məktəblər yaranmış və hazırda fəaliyyət göstərir. Respublikada fizika sahəsində "Fizika", AMEA "Xəbərlər"inin fizika-riyaziyyat, texnika elmləri, fizika və astronomiya seriyaları, "Energetikanın problemləri" jurnalları Fizika İnstitutunda nəşr edilir.

Azərbaycan alimlərinin müxtəlif dövrlərdə yazılmış bir sıra monoqrafiyaları xaricdə nəşr olunmuşdur. İnstitut əməkdaşları fizikanın müxtəlif problemlərinə həsr olunmuş xeyli sayda monoqrafiya və kitabların müəllifləridirlər.

Fizika sahəsində, əsasən, yarımkeçiricilər fizikası üzrə Bakıda bir sıra konfranslar keçirilmiş və keçirilməkdə davam edir. Bu beynəlxalq və respublika konfransları fizikanın aktual problemlərinə və fizika sahəsində dünyada tanınmış alimlərin yubileylərinə həsr olunur.

Bu sıradan yarımkeçiricilərdə zərbə ionlaşması və tunel effektlərinə həsr olunmuş ümumittifaq konfransı (1960); A3B5 və A3B6 yarımkeçiricilərinin fiziki xassələrinə dair ümumittifaq konfransı (1965); yüksək temperaturlarda maddələrin xassələrinə həsr olunmuş 3-cü beynəlxalq konfrans (1968); rekombinasiyalı şüalanma və yarımkeçirici işıq mənbələri üzrə beynəlxalq konfrans (1971); halkogenidlərin kimyası, fizikası və texniki tətbiqinə dair 5-ci beynəlxalq konfrans (1979); optoelektronika problemlərinə həsr olunmuş beynəlxalq konfrans (1989); mənfi müqavimətli cihazlar və onların əsasında inteqral sxemlərin yaradılması üzrə ümumittifaq konfransı (1991); Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 80 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfrans (2003); akademik H.Abdullayevin 85 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfrans (2003); AMEA-nın və Fizika İnstitutunun 60 illiyinə həsr olunmuş "Fizika 60" beynəlxalq konfransı; akademik Ç.Cuvarlının xatirəsinə həsr olunmuş 2002-ci ildən başlayaraq hər il keçirilən "Energetikanın texniki və fiziki problemləri" üzrə beynəlxalq konfrans; H.Əmirxanovun 100 illiyinə həsr olunmuş "Yarımkeçiricilərin fiziki problemləri və istilik fizikası" üzrə beynəlxalq konfrans (2007); Bakıda AMEA-nın Fizika İnstitutu, Türkiyənin Qazi və Aksaray Universitetləri tərəfindən təşkil olunmuş "Fizika-2010" beynəlxalq elmi konfransı (2010); akademik Həsən Abdullayevin 95 illik yubileyinə həsr olunmuş beynəlxalq konfrans (2013); İspaniyanın Bilbao şəhərində AMEA Fizika İnstitutunun akademik Çingiz Cuvarlının xatirəsinə həsr olunmuş "Energetikanın Texniki və Fiziki problemləri" üzrə TPE-2016 XII beynəlxalq konfransı (2016); AMEA-da akademik Həsən Abdullayevin 100 illik yubileyinə həsr olunmuş "Modern Trends in Condensed Matter Physics" (MTCMP-2018) mövzusunda beynəlxalq konfrans (2018); Lətif İmanovun 100 illik yubileyinə həsr olunmuş "Molekulyar spektroskopiya" mövzusunda beynəlxalq konfransın plenar iclası 2022) önəmli bir tarix təşkil edir. Belə konfransların keçirilməsi respublikada fizika elmində mühüm əhəmiyyət kəsb edən nəticələrin əldə olunduğunu nümayiş etdirir.

Elmi nailiyyətlərinə görə İnstitut əməkdaşlarından bir neçəsi respublikamızın yüksək dövlət mükafatı olan "Şöhrət" ordeni və "Tərəqqi" medalı, keçmiş SSRİ-nin yüksək təltifləri olmuş "Lenin", "Oktyabr inqilabı", "Qırmızı əmək bayrağı", "Şərəf nişanı" ordenlərinə və medallarına layiq görülmüşlər. Tədqiqatların nəticələrinə görə müxtəlif vaxtlarda institutun alimlərindən 31-i Azərbaycan Respublikasının Dövlət mükafatına, 2-ci SSRİ Dövlət mükafatına, 1-i ümumittifaq, 3-ü respublika Komsomol mükafatına, 4-ü SSRİ EA elmi cihazqayırma sahəsində Vavilov mükafatına, 2-si SSRİ EA Yabloçkov, biri isə D.İ.Mendeleyev mükafatına layiq görülmüşlər.

İnstitut əməkdaşlarından 7 nəfərinə Əməkdar elm xadimi adı verilmişdir.

Respublikamız və xalqımız üçün vacibliyi nəzərə alınaraq II Dünya savaşının ağır illərində yaradılmış, AMEA tərkibində çox sayda alim və mütəxəssisin fədakar əməyi, dövlətin qayğısı hesabına böyük inkişaf yolu keçmiş, elmi və elmi-texniki nailiyyətləri ilə dünyada tanınmış və qəbul edilmiş, fizika elminə böyük töhvələr vermiş, ölkəmizdə elmin, təhsilin, texnikanın inkişafında, yüksəkixtisaslı elmi kadrların hazırlanmasında əvəzsiz xidmətləri olmuş Fizika İnstitutunun bu il 80 illik yubileyi tamam olur.

Müstəil dövlətimizdə elmin, təhsilin, elmi-texniki tərəqqinin daha da yüksəldilməsi naminə Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunun fəaliyyətini uğurla davam etdirməsi, maddi-texniki bazanın daha da gücləndirilməsi və müasirləşdirilməsi, gənc kadrların yetişdirilməsinə hərtərəfli qayğı göstərilməsi sahəsində qarşıda məsul vəzifələr dayanır.

80 illik yubiley münasibətilə Fizika İnstitutunun kollektivinini səmimi təbrik edir, bu elm ocağına elmdə yeni-yeni zirvələri fəth etməyi, şöhrət və nüfuzunu daha da yüksəlməyi arzu edirik.

***Arif HƏŞİMOV,***
***AMEA-nın həqiqi üzvü,***
***Səlimə MEHDİYEVA,***
***AMEA-nın müxbir üzvü***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 98** **Bakı şəhəri, 3 aprel 2025-ci il**

**"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 22 oktyabr tarixli 56-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 13 dekabr tarixli 244 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 22 oktyabr tarixli 56-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 13 dekabr tarixli 244 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 1 oktyabr tarixli 527 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 2, maddə 229) ilə təsdiq edilmiş 4 nömrəli əlavə – "Azərbaycan Respublikasında kiçik həcmli gəmilərdən və onların dayanması üçün bazalardan (qurğulardan) istifadə Qaydaları"nın 11-ci hissəsinin 4-cü bəndindən ", zibil" sözü çıxarılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 19 oktyabr tarixli 179 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 10, maddə 910 (Cild I) ilə təsdiq edilmiş "Bakı Metropolitenindən istifadə Qaydaları"nın 5.1.18-ci yarımbəndində "vestibüllərini, keçidlərini və platformalarını, eskalatorları, yolları və vaqonların salonunu zibilləmək" sözləri "vestibüllərinə, keçidlərinə və platformalarına, habelə eskalatora və vaqonların salonuna tullantı atmaq" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 sentyabr tarixli 296 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1211 (Cild I); 2024, № 1, maddə 74, № 3, maddə 328, № 9, maddə 1056) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi sularında üzmə Qaydaları"nın 18.3.5-ci yarımbəndində "zibil" sözü "tullantı" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 16 dekabr tarixli 456 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1791 (Cild I) ilə təsdiq edilmiş "Dəmiryol nəqliyyatının yüksək təhlükəli zonalarında vətəndaşların olması, obyektlərin yerləşdirilməsi və işlərin aparılması Qaydaları"nın 2.8.29-cu yarımbəndində "zibil" sözü "tullantı" sözü ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 22 iyul tarixli 352 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 913) ilə təsdiq edilmiş "Dəmiryol nəqliyyatı ilə sərnişinlərin, baqajın və yük-baqajın daşınması Qaydaları"nın 3.31.8-ci yarımbəndində "zibil" sözü "tullantı" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 217** **Bakı şəhəri, 17 iyul 2025-ci il**

**"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 373 (Cild I); 2024, № 4, maddə 451, № 7, maddə 900, № 10, maddə 1169; 2025, № 2, maddə 182, № 4 (II kitab), maddə 412) 2-ci hissəsində "iyulun" sözü "oktyabrın" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 222** **Bakı şəhəri, 25 iyul 2025-ci il**

**"Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 102-VIIQD nömrəli Qanununun tətbiqi və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 dekabr tarixli 265 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 102-VIIQD nömrəli Qanununun tətbiqi və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 dekabr tarixli 265 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 sentyabr tarixli 141 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 9, maddə 917 (Cild I); 2024, № 9, maddə 1106) ilə təsdiq edilmiş "Dərman vasitələrinin humanitar məqsədlər üçün Azərbaycan Respublikasına idxalı Qaydası"nın 13-cü hissəsinin 2-ci abzasında "Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının" sözləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 355 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1089 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə daxil olan humanitar yüklərin qəbul edilməsi, uçotunun aparılması, təyinat yerinə çatdırılması, saxlanılması, mühafizəsi və bölgüsü Qaydaları"nın 2.4-2.6-cı bəndlərində "Komissiyanın" sözü "Azərbaycan Respublikası Nazirlər Kabinetinin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 223** **Bakı şəhəri, 28 iyul 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 yanvar tarixli 12 nömrəli Qərarı ilə təsdiq edilmiş "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 56 (Cild I); 2024, № 2, maddələr 209, 213, № 5 (II kitab), maddə 579, № 9, maddə 1106) ilə təsdiq edilmiş "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı"nın 2.3-cü bəndində aşağıdakı dəyişikliklər edilsin:

"a) fəhlələr:" abzası üzrə:

"qırma, daşıma, topaqələviləşdirmə sahələrində nəzarətçilər" sətri aşağıdakı redaksiyada verilsin:

| |
|---|
| qızıl otağının nəzarətçiləri və emal, qırma, daşıma, topaqələviləşdirmə sahələrində nəzarətçilər |

1.1.2. "əməliyyat bölməsində operatorlar" sətri çıxarılsın və "qırma, daşıma, topaqələviləşdirmə sahələrində operatorlar" sətri aşağıdakı redaksiyada verilsin:

| |
|---|
| qızıl otağının operatorları və emal, qırma, daşıma, topaqələviləşdirmə sahələrində operatorlar |

1.1.3. "metallurqlar" sətri çıxarılsın;

1.2. "b) rəhbərlər və mütəxəssislər:" abzasına "mühəndislər, o cümlədən elektrik mühəndisləri" sətrindən sonra aşağıdakı məzmunda yeni sətir əlavə edilsin:

| |
|---|
| metallurqlar |

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tarif-ixtisas sorğu kitabçalarının altı ay müddətində bu Qərara uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 224** **Bakı şəhəri, 28 iyul 2025-ci il**

**"Bir pəncərə" prinsipinə əməl edilməklə, ölkəyə idxal olunan texniki tənzimləmənin şamil olunduğu mallara nəzarətin təşkili məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi ilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi arasında qarşılıqlı fəaliyyətin tənzimlənməsi Qaydası"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3721 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023–2025-ci illər üçün Dövlət Proqramı"na dair Tədbirlər Planının 8.4.4-cü yarımbəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Bir pəncərə" prinsipinə əməl edilməklə, ölkəyə idxal olunan texniki tənzimləmənin şamil olunduğu mallara nəzarətin təşkili məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi ilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi arasında qarşılıqlı fəaliyyətin tənzimlənməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə tapşırılsın ki, texniki reqlamentlərin tələblərinə uyğunluğun qiymətləndirilməsini təsdiq edən uyğunluq sertifikatı, uyğunluq bəyannaməsi və tanınmış xarici mənşəli uyğunluq sənədləri barədə məlumatların daxil olduğu Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi tərəfindən aparılan Uyğunluq sertifikatlarının və uyğunluq bəyannamələrinin reyestrinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminə (VAİS) inteqrasiyasını və bununla əlaqədar məlumatların mütəmadi olaraq yenilənməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə tapşırılsın ki, ölkəyə idxal olunan texniki tənzimləmənin şamil olunduğu mallara dair müvafiq məlumatların daxil olduğu Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminin (VAİS) Uyğunluq sertifikatlarının və uyğunluq bəyannamələrinin reyestrinə inteqrasiyasını, ötürülməsini və bununla əlaqədar məlumatların mütəmadi olaraq yenilənməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Vatikanla anlaşma yaradır



**İyulun 28-də Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyası arasında dinlərarası dialoq sahəsində anlaşma memorandumu imzalanıb.**

Memorandum tərəflər arasında dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi, qarşılıqlı anlaşma və tolerantlığın gücləndirilməsi məqsədilə təcrübə və məlumat mübadiləsini, həmçinin birgə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Sənəddə, həmçinin dini təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsi əks olunub.

Anlaşma memorandumunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov və Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyasının prefekti kardinal Corc Ceykob Kuvakad imzalayıblar.

Ramin Məmmədov memorandumun dinlərarası harmoniya və mədəni müxtəlifliyin təşviqinə mühüm töhfələr verəcəyinə, bu dəyərlərin tanıdılmasında əhəmiyyətli rol oynayacağına əminliyini ifadə edib. Corc Ceykob Kuvakad Azərbaycanla Vatikan arasında yüksəksəviyyəli əməkdaşlıqdan məmnunluğunu bildirib, bu sənədi 2011-ci ildə "Azərbaycan Respublikası və Müqəddəs Taxt-Tac arasında Katolik Kilsəsinin Azərbaycan Respublikasında hüquqi statusu haqqında" imzalanan sazişlə möhkəmlənmiş əlaqələrin uğurlu nəticəsi kimi dəyərləndirib.

# MEDİA-nın sosial şəbəkə xəbərdarlığı




**Bəzi sosial şəbəkə hesablarında Azərbaycan Respublikasının bir sıra dövlət xadimləri adından "deep fake" texnologiyası ilə hazırlanmış, reallığı əks etdirməyən açıqlamalar yayılıb.**

Bu barədə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin açıqlamasında bildirilib.

"Qeyd edirik ki, müəyyən dairələr tərəfindən süni intellektin köməyi ilə hazırlanan və informasiya mühitində yayılan silsilə xarakterli saxta videogörüntülər ictimai rəyi çaşdırmağa yönələn kobud manipulyasiya nümunəsidir. Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi informasiyaya inanmağa, dövlətin rəsmi mövqeyini ifadə edən məlumatları ölkənin informasiya agentlikləri və digər peşəkar media subyektlərindən əldə etməyə çağırırıq. Azərbaycan vətəndaşlarını, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların, "deep fake" texnologiyaları ilə məzmunyaratma tendensiyasının vüsət aldığı bir şəraitdə sayıq olmağa səsləyirik", - deyə açıqlamada vurğulanıb.

***XQ***

# Xocalıya daha 17 ailə qayıtdı

**Dünən növbəti köç karvanı ilə Xocalı rayonunun Ballıca kəndinə çatan ailələrə mənzillərin açarları təqdim olunub.**



Mərasimdə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Bu mərhələdə Ballıcaya 17 ailə - 62 nəfər köçürülüb. Xocalıya köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Artıq Xocalı şəhərində, Ballıca, Təzəbinə və Xanyurdu kəndlərində 327 ailə - 1433 nəfər yaşayır.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda oraya köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, həmçinin təhsil alan ümumilikdə 50 mindən çox insan yaşayır.

*Turizm mövsümü*

# Gəlməli, gəzməli, görməli...

**Hazırda ölkəmizdə turizm mövsümünün ən qızğın vaxtıdır. Hər yerdə olduğu kimi, Azərbaycanda da texnologiyanın inkişafı, viza prosedurlarının rəqəmsallaşdırılması, istirahətin qeyri-adi formalarının yaranmasını şərtləndirib. Bəs, bu gün turizm "kaleydoskop"u necə görünür? Səyahət həvəskarlarını hansı yeniliklər cəlb edir?**



İlk növbədə fərəhlə bildirək ki, ötən il COP29 kimi çox böyük beynəlxalq tədbirin Bakıda keçirilməsi Azərbaycanın turizmini də dünyada tanıtdı. 2025-ci il isə işğaldan azad olunmuş ərazilərimizdə turizm potensialını daha da genişləndirmək üçün ciddi addımların atıldığı ildir. Paytaxtımızla bərabər, azad Qarabağ çoxsaylı beynəlxalq tədbirlər keçirilib ki, bu da həmin regionlarımızın da tanıdılmasında birbaşa rol oynayıb.

Azərbaycanın turizm potensiallı dilbər guşələri az deyil. İlk növbədə Bakı, Naxçıvan, Gəncə, Qarabağ, Qəbələ, Lənkəran–Astara, Quba–Qusar yada düşür. Paytaxtın İçərişəhəri, Qız qalası, Dənizkənarı Milli Parkı, Qobustan, "Atəşgah" məbədgahı, Yanardağ, Naxçıvanın Xan Sarayı, Duzdağı və Əshabi-Kəhfi, Gəmiqaya rəsmləri, Möminə xatun türbəsi, Batabat, Gəncə şəhərindəki Şah Abbas məscidi, məqbərələr, Göygöl, Maralgöl, Naftalan... Şəki Xan Sarayı, Lənkəran İstisuyu, Hirkan Parkı, uzunömürlülər diyarı Lerik, yurdumuza gələn qədim karvan yolları, İsmayıllıda Lahıc, Qəbələdə Nic, Qubada Xınalıq kəndləri, Qusarda Bazardüzü zirvəsi... saymaqla bitən deyil.

Ulu öndər Heydər Əliyev 27 iyul 1999-cu ildə "Turizm haqqında" Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi haqqında" fərman imzaladıqdan sonra bütün bu yerlərin kütləvi turizm məkanlarına çevrilməsi dinamik bir prosesə çevrilib. Prezident İlham Əliyevin 2022-ci il 18 fevral tarixində zamanın çağırışlarına uyğun olaraq imzaladığı daha təkmil qanun, eləcə də ötən il Dövlət Turizm Agentliyinin tabeliyində Turizm və Rekreasiya Zonalarının İdarə Edilməsi və İnkişafı Mərkəzinin yaradılması haqqında verilən fərman sayəsində bu sahəyə diqqət daha da güclənib.

Təkcə ötən il Azərbaycana 196 ölkədən 2 milyon 626,7 min əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib, bu göstərici əvvəlki illə müqayisədə 25,9 faiz artıb. Azərbaycandakı hotellər 1 milyon 354 min əcnəbi qəbul edib. "Premium" və "elit" turizmin əlavə bir komponenti sayılan əyləncə və oyun turizmi də bölgələrə xarici qonaqların axınını artırıb. Dinamika bu il daha da yüksəlib. Türkiyə, Rusiya, Hindistan, Avropa və ərəb ölkələri, MDB, o cümlədən Orta Asiya respublikaları, Çin, Cənubi Koreyadan olan müsafirlərin sayı daha çoxdur. Buna bir səbəb də Azərbaycanın turizm imkanlarının xaricdə silsilə tədbirlərlə tanıdılmasıdır.

Təbliğat və təşviqat turizm bazarını canlandıran mühüm vasitədir. Bugünlərdə Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə Qazaxıstan və Özbəkistanın aparıcı turizm şirkətlərinin nümayəndələri üçün ölkəmizə tanışlıq səfəri təşkil edilib. Səfər çərçivəsində yerli turizm şirkətləri və hotellərdən 60-dan çox nümayəndənin iştirak etdiyi B2B (biznesdən-biznesə) formatında görüşlər keçirilib. Həmçinin səfər müddətində Qazaxıstan və Özbəkistandan olan turizm şirkətlərinin nümayəndələri Bakının turistik məkanları ilə yanaşı, Şamaxı və Basqala səfər edərək turizm məhsulları, hotellər, mövcud turizm infrastrukturu və təqdim olunan xidmətlərlə, o cümlədən Xəzər sahilində çimərlik turizmi ilə tanış olublar. 2025-ci ilin I yarımilliyində qeyd olunan 2 ölkədən Azərbaycana 68 mindən çox xarici ziyarətçi səfər edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 15 faiz artım deməkdir. Hazırda Qazaxıstanın 4, Özbəkistanın isə 2 şəhərindən olmaqla birbaşa uçuşlar həyata keçirilir.

Mütəxəssislərin qənaətincə, Azərbaycan turizmini inkişaf etdirmək üçün hər cür şərait var. Ekspert Rəhman Quliyev hələ ilin əvvəlində jurnalistlərə müsahibəsində bu barədə deyib: "Bizim bölgələrimiz bütün fəsillərdə turist qəbul etmək üçün böyük potensiala sahibdir. Bölgə turizmininin inkişafı üçün yeni konsept sürətlə həyata keçirilir, Burada ilkin şərt odur ki, otellər gündə 3 dəfə qidalanma sisteminə keçiblər. Dünya təcrübəsinə baxdıqda görürük ki, bu addım turist axınına ciddi təsir edir. Hansı ölkələrin otellərində bu konsept istifadə olunursa, turistlər bütün fəsillərdə həmin istiqamətlərdə səyahət edirlər. Yəni bu, daxili turizmi artırmaqla yanaşı, əcnəbi turistlərin də böyük marağına səbəb olur".

Cənub bölgəsində müşahidəçisi olduğumuz vəziyyət də bunu təsdiqləyir. Masallıdakı "Fatimeyi-Zəhra" İstisu sanatoriyasında, Lerikdəki "Təbəssüm" istirahət mərkəzində, Təbiət qoynuna təşkil olunan 1, 2 və 3 günlük turlar da bu baxımdan qonaqların rahatlığı üçün əvəzsiz imkanlar yaradır.

**Sumqayıt sakini Vahid Süleymanovun təəssüratı:**

– Cənub bölgəsində 1 həftəlik istirahətdən srağagün qayıtmışam. Əvvəlcə Masallı və Yardımlıda təbiətin qoynunda dostlarla ürəyimizcə dincəldik. Sonra Xəzərsahili zonada – Lənkəran və Astarada olduq. Doğrudan da, fərəhləndik. İlk növbədə buraların cənnət guşələri göz-könül sevindirir. İkincisi, hotellərdə, kənar iaşə obyektlərində olan xidmət mədəniyyəti xeyli yüksəlib. Düzdür, qiymətlər bir qədər qalxıb, amma xidmətin səviyyəsi qaneedicidir. Deyə bilərəm ki, ən çox bəyəndiyim Lənkərandakı "Spring Hotel" bu regionun vizit kartlarından biri, sağlamlıq, rahatlıq və qonaqpərvərliyin ideal sintezidir. Ən əsası, burada xidmət seçimi imkanı var. Otel həm yerli, həm də xarici turistlərə yüksək səviyyəli xidmət və unudulmaz istirahət təcrübəsi sərgiləyir.

Onu da deyək ki, xarici qonaqlar Azərbaycan təamlarını da "bəh-bəh"lə həzm edir, ağızdolusu tərifləyirlər. Yerli mətbəxin dadını çıxarmaq üçün hər bölgənin özünəməxsus yeməkləri löyün-löyün, çeşid-çeşiddir. Məsələn, Qubanın kətəsi, Şəkinin pitisi, paxlavası və Lənkəranın ləvəngisi, Abşeronda Coratın qutabı yetərincə məşhurdur. "Əsl həzz bizimlə birgə" şüarlı turlar əsl nümunədir.

Bəli, Azərbaycanın əksər bölgələri təkrarolunmaz gözəlliklərə malikdir. Şimalın dağ mənzərələrindən cənubun subtropik iqliminə, qərbin tarixi irsindən şərqin vulkanlarına qədər hər kəs üçün maraqlı məkanlar var. Turizm obyektlərinin və xidmətlərinin coğrafiyasının genişlənməsi, keyfiyyətcə yeni mərhələyə daxil olması həm də yeni iş yerlərinin yaradılması ilə müşayiət olunur. Bütün bunlar son nəticədə Azərbaycanın daha yaxından tanıdılması, xalqımızın qonaqpərvərliyinin, sülhpərvərliyinin dünyada təşviqi baxımından böyük önəm daşıyır.

***Əli NƏCƏFXANLI***
***XQ***

*Qəbələ Beynəlxalq Musiqi Festivalı*

**Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı, Mədəniyyət Nazirliyi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası və "Gilan"ın dəstəyi ilə keçirilən 14-cü Qəbələ Beynəlxalq Musiqi Festivalı uğurla sona yetməkdədir. Bir neçə gündür ki, burada çeşidli proqramlarla əsl musiqi bayramı fərəhi yaşanır.**

# Dağlarda əks-səda verən musiqilər

Böyük musiqi xadimi, dahi bəstəkar Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr edilmiş festivalda dünyanın bir çox məşhur musiqiçiləri iştirak edirlər. Üzeyir Beynəlxalq Musiqi Festivalı keçirilir. Mən özüm bu festivalın daimi iştirakçılarındanam. Ənənəvi olaraq keçirilən Beynəlxalq Musiqi Festivalı Azərbaycanın musiqi



bəyin ölməz musiqilərinin də səslənməsi onun ruhunu şad edir. Elə şənbə günü təşkil olunan konsert bu baxımdan əsl nümunə olub.

Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində iyulun 27-də Heydər Əliyev Konqres Mərkəzində musiqisevərlərə təqdim edilən kamera musiqisi axşamı hər kəsə unudulmaz təsir bağışlayıb. Xalq artistləri Ülviyyə Hacıbəyova (piano) və Gülnaz İsmayılova (soprano) tamaşaçılar qarşısında maraqlı proqramla çıxış ediblər. Konsertdə Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından Gülçöhrənin ariyası, "Koroğlu" operasından Nigarın ariyası, "Uvertüra", eləcə də digər bəstəkarların əsərləri səsləndirilib və alqışlarla qarşılanıb.

Həmin axşam "Qafqaz Resort" otelindəki açıq səhnə isə Gürcüstandan gəlmiş musiqi qrupunun –"Tbilisi Big Band" ixtiyarına verilib. Ünlü kollektivin caz, ritm və enerji dolu əsrarəngiz çıxışı musiqisevərlərin ürəyincə olub. Qeyd edək ki, bu musiqi qrupu Qəbələ festivalında artıq 3-cü dəfədir iştirak edir. Professional musiqiçilər bir orkestr olaraq, estrada ifaçılığı, xüsusilə də gürcü caz ənənələrinə sadiq qalması ilə sevilir. Hazırda qrupun repertuarında müxtəlif janrları əhatə edən yüzlərlə əsər var. Buraya gürcü və xarici müəlliflərin vokal və instrumental kompozisiyaları daxildir.

Qeyd edək ki, festivalın iştirakçıları onun təşkilindən və əhatə dairəsindən razılıqlarını bildiriblər. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən XIV Qəbələ Beynəlxalq Musiqi Festivalının iştirakçısı, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti Gülnaz İsmayılova deyib: "Qəbələ şəhərində, doğma diyarımızda artıq 14-cü dəfədir ki, həyatında əlamətdar hadisəyə çevrilib. Qəbələ festivalı musiqimizin dünyada tanıdılması və təbliği baxımından mühüm əhəmiyyətə malikdir. Proqram yenə də rəngarəngdir, burada bütün musiqi janrları əhatə olunur. Festivalın yüksək səviyyədə təşkilinə görə Heydər Əliyev Fonduna, təşkilatçılara təşəkkürümü bildirirəm".

Bu fikirləri isə jurnalistlərlə festivalın digər bir iştirakçısı – "Xarıbülbül" muğam qrupunun rəhbəri, Əməkdar artist, tarzən Əliağa Sədiyev bölüşüb: "Bu, klassik musiqi festivalı olsa da, hər zaman xalq musiqisinə də yer verilir, konsertlər olur. Qəbələ festivalının proqramında ənənəvi olaraq bir konsert muğam gecəsi üçün ayrılır. Ancaq builki festivalda muğam axşamı bir qədər fərqli tərzdə təqdim olunur. Bu gün Xalq artisti, görkəmli xanəndə Nəzakət Teymurovanın, Əməkdar artist Fuad İbrahimovun bədii rəhbəri və baş dirijoru olduğu Bakı Dövlət Kamera Orkestrinin və rəhbərlik etdiyim "Xarıbülbül" muğam qrupunun iştirakı ilə festival iştirakçıları qarşısında geniş və rəngarəng konsert proqramı ilə çıxış etdik. Proqramda muğam, xalq mahnıları, təsnif, rəng, rəqs, bir sözlə, Azərbaycan xalq musiqisinin bütün inciləri öz əksini tapdı. Bu festivalda iştirak etdiyimiz üçün çox sevincli və məmnunuq".

Təbiətin əsrarəngiz qoynunda – Qəbələdə klassik və müasir musiqilər hər kəsə valehedici, unudulmaz axşamlar bəxş edir. Gözəl ənənəyə çevrilən Qəbələ Musiqi Festivalı bu gün sona yetəcək və xoş xatirəyə dönəcək.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

**Qəbələ**

*Yeni kitablar*

# Turanın dünənindən gələn səslər

**Tanınmış yazıçı-dramaturq, publisist Elçin Hüseynbəylinin "Gültəkin xaqan" tarixi romanı işıq üzü görüb. Əsər V–VIII əsr Göytürk İmperiyasının tarixindən və onun ən böyük sərkərdəsi sayılan Gültəkinin döyüşlərindən bəhs edir.**




Çağdaş Azərbaycan ədəbiyyatında milli kimlik və tarixi yaddaş mövzusunu önə çəkən mühüm əsərlərdən biri kimi, "Gültəkin xaqan" həm tarixi faktlara əsaslanır, həm də mifoloji elementlər və simvolik strukturlarla zənginləşdirilib. Müəllifin məqsədi yalnız keçmişi canlandırmaq deyil, həm də bugünkü milli özünüdərk problemlərinə işıq salmaqdır. Göytürk dövrünün reallıqları – dövlət quruculuğu, qəbilə münasibətləri, xaqanlıq mübarizələri bədii təsvirlər və simvolik səhnələrlə yadda qalır.

Yeri gəlmişkən, əsərdə simvollar çoxqatlı məna daşıyır. Bozqurd türk kimliyinin təməl simvoludur və əsərdə o, xalqın yönünün, dirənişinin və azadlıq istəyinin təcəssümüdür. Dağlar əbədilik, güc və müqəddəslikdir. Qadın obrazları ana, həyat yoldaşı, torpaq və mədəniyyətin təcəssümüdür. Xüsusilə ana obrazı əsərdə torpaqla eyniləşdirilir: qoruyur, bəsləyir, amma həm də qurban verilir. Bu simvolik struktur, romanın fəlsəfi təbəqəsini genişləndirir və oxucunun dərin düşüncələrə dalmasına zəmin yaradır.

Elçin Hüseynbəyli öz dil üslubunda həm klassik dastan ənənələrindən, həm də müasir roman texnikasından istifadə edib. Əsərin dili çoxqatlıdır: sadə təsvirlərlə yanaşı, fəlsəfi fikir yüklü cümlələr, poetik təsvirlər, üstünün "toz"u silinən arxaik sözlər və ritmik struktur da bu sintezin bir hissəsidir. Beləliklə, roman yalnız məzmun baxımından deyil, dil baxımından da milli ədəbiyyatın bədii imkanlarını layiqincə nümayiş etdirir.

Qeyd edək ki, roman hələ kitab halında çıxmazdan əvvəl müəyyən parçaları mətbuatda dərc olunub və əsər haqqında təsəvvür formalaşdırıb. Xüsusilə də qəzetdən oxuduğumuz süjet – Gültəkinin xalqa xaqan kimi təqdimatı səhnəsi yaddaqalandır. Burada Bilgə xaqanın müraciəti xarakterikdir:

"Biz indi böyük sınaq qarşısındayıq. Atam İltəriş xaqan, əmim Qapağan xaqanın vəsiyyətini yerinə yetirməliyik. Yəcuc-məcuclar (xitaylar, çinlilər) onlara boyun əyən öz bəylərimiz sayəsində əmim Qapağan xaqanı pusquya salıb öldürdülər və damğamızı, bayrağımızı özlərilə apardılar... Onu geri almaq üçün qarşımızda bir yol var. Onu da dedim: bütün türk boylarını bir araya gətirmək, sonra damğamızın arxasınca getmək... Həmin gün yetişdi. Mən bu işi qardaşım Gültəkin xana tapşırıram. İndən sonra mən yalnız dövlət və törə işlərilə məşğul olacam. Qoy, bütün orduya o başçılıq eləsin...

Bilgə xaqan qardaşının alnından öpdü və dedi:

– İşin avand, yolun açıq olsun! Budunumuza layiq oğul və təkinsən (sərkərdəsən)! Göy Tanrı yardımçın olsun!

Gültəkin bağır basdı və dedi:

– Başımızın üstündə Göy Tanrı, ayağımızın altında ana torpaq, bizə kim bata bilər ki!?

Bu sözlərdən sonra o, qardaşının qarşısında baş əydi və əlindən öpmək istədi, amma Bilgə xaqan buna izn vermədi".

"Gültəkin xaqan"da bu kimi təsirli səhnələr yetərli qədərdir. Roman bütöv halda oxunduqca bu qənaət daha da güclənir. Kitab təkcə bir tarixi dövrün bədii inikası deyil, həm də xalqın mənəvi dirçəliş çağırışıdır. Oxucunu yalnız tarixi öyrənməyə deyil, həm də onu yaşamağa və gələcəyə daşımağa səsləyir. Bu baxımdan roman milli ədəbiyyatımızın dəyərli nümunələrindən biri olaraq gələcək nəsillərə milli kimlik və şüur mirası buraxır.

Yeni kitabı Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu oxuculara ərməğan edib. Redaktorlları Fərid Hüseyn və Dürdanə İbrahimova-Hüseynbəyli, rəssamı Serhran Allahverdidir.

***Ə.DOSTƏLİ***
***XQ***

# Kaşqari Fondunun dostluq körpüsü



**Mahmud Kaşqari adına Beynəlxalq Fondun təşkilatçılığı ilə "Azərbaycan–Özbəkistan ədəbi-mədəni əlaqələri" mövzusunda dəyirmi masa keçirilib.**

Görüşü tarix üzrə fəlsəfə doktoru Lətifə Məmmədova açaraq Azərbaycanla Özbəkistan arasında qədim tarixə və böyük ənənələrə malik olan elmi-mədəni əlaqələrdən danışıb. O bildirib ki, əlaqələrin daha da inkişaf etdirilməsi və hər iki ölkənin elmi qurumları arasında müştərək tədqiqatların aparılmasını təmin etmək məqsədilə qarşılıqlı əməkdaşlıq mühüm əhəmiyyət daşıyır və bu istiqamətdə Mahmud Kaşqari adına Beynəlxalq Fondun gördüyü işlər təqdirəlayiqdir.

Fondun prezidenti, Milli Məclisin deputatı Cavanşir Feyziyev çıxışında vurğulayıb ki, hazırda bütün türk dövlətlərinin xarici siyasətində aparıcı istiqamətə çevrilməkdə olan türkçülük ideologiyası dövlət siyasəti statusu qazanmaqdadır. "Bu elmi müzakirənin proqramından və nəşr etdiyimiz elmi araşdırmalar toplusuna təqdim edilmiş məqalələrin siyahısından da bəlli olur ki, bütün türk ölkələrinin elmi-ədəbi dairələrində ümumtürk birliyi ideyasına xüsusi məhəbbətlə yanaşılır. İnanırıq ki, təməlində elmin, ədəbiyyatın, mədəniyyətin dayandığı bu əlaqələr türk dövlətləri arasında birlik və bərabərliyin daha da möhkəmlənməsinə xidmət edəcək".

Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov bildirib ki, türkdilli xalqları birləşdirən ortaq mədəni irs və ortaq tarix dövlətlərimiz arasındakı münasibətlərdə daim öz müsbət təsirini göstərir. Özbəkistanda olduğu kimi, qardaş və dost Azərbaycanın eyni kökə, ortaq milli-mənəvi dəyərlərə bağlı olduğu digər Türk dövlətləri ilə çox uğurlu mədəni-elmi-ədəbi əməkdaşlıq əlaqələri var və bu əlaqələr hər gün daha da genişlənir.

Özbəkistan Yazıçılar Birliyinin sədr müavini Qeyrət Majid, Nizami Gəncəvi adına Özbəkistan Dövlət Pedaqoji Universitetinin professoru Dilarom Adilova, Əlişir Nəvai adına Daşkənd Dövlət Universitetinin professoru Gulbahor Ashurova, yazıçı-dramaturq Qoşqar Narkabil çıxışlarında qarşılıqlı elmi mübadilələri reallaşdıran Kaşqari Fondunun rəhbərliyinə ehtiramlarını bildirib, ev sahibliyinə, doğma və səmimi münasibətə, göstərilən diqqətə görə təşəkkür ediblər.

***XQ***

*QHT layihələri*

# Uşaqların kövrək dünyası



**“Kimsəsiz Uşaqların Sosial Müdafiəsi” İctimai Birliyi 2017-ci ildən etibarən fəaliyyət göstərən, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqların sosial-psixoloji müdafiəsi ilə məşğul olan qeyri-hökumət təşkilatıdır.**

Birliyin əsas məqsədi uşaqların rifahına, hüquqlarının təmin olunmasına, təhsil və tərbiyələrinin keyfiyyətli təşkilinə, həmçinin psixoloji və emosional baxımdan sağlam fərdlər kimi yetişmələrinə şərait yaratmaqdır. İctimai birlik 2025-ci ildə “Sənət və duyğu harmoniyasının təbliği” adlı layihəni həyata keçirir. Layihənin icrası iyulun sonunda bitir. “Kimsəsiz Uşaqların Sosial Müdafiəsi” İctimai Birliyinin sədri, layihə rəhbəri Lamiyə İsazadə ilə görülən işlərlə bağlı söhbət etmişik.

**– Lamiyə xanım, uşaqlarla işləmək çətindirmi? Onların daxili dünyasını duymaq, hər birinə yardımçı olmaq istəyi necə hissdir?**

– Uşaqlar yalnız böyüməyə yox, hiss etməyə də möhtacdılar. Onların duyğularını ifadə etməyə imkanı olduqda, həyatla bağları daha güclü, gələcəyə ümidləri daha möhkəm olur. Məhz bu fəlsəfədən çıxış edərək, “Kimsəsiz Uşaqların Sosial Müdafiəsi” İctimai Birliyi olaraq 2025-ci ilin may–iyul aylarında Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə “Sənət və duyğu harmoniyasının təbliği” adlı sosial layihənin icrasına başlayıb.

Layihənin məqsədi valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 8 uşağın psixoloji vəziyyətinin yaxşılaşdırılması, onların emosional tənzimlənməsi və özünüifadə bacarıqlarının inkişaf etdirilməsidir. Rəsm və incəsənət yönümlü art-terapiya vasitəsilə uşaqların daxili dünyasını ifadə etmələrinə şərait yaratmaq, sosiallaşma bacarıqlarının dəstəklənməsi və gələcəyə ümidli yanaşmalarını gücləndirmək də layihənin məqsədlərindəndir.

**– Keçirilən art-terapiya seansları hansı mövzuları əhatə edir?**

– Mövzuları bir məqsəd birləşdirsə də, işlənmə sahəsinə görə fərqli idi. Terapiyanı 9 seansla həyata keçirdik. Təsviri sənət haqqında uşaqlara ümumi məlumat verildi. Rənglərin uşaq psixikasına təsirindən söhbət açıldı. Boyama ilə art-terapiyanın təsirini izlədik. Uşaqların xarakterik xüsusiyyətlərinin rəsm analizini müəyyənləşdirdik. Və sair mövzularda zəruri işlər görüldü.




**– Layihənin əhatə dairəsi və icra mexanizmi barədə danışardınız...**

– Layihə Gəncə şəhərində yerləşən Sosial Xidmətlər Agentliyinin 4 saylı Uşaq Evi Sosial Xidmət Müəssisəsi ilə əməkdaşlıq çərçivəsində həyata keçirilib. Tədbir maydan iyul ayınadək davam edib və 7–17 yaş arası 8 uşaq art-terapiya və rəsm dərslərinə cəlb olunub.

Layihənin icra edərkən, əvvəla, ixtisaslaşmış psixoloq və rəssam-pedaqoqun iştirakı ilə həftədə 3 dəfə seanslar keçirdik. Bundan başqa, rənglər vasitəsilə duyğuların ifadəsini (rəng terapiyası) göstərmək məqsədilə toplandıq. Eyni zamanda, qrup şəklində emosional paylaşım seansları həyata keçirdik.

**– Uşaqlarda hansı yeni keyfiyyətlər aşkarladınız?**

– Artıq layihə yekunlaşmaq üzrədir. Aparılmış psixoloji müşahidə və monitorinqlər göstərdi ki, uşaqlarda özgüvən hissi artmış, öz fikirlərini daha aydın ifadə etmək və əvvəlkindən daha fəal olmağa başlamışlar. Eyni zamanda qrupdaxili ünsiyyətlərdə çəkingənlik və izolyasiya halları azalmış, dostluq münasibətləri formalaşmışdır.

Seanslar zamanı qeyd olundu ki, valideynsiz böyüyən uşaqlar üçün emosional travmaların sağaldılması təkcə fərdi deyil, ictimai məsələdir. Bu cür layihələr bir tərəfdən uşaqların psixoloji sağlamlığına yönəlsə də, digər tərəfdən onların cəmiyyətə inteqrasiyası, ailə modelinə yaxınlaşması və həyat keyfiyyətinin yüksəldilməsi üçün davamlı əsaslar yaradır.

Art-terapiya kimi müasir və humanist yanaşmalar psixoloji müdafiənin sadəcə tibbi və məsləhət yönümlü deyil, həm də bədii və kreativ yollarla həyata keçirilə biləcəyini sübut edir.

**– Əldə etdiyiniz nəticələr sizi qane edirmi?**

– Bu layihəni icra edərkən bir daha əmin olduq ki, apardığımız seanslar uşaqların daxili dünyasını dinləmək üçün bir terapiya oldu. Layihədə rənglər və fırçalar vasitəsilə uşaqlara özlərini ifadə etmək, duyğularını paylaşmaq imkanı verildi. Bu proses həm terapevtik, həm də sosial baxımdan müalicəvi gücə malikdir.

Layihə çərçivəsində keçirilən seanslarda uşaqlar yalnız rəsm çəkmədilər, onlar özlərini kəşf etdilər, hisslərini tanıdılar və başqaları ilə paylaşmağı öyrəndilər. Hər bir çəkilən şəkil, əslində, bir məktub idi, cəmiyyətə, böyüklərə, gələcəyə ünvanlanan bir çağırış idi: “Məni görün, məni eşidin!”

Kimsəsiz və valideyn qayğısından məhrum uşaqlar çox zaman səs-soraqsız, amma içlərində zəngin bir duyğu palitrası ilə böyüyürlər. Onlara rəssam deyilir, amma onlar əslində hisslərini fırça ilə danışdıran qəhrəmanlardır. Onların çəkdiyi hər fiqur, hər rəng keçmişin izlərini və gələcək arzularını daşıyır. Bu layihə uşaqlar üçün sadəcə bir dərs deyil, bir az azadlıq, bir az şəfqət, bir az da şəfa idi.

Gələcəkdə bu balaca rəssamlar öz istedadlarını cəmiyyətə təqdim edəcək, bəlkə də yüzlərlə insanın hisslərinə toxunacaqlar. Eyni zamanda layihə, cəmiyyətə və aidiyyəti qurumlara bir mesaj verdi: uşaqları dinləmək üçün bəzən bir söz kifayət deyil, bəzən bir rəsm daha çox danışır.

“Sənət və duyğu harmoniyasının təbliği” layihəsi bir çağırış idi. Duyğularını sözlə deyil, rənglərlə izah edən uşaqların səsinə səs vermək çağırışı... Bu çağırış, cəmiyyətin diqqətini bu uşaqların iç dünyasına yönəltmək istəyən bir humanizm örnəyi oldu. ..

***Müsahibəni hazırladı:***
***Zərifə HÜSEYNOVA***
***XQ***

*Beynəlxalq həyat*

# ABŞ–Aİ tarif kompromisi



**(əvvəli 1-ci səhifədə)**

Qərb mətbuatı yazır ki, saziş, əslində, Vaşinqtonun irəli sürdüyü şərtlərlə imzalanıb. ABŞ tərəfindən verilən açıqlamalara görə, 15 faizlik tarif “ümumi” xarakter daşıyacaq və avtomobillər də daxil olmaqla, demək olar ki, bütün məhsullara şamil olunacaq (digər ölkələr üçün bu rəqəm 25 faizdir). Yalnız polad və alüminium üçün 10 faizlik mövcud tariflər qüvvədə qalacaq.

Avropa İttifaqı üçün xüsusilə avtomobil sənayesindəki ticarət axınının qorunub saxlanması həyati əhəmiyyət kəsb edir. Almaniya iqtisadiyyatının bərpası bu sahədəki ixrac potensialından asılıdır. Bu baxımdan, Aİ-nin əsas hədəfi məhz bu sahədə tariflərin azaldılması idi.

Əldə olunan razılaşmanın mühüm hissələrindən biri də enerji sektorunu əhatə edir. Prezident Trampın sözlərinə görə, Avropa ölkələri ABŞ-dan sıxılmış təbii qaz və nüvə yanacağı daxil olmaqla, təxminən 750 milyard dollarlıq enerji resursları idxal edəcək.

Ursula Fon der Lyayen isə bəyan edib ki, Avropa Komissiyası Rusiyadan alınan neft və qazın tamamilə ABŞ məhsulları ilə əvəzlənməsini planlaşdırır. Bu isə dolayısıyla ABŞ-ın Rusiya enerji sektoruna qarşı əlavə sanksiyalar tətbiq etməyə hazır olduğuna işarə kimi qəbul oluna bilər. Nəticədə, dünya bazarında neftin qiymətində artım riski də gündəmə gələ bilər.

Xatırladaq ki, apreldə cənab Tramp Aİ-yə qarşı 30 faizlik tarif tətbiq edəcəyi ilə hədələmişdi. Avqustun 1-də qüvvəyə minməsi planlaşdırılan bu tədbirə cavab olaraq Brüssel ABŞ-dan idxal olunan məhsulların üçdə birinə qarşı sərt qarşılıq paketi hazırlamışdı. Lakin yeni razılaşma bu təhdidlərin aradan qalxdığını göstərir. İyulun əvvəlindən Aİ iqtisadiyyatında canlanma əlamətləri müşahidə olunmağa başlamışdı. Bu şəraitdə ticarət müharibəsinin dərinləşməsi Avropa üçün arzuolunmaz nəticələrə gətirib çıxara bilərdi. ABŞ isə qarşı tərəfin güzəşt meyilliliyindən istifadə edərək sazişi öz şərtləri əsasında imzalamağa nail oldu.

Amma Almaniyada heç də hamı razılaşmadan o qədər də məmnun deyil. Belə ki, Almaniya Sənaye Federasiyası bəyan edib ki, yeni tariflər Atlantik okeanının hər iki tərəfində iqtisadiyyata “mənfi təsir” göstərəcək. Kimya sənayesi assosiasiyası isə tariflərin çox yüksək qaldığını bildirərək sazişi “ağrılı kompromis” adlandırıb. Almaniyanın IFO iqtisadi tədqiqat institutunun rəhbəri Klemens Fuest isə bu razılaşmanı “Aİ üçün alçaldıcı” adlandıraraq, onun güc balansındakı pozuntunu əks etdirdiyini deyib. Ancaq Almaniya kansleri Fridrix Merts razılaşmanı “eskalasiyanın qarşısını alan müsbət addım” kimi qiymətləndirib: “Əsas maraqlarımızı qoruya bildik. Lakin daha çox ticarət azadlığı görmək istərdim”. Almaniyanın maliyyə naziri Lars Klingbayl isə razılaşmanı “yaxşı ilk addım” adlandırıb və bunun alman iqtisadiyyatına və məşğulluğa təsirinin qiymətləndiriləcəyini bildirib.

Beləliklə, danışıqların nəticələrinə baxmayaraq, ekspertlər Avropa İttifaqının bu raundda qələbə qazandığını söyləməkdə ehtiyatlı davranırlar. Saziş daha çox ABŞ-ın maraqlarına xidmət edir və Tramp administrasiyasına həm daxili auditoriyaya iqtisadi uğur kimi təqdim etmək, həm də xarici ticarət siyasətində mövqeyini möhkəmləndirmək imkanı verir. Ən əsası, yeni tarif sazişi dünya ticarətində güc balansının dəyişməyə başladığını və ABŞ-ın iqtisadi rıçaqlardan daha fəal şəkildə istifadə etməyə qərarlı olduğunu göstərir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Yəməndə humanitar böhran



**Yaxın Şərqin səssiz harayı olan Yəmən, artıq onilliklərdir ki, qan içində boğulur. Bu ölkənin dağılmış şəhərləri, yerlə-yeksan məktəbləri, bomboş süfrələri və səssiz qalmış beşikləri bu günümüzün ən dərin insan dramlarından birinə şahidlik edir.**

Söhbət, sadəcə müharibədən getmir, bir xalqın göz görə-görə məhv edilməsindən, bir vətənin böyük güclərin oyun masasına çevrilməsindən gedir. Yəməndə 2014-cü ildə başlanan və bu günə qədər sönməyən vətəndaş müharibəsi rəsmi şəkildə daxili qarşıdurma adlansa da, gerçəkdə bu, bölgənin geosiyasi rəqiblərinin birbaşa müdaxilə etdiyi müasir kolonial müharibədir.

Məlum olan bir tərəfdən Yəməndə şiə məzhəbinə aid olan husilər silahlandırılır, digər tərəfdən isə sünni koalisiyası adı altında hava zərbələri endirilir, blokadalar yaradır. Ortada isə nə şiə qalır, nə sünni, yalnız aclıqdan gözləri bərəlmiş uşaq meyitləri, anaların fəryadı, dağılmış xəstəxanalar və viranə şəhərlər... Bura artıq bir poliqondur. Silahların sınaqdan keçirildiyi, qlobal geosiyasətin nəbzinin tutulduğu, insan həyatının isə heçə sayıldığı bir yer.

Yəməndə davam edən faciə, dini kimliklər üzərindən aparılan siyasətin necə böyük bir vəhşətə çevrilə biləcəyinin canlı sübutudur. Əsrlərdir bir arada yaşayan insanlar indi sırf hansı məzhəbdə olduqlarına görə bir-birini qırırlar, ya da buna zorla məcbur edilirlər. Məzhəbçiliyin siyasi məqsədlərin alətinə çevrildiyi bu coğrafiyada insan öz insanlığını itirir. Bu, dinin deyil, din adı altında yalanın və ikili standartların qələbəsidir.

Dünya isə Yəməni ya görmür, ya da görmək istəmir. BMT-nin sönük çağırışları, Qərbin selektiv insan haqları ritorikası bu dəhşətli səssizliyə haqq qazandıra bilməz. İnsanlıq Yəməndə bir dəfə yox, hər gün ölür. Bu ölümlərə susmaq, bu dağınıqlığa göz yummaq birbaşa iştirak qədər ağır günahdır. Yəmən, sadəcə, bir ərəb ölkəsi deyil, o, insanlığın birgə imtahanıdır.

Bu torpaq bizə yad deyil. Əsrlər əvvəl Osmanlı əsgərləri də bu torpaqlarda can veriblər. İmperiyanın uzaq sərhədlərində döyüşən türk əsgərlərinin xatirəsi hələ də Yəmən torpaqlarında dolaşır. Onların acı taleyini “Yəməndə hava isti” deyə başlayan o kədərli türkü nə qədər gözəl ifadə edir:

**Yəməndə hava isti**
**Gül açmır, bülbül ötməz**
**Şəhid olan əsgərlərə**
**Bir acı fatihə yetməz…**

Bu gün Yəmən təkcə Yaxın Şərqin deyil, bəşəriyyətin ümumi dərdidir. Bu dərdi unutmaq insanlığa və vicdana xəyanət etməkdir.

Qoy, Yəməndə gül açmasa da, bir gün ədalət çiçək açsın. Bu məzlum xalq öz evində, öz yurdunda yaşamağa layiqdir. Odur ki, dünya səssizliyini pozmalı, Yəmənə yalnız kənardan baxmamalı, onun əlindən tutmalıdır.

***Samir ƏSƏDLİ***

# Yaddaşdan güc alan qayıdış hərəkatı

## *Qərbi Azərbaycan irsinə Tovuzdan dəstək*





**Tovuzun Nizami adına Mədəniyyət Evindən bir səs ucaldı. Bu səs nə təkcə bir kitabın təqdimatı idi, nə də sadəcə elmi faktların sadalanması. Bu səs – itirilmiş yurda qayıdışın, pozulmuş ədalətin bərpası üçün çağırış idi. Bu dəfə səhnədə “Qərbi Azərbaycan irsi” kitabının I cildi danışırdı - susdurulmuş məzarların, yerlə-yeksan edilmiş məscidlərin, unudulmağa qoyulmayan yaddaşın dili ilə...**

Tədbir Ümummilli lider Heydər Əliyevin abidəsinin ziyarəti ilə başladı. Dövlət Himni səsləndi, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Bu sükutda həm yas vardı, həm də qürur; həm keçmişin acısı, həm də gələcəyin ümid işığı.

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov çıxışında qeyd etdi ki, bu kitab tarixin tozlu səhifələrinə yazılmaq üçün deyil, millət yaddaşında daş kimi həkk olunmaq üçündür. Bu nəşr sadəcə bir sənəd toplusu yox, milli kimliyimizin, haqq yolumuzun rəsmi sübutudur.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, Zəngibasar Rayon İcmasının sədri, fəlsəfə doktoru Mirfaiq Mirheydərli isə vurğuladı ki, kitabda yalnız adlar deyil, tarixlərin ruhu danışır. Hər toponim, hər demoqrafik qeyd, dağıdılmış hər abidə keçmişin izini gələcəyə daşıyan bir çağırışdır. Vandalizmə məruz qalmış qəbiristanlıqlar bu səhifələrdə diriləρək, gələcək nəsillərə vətən həsrətinin tarixini danışacaq.

YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov çıxışında bildirdi ki, bu kitab təkcə elmi deyil, həm də mənəvi silahdır. O, əllərindən alınmış yurdların, tapdanmış haqların səsini dünyaya çatdırır. Bu səs artıq Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətin siyasi prioritetinə çevrilib.

Və səhnəyə bir kövrək səs yüksəldi. Cəfərov Fərmayıl - Göyçənin Göysu kəndindən, qovulmuş yurdun sakini. Səsi yaşlı, lakin inamlı idi: “Biz qayıdacağıq. O torpaqlar bizim ata-baba yurdumuzdur. Prezidentimizin uğurlu siyasəti bu qayıdışın yolunu açır...”

Beləliklə, bu təqdimat təkcə bir kitabın yox, bir xalqın dirilən yaddaşının, ayağa qalxan tarixinin mərasiminə çevrildi. Bu kitab – daş altında qalan səsin azadlığa çıxmış halıdır və hər sətri bizə deyir: Yaddaş yaşadıqca, qayıdış mümkündür.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 155 (30849) 29 iyul 2025-ci il, çərşənbə axşamı

## İDMAN

## Daşkənddə 1 qızıl, 7 bürünc



**Azərbaycan idmançıları Özbəkistanın paytaxtı Daşkənddə keçirilən savat assault üzrə Dünya çempionatı və Dünya Kubokunda uğurla çıxış ediblər.**

Mundialda Ələkbər Xanməmmədov (60 kq) qızıl medal qazanıb. Yusif Xəlilzadə (48 kq), Ümid Zeynalov (52 kq), Məhəmməd Məmmədli (56 kq), Nicat Məhəmmədli (65 kq), Nihat Quliyev (70 kq), Əli Bəylərzadə (75 kq) və Məhəmməd Süleymanov (85 kq) bürünc medala sahib çıxıblar.

Dünya Kubokunda isə Raul Hüseynzadə (30 kq) qızıl, İbrahim İbrahimli (35 kq) və Beyrək Bağırov (85 kq) bürünc medal əldə ediblər.

## Türkiyədə 13 Avropa paralimpiya medalı



**Azərbaycan idmançıları Türkiyənin İstanbul şəhərində təşkil edilən Avropa Gənclər Paralimpiya Oyunlarını 13 medalla başa vurublar. Qeyd edək ki, 7-ci dəfə təşkil edilən yarışda debüt edən milli 7 idman növündə 4 qızıl, 2 gümüş və 7 bürünc medal qazanıb.**

Sabir Zeynalov (parataekvondo, K44, 58 kq), Amin Əliyev (parataekvondo, K44, 63 kq), Səmayə Həsənova (parataekvondo, K44, 47 kq) və Ayşə Arabova (paraatletika, uzunluğa tullanma, T11) qızıl, Orxan Cəfərov (parataekvondo, K44, 80 kq), Əli Vəliyev (paraüzgüçülük, 2009-2013-cü il təvəllüdlülər arasında, S10, 100 metr "butterfly" (kəpənək)) gümüş, Ayxan Nuruyev (parataekvondo, K44, 58 kq), Amin Şıxalıyev (parataekvondo, K44, 63 kq), İmran Bağırov (parataekvondo, K44, 70 kq), Ömər Qurbanov (paracüdo, J2, 62 kq), Hüseyn İsmayılzadə (paracüdo, K44, 70 kq) və Əli Vəliyev (paraüzgüçülük, S10, 2009-2013-cü il təvəllüdlülər arasında, 100 metr sərbəst, 400 metr sərbəst) isə bürünc medala yiyələnib.

## Keniyalı voleybolçu "Gəncə"də

**Qadınlardan ibarət "Gəncə" voleybol klubu heyətini Keniya yığmasının üzvü ilə gücləndirib. Belə ki, afrikalı idmançı Şeron Çepçumba ilə müqavilə imzalanıb.**



Voleybolçu ötən mövsümü Vyetnamın "Hoa chat Durc Giang Lao Cai" komandasında keçirib. O, karyerası ərzində Keniya, Türkiyə və Yunanıstan klublarında forma geyinib.

"Çumba" ləqəbli voleybolçu klublararası Afrika çempionatının, Vyetnam və Keniya liqalarının qalibi olub.

Keniya millisinin heyətində 2019-cu ildə Afrika Oyunlarında, 2023-cü ildə isə Afrika çempionatında qızıl medal qazanıb. Voleybolçu ardıcıl iki Yay Olimpiya Oyunlarının iştirakçısı olub.

*MH ACIXANLI*
*XQ*

*✓ 2007-ci il iyunun 12-də Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Rəsulov Ceyhun Bahadur oğlunun adına verilmiş B seriyalı,102211 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.*

# Düşünmək necə kalori yandırır?

**Düşüncə – bədənin fiziki hərəkəti olmasa da, əslində, ciddi enerji sərfiyyatı ilə müşayiət olunan mürəkkəb prosesdir. Beynin aktiv fəaliyyəti zamanı, xüsusilə də dərin zehni gərginlik tələb edən hallarda, insan orqanizmi əhəmiyyətli miqdarda kalori sərf edir. Məsələn, şahmat kimi yüksək konsentrasiya və strateji düşüncə tələb edən intellektual fəaliyyət zamanı insan bədəni saat ərzində yüzlərlə kilokalori yandıra bilər.**

Bu, ilk baxışdan paradoksal görünə bilər: axı bədən sakitdir, əzələlər hərəkət etmir, amma enerji sərfi yüksəkdir. Bunun səbəbi beynin orqanizmimizdə ən çox enerji istifadə edən orqan olmasıdır. Beyin cəmi 2 faiz bədən çəkisini təşkil etsə də, istirahət vəziyyətində belə ümumi enerjinin 20-25 faizini istifadə edir. Zehni yüklənmə artdıqca bu rəqəm daha da yüksəlir.



### Beyin və enerji

Mütəxəssislərin fikrincə, mürəkkəb düşüncə prosesləri, məsələn, məntiqi məsələlərin həlli, yüksək səviyyəli planlaşdırma və qərar qəbuletmə - sinir hüceyrələrinin (neyronların) daha aktiv işləməsinə səbəb olur. Bu da qlükoza və oksigen kimi maddələrin daha intensiv istifadəsinə gətirib çıxarır. Enerji istehlakı artdıqca, bədən bu tələbatı qarşılamaq üçün maddələr mübadiləsini sürətləndirir.

Məsələn, 1984-cü ildə aparılmış bir tədqiqat şahmatçıların beyninin uzunmüddətli turnirlər zamanı təxminən 500-600 kilokalori sərf etdiyini ortaya qoyub. Bu rəqəm orta tempdə sürətli gəzmə ilə müqayisə oluna bilər.

### Baş və bədən

Zehni gərginlik təkcə enerji sərfi ilə məhdudlaşmır. Uzunmüddətli intellektual fəaliyyət stres hormonlarının artmasına, yuxu ritminin pozulmasına, hətta qidalanma vərdişlərinə də təsir edə bilər. Buna görə də, yüksək zehni yüklə çalışan şəxslər balanslı qidalanma, düzgün istirahət və fiziki aktivliklə bu təsirləri kompensasiya etməlidirlər.

Beləliklə, düşünmək, sadəcə, "baş işlətmək" deyil – bu, fizioloji baxımdan da ciddi prosesdir. Beynin aktivliyi bədənin ümumi enerji balansına birbaşa təsir edir. Buna görə də, zehni əməyə əsaslanan fəaliyyət növlərində çalışan insanlar fiziki passiv görünsələr də, əslində, bədənlərinin "içəridə" necə çalışdığını nəzərə almalı, qidalanma və istirahət rejimlərini buna uyğun qurmalıdırlar.

*Ə.PAŞA*
*XQ*

# Qız qalasında Vyetnam günləri

**İçərişəhərin tacı olan Qız qalası meydanında xüsusi mədəni-əyləncəli proqram - Vyetnam günləri keçirilib.**



Azərbaycanın Vyetnamdakı səfirliyinin təşəbbüsü və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin dəstəyi ilə reallaşan tədbir iki qədim Şərq mədəniyyətini bir araya gətirib.

Meydanda Vyetnam musiqisinin müşayiəti ilə rəssamlıq əsərləri sərgilənib, zəriflik və ənənənin təcəssümü sayılan ölkənin milli qadın geyimi - "Ao Zai" nümayiş olunub. Qonaqlar üçün əl işlərinin satış-sərgisi də təşkil olunub.

Vyetnam günləri Bakıda və Hanoyda baş tutan qarşılıqlı dostluq tədbirlərinin davamı olaraq xalqlarımız arasında mədəni əməkdaşlığın və qarşılıqlı hörmətin möhkəmləndirilməsinə xidmət edir.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən qəzetimizə bildirildi ki, tamaşaçılar Vyetnam mədəniyyəti – bu ölkənin milli geyimləri, mətbəxi, təsviri sənəti ilə tanış olurlar.

*Fidan SALMANOVA*
*XQ*



## Hava

# Abşeronda yenə yağmursuz, bəzi dağlıq ərazilərdə isə yağış...

**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən, yağmursuz keçəcəyi gözlənilir. Lakin iyulun 28-dən 29-na keçən gecə və səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 23-27, gündüz 32-37 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 754 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 45-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi, gecə və səhər arabir duman olacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 22-26, gündüz 35-40, dağlarda gecə 10-15, gündüz 22-27 dərəcə isti olacaq.



*Q.QASIMOV*
*XQ*

**Tarixdə iz qoyan varlıqlar yalnız insanlar olmur. Yaponiyada dünyaya gəlmiş və 226 il yaşamış Hanako adlı bir koi balığı bunun bariz nümunəsidir. O, nəinki öz növü, hətta ümumilikdə heyvanlar aləmində qeydə alınmış ən uzunömürlü canlılardan biri kimi tarixə düşüb.**

# Dünyanın ən uzunömürlü balığı



Hanako adlı bu qeyri-adi balıq 1751-ci ildə Yaponiyanın mərkəzindəki Gifu prefekturasında, dağlıq ərazidə yaşayan bir ailəyə məxsus təbii göldə dünyaya gəlib. O zamanlar dünya indikindən çox fərqli idi – Avropada hələ sənaye inqilabı başlamamış, Amerika Birləşmiş Ştatları yaranmamışdı. Lakin Hanako sakitcə öz ömrünü yaşayır və zamanın axarını izaholunmaz səbir və təmkinlə müşahidə edirdi.

7 iyul 1977-ci ildə, 226 yaşında ölən Hanako bu uzun ömrü ilə yalnız bir ailənin deyil, bütöv bir ölkənin mədəni və bioloji yaddaşına çevrilmişdi.

### Hanakonun yaşı necə müəyyən olundu?

1966-cı ildə Hanakonun sahibi olan professor Komao Kato onun yaşını dəqiq öyrənmək üçün elm adamlarına müraciət edir. Nəticədə Nippon Universitetinin alimləri Hanakonun bir neçə pulcuğunu çıxarıb, onların üzərindəki illik halqaların mikroskopik analizini diqqətlə araşdırırlar. Ağacların gövdələrindəki halqalara bənzər şəkildə koi balığının pulcuqlarında da hər il yeni qat yaranır. Bu üsul vasitəsilə Hanakonun təxminən 215 yaşında olduğu təsdiqlənmişdi. Bundan sonra o, daha 11 il yaşadı və ümumi ömrü 226 ilə çatdı.

### Uzun ömrün sirləri

Hanako uzun illər dağların qoynunda, bir ailənin bağındakı göldə, təmiz bulaq suyu ilə bəslənən bir məkanda yaşayıb. Onun uzunömürlülüyü bəziləri üçün yapon həyat fəlsəfəsinin – təbiətlə ahəng içində yaşamağın simvoluna çevrilmişdi.

Bugünkü dünyada bu cür faktlar yalnız təbiətə deyil, həm də tarixə yeni baxış bucağı təqdim edir. Hanako, bir balıq olaraq, iki əsrin sakit şahidi kimi yaddaşlarda qalır.

*P.ƏMİRCANOV*
*XQ*

# Bəxtiyar Vahabzadə irsi rənglərdə



**Neftçala Dövlət Rəsm Qalereyasında Xalq şairi Bəxtiyar Vahabzadənin anadan olmasının 100 illik yubileyi münasibətilə "Bəxtiyar Vahabzadəyə xitabən" adlı ustad dərsi və sərgi təşkil olunub.**

Rəssam Dadaş Dadaşovun keçirdiyi ustad dərsində həvəskar rəssamlar şairin poeziyasından ilhamlanaraq, fırçalarını onun obrazına və ideyalarına həsr ediblər. Rəsm əsərlərində Bəxtiyar Vahabzadənin vətənpərvər ruhu, azadlıq və milli kimlik motivləri öz əksini tapıb.

Ustad dərsində iştirak edən gənc və yeniyetmə rəssamlar müxtəlif texnikalara müraciət ediblər.

Bu dərsin keçirilməsində məqsəd gənc nəslə milli mədəniyyətimizə, poeziyaya və incəsənətə olan sevgi aşılamaqdır.

Sonda çəkilən rəsmlərdən ibarət sərgiyə baxış olub.

*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Hacı Cəlil Süleymanov Saray Quliyeva, Ulduz Babayeva və Ülkər Cavadovaya əzizləri

**QURBAN BABAYEVİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3330
SİFARİŞ 1514
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00